

# Dünya ermələri COP29-a hücuma keçiblər

**Anti-Azərbaycançı şəbəkə COP29 ərəfəsində ölkəmizə qarşı düşmənçiliyini davam etdirir. Bu şəbəkənin, necə deyərlər, çörəyinin "erməni dəyirmanı"ndan çıxdığına dair son günlər yeni-yeni faktlar yayılır. Məsələn, "Caliber.az" saytında yayımlanmış məqalədə bildirilir ki, bu kampaniyanın aparıcısı dünya ermənilərinin əsas təşkilatı – Erməni Milli Komitəsi (ANC) və onun ABŞ şöbəsidir (ANCA). Məhz onlar bu kampaniyanı maliyyələşdirir və həyata keçirirlər.**

(ardı 4-cü səhifədə)




## Dirçələn Füzuli – Türk dünyasının azad şəhəri



Səhifə ⇨ 6



# Xalq qəzeti

Xalqın qəzeti!

№ 228 (30632) 17 oktyabr 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti





# Qarabağ yenidən cənnətə çevrilir

**Hazırda işğaldan azad olunan ərazilərə Böyük Qayıdışın reallaşdırılması üçün müasir şəhərsalma qaydaları nəzərə alınmaqla Qarabağ və Şərqi Zəngəzurda yaşayış və qeyri-yaşayış kompleksləri inşa edilir, müasir infrastruktura malik "ağıllı şəhər və ağıllı kənd" konsepsiyaları həyata keçirilir.**

**Bu əsasda bütün bölgədə müasir standartlara uyğun sosial-iqtisadi və mədəni infrastruktur qurulur, kommunal xidmətlər şəbəkəsi, xüsusilə tullantıların səmərəli idarə edilməsi sistemi yaradılır. Sosial xidmət infrastrukturu bərpa olunur. Bir sözlə, Qarabağ və Şərqi Zəngəzurun yaşayış məntəqələrində zəruri sosial-iqtisadi infrastruktur təminatı, iqtisadi canlanmanın sürətləndirilməsi, habelə nəqliyyat potensialının artırılması və yaşayış məntəqələrinin yenidən qurulması yüksək templə davam etdirilir.**

(ardı 7-ci səhifədə)

## "3+3"– regional maraqlar və ziddiyyətlər



Səhifə ⇨ 4

## Azərbaycan 172 ölkə ilə ticarət tərəfdaşıdır



**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar–avqust aylarında Azərbaycan dünyanın 172 ölkəsindəki tərəfdaşı ilə ticarət əməliyyatları həyata keçirib, 117 ölkəyə məhsul ixrac olunub, 161 ölkədənsə idxal edilib.**

Gömrük orqanlarında qeydiyyatı aparılan, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmayan ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla bu ilin 8 ayında xarici ticarət dövriyyəsi 30 milyard 212,3 milyon dollar, o cümlədən, ixracın dəyəri 17 milyard 448,4 milyon dollar, idxalın dəyəri isə 12 milyard 763,9 milyon dollar təşkil edib, nəticədə 4684,5 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb.

Dövlət Gömrük Komitəsindən verilən məlumata əsasən, xarici ticarət dövriyyəsinin 88,5 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, İsrail, Almaniya, Avstraliya, Hindistan, Çexiya, ABŞ, Xorvatiya, Birləşmiş Krallıq, Yunanıstan, Portuqaliya, Bolqarıstan, Gürcüstan, İran, Rumıniya, Ukrayna, Belarus, İsveçrə, Türkmənistan, Tailand və Koreya ilə aparılıb. Ölkəyə idxal olunan məhsulların ümumi dəyərinin 17,8 faizi Çin, 17,1 faizi Rusiya, 11,8 faizi Türkiyə, 7,1 faizi Avstraliya, 5,1 faizi ABŞ, qalan hissəsi isə digər ölkələrin payına düşüb. İdxalda maşın-mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, nəqliyyat vasitələrinin, kimya sənayesi məhsullarının dəyəri üstünlük təşkil edib.

(ardı 7-ci səhifədə)

## Azərbaycan – Gürcüstan dostluğu regionda sülh və inkişafın qarantıdır



**Region ölkələrinin bir-biri ilə əlaqələri sabitliyin təmin olunması və Cənubi Qafqazın gələcəyi baxımından çox önəmlidir. Bu mənada, Azərbaycan – Gürcüstan əlaqələrinin xarakteri bölgənin inkişafı baxımından strateji əhəmiyyət daşıyır. Son illərdə hər iki ölkənin kommunikasiya və enerji təşəbbüslərində, eləcə də kommersiya fəaliyyətlərində çoxşaxəli strateji əməkdaşlıq yaratması regionun sabit inkişafına müsbət təsir göstərir. Bu müsbət dinamikanın saxlanması, Bakı və Tbilisi arasındakı strateji əlaqələrin səviyyəsilə birbaşa bağlıdır.**

(ardı 3-cü səhifədə)

# Siyasi avantürizmin Xandanyan nümunəsi

*Ermənistan hakim komandasının anti-sülh ritorikası davam edir*



**Azərbaycan Prezidenti İlham Əliyevin Belçikanın ölkəmizdəki yeni fövqəladə və səlahiyyətli səfiri Julyen de Freponun etimadnaməsini qəbul edərkən onunla söhbət zamanı bildirdiyi fikirlər Ermənistanda geniş müzakirələr doğurub. Müzakirələrə diqqət yetirəndə, gözlər önündə canlanan bir səhnə var – Atalar demişkən, "İtdən soruşurlar ki, niyə hürürsən? Deyir ki, qorxuduram. Soruşurlar ki, bəs niyə quyruq bulayırsan? Qayıdır ki, özüm də qorxuram". Zənnimizcə, əlavə şərhə ehtiyac yoxdur.**

(ardı 3-cü səhifədə)

## Britaniya parlamentində COP29-a dəstək



Səhifə ⇨ 8

# Fransanın siyasi motivli həbsləri qəbuledilməzdir



**Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransa tərəfindən "Telegram" sosial şəbəkəsinin təsisçisi Pavel Durovun və Afrika xalqlarının hüquqları uğrunda mübarizə aparan Kemi Sebanın həbsi ilə bağlı yerli medianın sualına cavabında bildirib:**

"Pavel Durovun və Kemi Sebanın Fransa hüquq-mühafizə orqanları tərəfindən saxlanılması və onlar barəsində həbs-qətimkan tədbiri seçilməsi Fransada fundamental insan haqlarının pozuntusudur. Bu şəxslərin siyasi əqidəsinə və fikirlərinə görə təqib olunması qəbuledilməzdir. Fransa tərəfi aidiyyəti istintaqı tam şəffaf və ədalətli şəkildə aparmalı, beynəlxalq ictimaiyyət müvafiq olaraq məlumatlandırılmalıdır.

Fransada siyasi motivli bu kimi həbslər Avropa İttifaqı, Avropa Şurası və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının aidiyyəti qurumları tərəfindən araşdırılmalı, müvafiq qiymət verilməlidir".

*XQ*

# Serbiya ilə növbəti siyasi məsləhətləşmə

**Belqrad şəhərində Azərbaycanın və Serbiyanın xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib. Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, Serbiya nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin dövlət katibi Damyan Yoviç rəhbərlik edib.**

Görüşdə iki ölkə arasında strateji tərəfdaşlığın gücləndirilməsi, siyasi, iqtisadi, energetika və humanitar sahələrdə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri, eləcə də ölkəmiz tərəfindən həyata keçirilən strateji enerji və nəqliyyat layihələri ilə bağlı müzakirələr aparılıb.

Cari ilin noyabrında Azərbaycanın ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) iki ölkə arasında mövcud strateji əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaradacağı bildirilib. Azərbaycan-Serbiya parlamentlərarası əməkdaşlığının əhəmiyyəti vurğulanıb və bu xüsusda qarşılıqlı səfərlərin, ikitərəfli və çoxtərəfli müstəvidə təmasların daha da intensivləşdirilməsinin faydalı olacağı qeyd edilib.

Görüşdə postmünaqişə dövründə bölgədəki vəziyyət, Azərbaycan tərəfindən davamlı sülhün bərqərar olunması istiqamətində atılan addımlar, işğaldan azad edilmiş ərazilərimizdə mina problemi və orada həyata keçirilən bərpa-quruculuq işləri barədə qarşı tərəfə ətraflı məlumat verilib.

Səfər zamanı F.Rzayev Serbiyanın digər rəsmi şəxsləri ilə də görüşüb, tədqiqatçılar və ekspertlərlə dəyirmi masa formatında keçirilən müzakirələrdə iştirak edib.

*XQ*

# Ermənistanın dağ-mədən sənayesi bölgədə ciddi təhlükə mənbəyidir





**Dünən Ermənistanın qanunsuz dağ-mədən sənayesi fəaliyyətinin Azərbaycanın və bütövlükdə Cənubi Qafqazın ekologiyasını zəhərləməsi ilə bağlı brifinq keçirilib.**

"Environmental Protection First" Koalisiyasının həmtəsisçisi Amin Məmmədov bu birliyin yaradılmasının məqsədindən danışarq bildirib ki, Ermənistan Azərbaycanın Naxçıvanla həmsərhəd bölgəsində – Arazdəyəndə iri metallurgiya zavodunu inşa etməyə hazırlaşırdı. Bu da "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında 1991-ci il Konvensiyası"nın (Espo) kobud şəkildə pozulması demək idi. Lakin Azərbaycan tərəfinin etirazından sonra bu iş dayandırıldı.

Qeyd edilib ki, 2024-cü ilin əvvəlində Ermənistanda fəaliyyət göstərən bir neçə QHT tarixi torpağımızda - Amuldağ yatağı olan ərazidə yeni yataqların istismarı ilə bağlı Ermənistan hökumətinin qərarına etiraz edib. EPF Koalisiyası da Ermənistanda yatağın istismarına etiraz edən QHT-lərlə həmrəy olduğunu bildirib. Buna görə də həmin QHT-ləri Ermənistanda Azərbaycana casusluq etməkdə günahlandırıblar: "Ermənistan Espo Konvensiyasının üzvü olsa da, buna əməl etmir. Əgər bir ölkə qonşu dövlətin sərhədinə yaxın ərazidə sənaye və iqtisadi fəaliyyət həyata keçirərsə, bununla bağlı mütləq şəkildə qonşu dövlətin ictimaiyyətinə və hökumətinə hesabat təqdim etməlidir".

"Environmental Protection FirstKoalisiyasının digər həmtəsisçisi Sabit Bağırov isə vurğulayıb ki, bütün dünyada faydalı qazıntıların mədən hasilatı ətraf mühitə çox ciddi mənfi təsirlərlə müşayiət olunur: "Azərbaycanda vətəndaş cəmiyyəti təşkilatlarının Ermənistan vətəndaş cəmiyyəti təşkilatları ilə yeni razılaşdırılmış zolaqda ekoloji vəziyyətin birgə monitorinqi sahəsində konstruktiv əməkdaşlığın qurulması istiqamətində səylərini davam etdirmələri vacibdir. Zolağın eni hökumətlərarası sazişlə razılaşdırıla bilər".

*XQ*

# Müasir dini təhsil: ənənələr və qlobal çağırışlar





**Dünən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə "Müasir dini təhsil modelləri ənənələr və qlobal çağırışlar kontekstində" adlı respublika elmi-praktik konfransı keçirilib. Məclisdə dövlət orqanlarının rəhbər şəxsləri, elm adamları, ziyalılar, din xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Konfransın açılışında Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, elm və təhsil naziri Emin Əmrullayev, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, İctimai birliklər və dini qurumlar komitəsi sədrinin müavini Sahib Alıyev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev və Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev çıxış ediblər.

Natiqlər bildiriblər ki, dinin əsas prinsiplərinin cəmiyyətə doğru şəkildə çatdırılması üçün din təhsili olduqca vacib məqamdır. Bu, həm də cəmiyyətin təhlükəsizliyi baxımından böyük əhəmiyyət kəsb edir. Belə ki, din dəyərlər sistemi olaraq, cəmiyyətin mənəvi inkişafında və ictimai vəhdətin təminində mühüm rol oynayır. Bununla yanaşı, dinin səhv interpretasiyası milli-mənəvi birliyə aparmır, əksinə, ictimai bölünməyə gətirib çıxarır.

Sonra elmi-praktik konfrans işini "Azərbaycanda dini təhsil: keçmişdən bu günə", "Dünyəvi dövlətdə dini təhsilin aktual məsələləri", "İslam coğrafiyasında dini təhsil: ənənə və müasir çağırışlar", "Dini tərbiyə, dini təhsil və din tədrisi" mövzularında panellərdə davam etdirib.

*XQ*

# Bakı Təşəbbüs Qrupu: "Kemi Seba siyasi məhbusdur"

**Bakı Təşəbbüs Qrupunun Afrika xalqlarının hüquqları uğrunda mübarizə aparan tanınmış fəal Kemi Sebanın Fransa hüquq-mühafizə orqanları tərəfindən qeyri-qanuni saxlanılmasına dair bəyanat yayıb.**

Açıqlamada Bakı Təşəbbüs Qrupu Afrika xalqlarının hüquqları uğrunda mübarizə aparan tanınmış fəal Kemi Sebanın Fransa hüquq-mühafizə orqanları tərəfindən qeyri-qanuni saxlanılmasını qətiyyətlə pisləyir: "Bu qanunsuz addım yalnız şəxsi azadlıq və insan hüquqlarına qarşı kobud pozuntu deyil, həm də Afrika xalqlarının neokolonializmə qarşı mübarizəsinə və suverenlik hüququna yönəlmiş təzyiq kimi qiymətləndirilməlidir. Kemi Seba uzun illər ərzində neokolonializm siyasətlərinə qarşı çıxan və Afrikanın müstəqillik uğrunda apardığı mübarizədə önəmli simalardan biridir. Onun saxlanılması ifadə və siyasi fəaliyyət azadlığının pozulması olmaqla yanaşı, Fransanın Afrikada mövcudluğunu və təsirini qeyri-legitim yollarla davam etdirməyə çalışdığını bir daha sübuta yetirir".

Bəyanatda daha sonra bildirilir ki, belə hərəkətlər Fransa dövlətinin hələ də müstəmləkə dövrü təfəkküründən çıxmadığını və öz hegemonluğunu qorumağa çalışdığını göstərir: "Kemi Seba siyasi məhbusdur və onun saxlanılması birbaşa siyasi fəaliyyəti ilə əlaqədardır. Bakı Təşəbbüs Qrupu beynəlxalq ictimaiyyəti, insan hüquqları müdafiəçilərini və beynəlxalq təşkilatları bu qanunsuz hərəkəti qınamağa, Fransa hökumətini Kemi Sebanı dərhal və qeyd-şərtsiz azad etməyə çağırır".

*XQ*

# "Su və gender bərabərliyi"



**ADA universitetində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və ADA universitetinin birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində COP29-a həsr olunmuş "Su və gender bərabərliyi" mövzusunda konfrans keçirilib.**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, COP29 təşkilat komitəsinin üzvü Bahar Muradova məclisdə çıxış edərək qadınların su resurslarının idarə olunmasına cəlb edilməsinin ümumi işə müsbət təsir göstərə biləcəyini vurğulayaraq deyib: "Su, təhsilə əlçatanlılıq, gender bərabərliyi, yüksəkixtisaslı kadr hazırlığı üzrə hədəflərimiz üçün vacib amildir. Bu bir həqiqətdir ki, su həyat mənbəyidir və onun ədalətli şəkildə paylanılması da xüsusi əhəmiyyət kəsb edir".

Komitə sədri sudan istifadənin təbii ehtiyac olduğunu vurğulayaraq suya əlçatanlılığın arzuedilən səviyyədə olmadığını vurğulayaraq suya ehtiyacın ödənilməsində, onu toplanılmasında, səmərəli istifadə edilməsində qadınların üzərinə daha çox vəzifə düşdüyünü bildirib. O, qadınların su resurslarının idarə olunmasına cəlb edilməsinin ümumi işə müsbət təsir göstərə biləcəyini xatırladıb və bunun üçün xüsusi proqramların hazırlanıb işlənilməsi zəruriliyini diqqətə çatdırıb.

B.Muradova çıxışında gender yanaşmalarında xüsusi əhəmiyyət verilən mütəxəssis hazırlığına toxunub və elmi-tədqiqat işlərində gender bərabərliyinin təmin edilməsinin mühüm önəm daşıdığını vurğulayıb.

*XQ*

# Rusiya XİN rəsmisi erməni böhtanını cavablandırıb



**Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova erməni jurnalistin, guya, Azərbaycanın erməni əhalisinin öz evlərinə qayıtmaması üçün Xankəndidə evləri sökməsi ilə bağlı sualını cavablandırarkən bildirib: "Azərbaycan tərəfi Qarabağın erməni əhalisinə öz evlərinə qayıtmaq imkanı yaradıb".**

M.Zaxarova qeyd edib ki, söhbət Azərbaycanın ərazisindən gedir və orada bu ölkənin qanunları qüvvədədir: "Biz öz evlərini tərk etmiş əhaliyə ora qayıtmaq üçün imkanın yaradılmasına yönəldilən konstruktiv addımları dəfələrlə şərh etmişik, vurğulamışıq. Biz azərbaycanlı həmkarlarımızla ikitərəfli təmaslar zamanı bu məsələni qaldırırıq və müvafiq izahatlar və izahlar alırıq. Mən bir daha vurğulamaq istəyirəm ki, qayıtmaq imkanı yaradılıb".

*XQ*

# İsveçrə parlamenti ermənilərə vəkillik edir

**Qərbi Azərbaycan İcmasının İsveçrə Federal Məclisinin Xarici Siyasət Komissiyasının ölkəmizə qarşı qərəz və böhtana əsaslanan, ermənilərə vəkillik niyyəti daşıyan çağırışı ilə bağlı bəyanat yayıb.**

Açıqlamada komissiyanın İsveçrə hökumətinə "Azərbaycan hökuməti və Qarabağdan olan ermənilər arasında bir konfrans təşkil etmək" təklifi kəskin qınanılır: "Sənəddə yer almış ölkəmizin ərazi bütövlüyü və suverenliyinə, beynəlxalq hüquqa zidd yanaşma və böhtan dolu fikirlər onun müəlliflərinin əsl niyyətinin heç də sülh və dialoqu təşviq etmək olmadığını göstərir. Xatırladaq ki, Azərbaycan hökuməti Qarabağdan olan ermənilərin reinteqrasiyası üçün planlarını ictimaiyyətə açıqlamış və ötən il onlarla dialoq aparmışdır. Lakin Qarabağdan olan ermənilər dialoqdan və Azərbaycanın reinteqrasiya təklifindən imtina etmişlər".

Bəyanatın davamında qeyd edilir ki, belə olan şəraitdə İsveçrənin bitərəfliyinə istinad edib, bədnam gündəlik və formatla "dialoq"a çağırış etmək bu ölkənin bitərəf statusundan sui-istifadədir və regiondakı vəziyyəti gərginləşdirməyə xidmət edir: "Regiondan xəbəri olmayan dairələrin Azərbaycanın daxili işlərinə qarışan bu cür cəhdləri təkəbbürlü yanaşma olmaqla, tamamilə qəbuledilməzdir. Vurğulamaq istərdik ki, Qarabağ münaqişəsi artıq beynəlxalq hüquqa uyğun olaraq öz həllini tapıb. Buna baxmayaraq, son dövrlər bəzi qərb dairələrinin regionda yenidən münaqişə yaratmaq cəhdlərini müşahidə edirik. İsveçrə parlamentində irəli sürülmüş son təşəbbüs də bunun tərkib hissəsidir".

Sonda İsveçrə parlamentinə xatırladılır ki, dialoqa çağırılmalı olan öz ərazisindən azərbaycanlıları zorla çıxarmış olan Ermənistan hökumətidir: "Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətinə dialoq üçün müraciət etsə də, bu, cavabsız qalmışdır. Bundan əlavə, məhz azərbaycanlıların Ermənistana qayıdışı üçün beynəlxalq nəzarət altında olan proses təşkil edilməlidir. Biz, İsveçrə parlamentinin üzvlərindən Ermənistan tərəfindən qovulmuş azərbaycanlılara qarşı ayrı-seçkiliyə son qoymağı və onların təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıtmaq hüququna hörmət etməyi tələb edirik".

*XQ*

# Azərbaycan – Gürcüstan dostluğu regionda sülh və inkişafın qarantıdır

(əvvəli 1-ci səhifədə)

Azərbaycan və Gürcüstanın oxşar geosiyasi proseslərdən keçməsi hamıya məlumdur. Hər iki xalq 1918-ci ildə müstəqil dövlətlərini elan etmiş, lakin bolşeviklərin bölgədə dominant mövqe tutması ilə tezliklə müstəqilliklərini itirmişdilər. SSRİ-nin dağılmasından sonra bu respublikalar yenidən müstəqilliklərini bərpa etmək imkanı qazandılar və yeni dövrün başlanması ilə hər iki dövlət münasibətlərdə yeni mərhələyə qədəm qoydu. Məhz bu mərhələdə hər iki xalqın ictimai-siyasi həyatında, eləcə də sosial-iqtisadi inkişafında böyük rol oynamış enerji-kommunikasiya layihələri uğurla həyta keçirilmişdi. Sovet İttifaqının süqutundan sonra Qafqaz regionundan Avropaya ilk dəfə neft və qaz boru kəmərlərinin çəkilməsi Azərbaycan və Gürcüstan dövlətlərinin böyük strateji qələbəsi olmaqla yanaşı, həm də iki ölkə arasında uğurlu ikitərəfli münasibətlərin yaranmasının təsdiqi olmuşdu.

Bu gün münasibətlərimiz yüksələn xətt üzrə inkişaf edir. Hazırda ölkələrimizin əməkdaşlığı Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində də mühüm rol oynayır. Əsrlər boyu Qərblə Şərqi birləşdirən Azərbaycan və Gürcüstan ərazisindən keçən qədim İpək Yolu Bakı–Tbilisi–Qars (BTQ) layihəsinin reallaşması nəticəsində "Dəmir İpək Yolu"na çevrilir. Ümumiyyətlə, BTQ-nin istismara verilməsi Azərbaycan və Gürcüstan üçün böyük əhəmiyyət kəsb edir. Bu beynəlxalq layihənin həyata keçirilməsi Trans-avropa və Trans-asiya dəmir yolu şəbəkəsinin birləşdirilməsini, yük və sərnişinlərin birbaşa Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya çıxarılmasını təmin etməklə yanaşı, həmin ölkələrin tranzit imkanlarınının artmasını,





Avrasiya materikində vacib nəqliyyat sistemlərinin inteqrasiya proseslərinin və ölkələrarası ticarətin sürətlənməsini təmin edir. Eləcə də xalqlar arasında ünsiyyətin intensivləşməsinə səbəb olan BTQ-nin istifadəyə verilməsinə Azərbaycanın və Gürcüstanın dünya bazarlarına daha çox və münasib qiymətlərlə məhsul çıxarmasına şərait yaradır.

Təbii ki, xalqlarımızın firavanlığı, eləcə də regionda sabitlik bu strateji enerji-kommunikasiya layihələrinin uğurla fəaliyyət göstərməsindən asılıdır. Bu layihələr həm Azərbaycanın və Gürcüstanın iqtisadi inkişafında, həm də hər iki ölkənin siyasi müstəqilliyinin möhkəmlənməsində həlledici amil hesab olunur. Ona görə də, müşahidə edilən qarşılıqlı faydalı əməkdaşlıq Azərbaycan və Gürcüstan arasında mövcud münasibətləri daha da aktivləşdirməyə, iqtisadi əlaqələri daha da sürətlə inkişaf etdirməyə imkan yaradır. Qarşılıqlı hörmət və etimad əsasında qurulan Azərbaycan–Gürcüstan əlaqələri dinamik inkişaf edir, ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə faydalı əməkdaşlıq əlaqələri qurulur.

Gürcüstan Azərbaycanın enerji resurslarının Avropa bazarlarına çatdırılmasında, eləcə də Şərqdən Qərbə yüklərin daşınmasında mühüm tranzit rolunu oynayır. Gürcüstan və Azərbaycan arasında mövcud strateji tərəfdaşlıq özünməxsus xarakter daşıyır və getdikcə yeni müsbət aspektlər əldə edir ki, bu da ölkələrimizin və bütövlükdə regionun rifahı üçün əhəmiyyətlidir.

Bakı Tbilisi ilə ikitərəfli, həm də beynəlxalq layihələr çərçivəsində, xüsusilə də bütün region üçün strateji əhəmiyyət kəsb edən layihələrlə – Bakı–Tbilisi–Qars dəmir yolu, Bakı–Tbilisi–Ceyhan neft kəməri və Cənub–Qərb layihələri çərçivəsində fəal əməkdaşlıq edirlər. Yuxarıda qeyd etdiyimiz kimi, region xalqlarının inkişafı və rifahı məhz bu layihələrin fəaliyyətindən, iki qonşu ölkənin münasibətlərinin yüksək səviyyədə qalmasından birbaşa asılıdır. Buna görə də Qərb ilə Şərq arasında enerji körpüsü rolunu oynayan Gürcüstanda qeyri-regional güclərin öz ambisiyalarını reallaşdırmağa çalışmaları yolverilməzdir.

***SE LAY***
***XQ***

# Siyasi avantürizmin Xandanyan nümunəsi

(əvvəli 1-ci səhifədə)

Bəli, erməni rəsmiləri, ümumiyyətlə, siyasətçiləri söz oyunu ilə məşğuldurlar. Onlar ölkələrinin Azərbaycanla sülhdən yayınması üçün ən müxtəlif yollara əl atırlar, ən ağlasızmaz şəkildə interpretasiyalara yol verirlər, öz aləmlərində, diplomatik davrandıqlarını sanıb hər cür cəfəngiyyatı dilə gətirirlər. Əlbəttə ki, bütün bunlar Azərbaycanı mənfi yöndə təqdim etmək və yekunda məqsəd ölkəmizlə sülhün mümkünsüzlüyünə dair görüntü formalaşdırmaqdır. Nəzərə alaq ki, indiki Ermənistan hakimiyyəti məhz bu mümkünsüzlük amili üzərində qərarlaşmış "qruplaşmadır".

Aydındır ki, sülh yaransa, Ermənistan stabil məcraya qədəm qoyacaq. Baş nazir Nikol Paşinyan administrasiyası isə belə gedişata hazır deyil. Axı sabitlik mühitində erməni hakim komandasının səriştəsizliyi və bacarıqsızlığı üzə çıxacaq. Böhran amili üzərində qərarlaşmış erməni hakim komandasının strukturu pozulacaq. Azərbaycanla qarşıdurmanı bir kənara qoyaq, onun Rusiya ilə də ziddiyyətləri var. Bu durumda Rusiya–Ukrayna müharibəsinin İrəvana qazandırdığı dividendi vurğulamalıyıq. Məlum olduğu kimi, Ermənistan sanksiya altında olan rus mallarının təkrar ixracı ilə məşğuldur. Eləcə də beynəlxalq aləmin rus bazarı üçün yasaq etdiyi malları öz üzərindən Şimala ötürür. Belə qənaət yaranır ki, Rusiya–Ukrayna müharibəsi bitsə, Ermənistanın hazırda Paşinyan iqtidarının öyündüyü iqtisadi inkişaf tempindən əsər-əlamət qalmayacaq. Yəni, qeyri-sabitlik rəsmi İrəvana həm xaric, həm də daxil baxımından vacibdir. Üstəlik, onun Qərbin aləti kimi çıxış etməsi reallığını nəzərə almalıyıq. Mövcud reallığın diktə etdiyi şərtlər də Ermənistanı sülh səmimiyyətindən uzaq tutur.

Əlqərəz, böhran amilindən söz açmışdıq. Daha doğrusu, sülhdən yayınmaq üçün böhran ssenarisinin uydurulmasından. Azərbaycan bu "ssenarıdə", kifayət qədər, ciddi hədəfdir. Həm də ona görə ki, ölkəmizə qarşı çıxmaq erməni qövmünün varlıq, özünütəsdiq göstəricisidir. Elə bir göstərici ki, onun fəlakət perspektivini yetişdirdiyi şübhəsizdir. Ermənistanın hakim komandasının təmsilçiləri isə bildirdikləri ilə fəlakət və iflas katalizatoruna çevrilirlər. Ölkə parlamentinin Xarici əlaqələr daimi komissiyasının sədri Sarkis Xandanyan da bu baxımdan istisna deyil.

S.Xandanyan bir neçə məqama toxunub. O, ilk növbədə, Prezident İlham Əliyevin Belçikanın ölkəmizdəki səfiri ilə görüşdə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Azərbaycan və Ermənistan arasında vasitəçilik missiyası ilə bağlı bildirdiklərinə diqqət yetirib. Dövlətimizin başçısı demişdi ki, İrəvanın destruktiv yanaşması səbəbindən Mişelin, daha dəqiq desək, Aİ-nin sülh missiyası pozulub.

Xandanyan, öz aləmində, xronoloji ardıcıllıq müəyyənləşdirib. O, Avropa Siyasi Birliyinin 2023-cü ilin iyununda Kişineudakı sammit çərçivəsində əvvəlki Brüssel müzakirələrinə yekun vurmaq platforması kimi Fransa Prezidenti Emmanuel Makron, Almaniya Kansleri Olaf Şolts, Aİ Şurasının prezidenti Şarl Mişel, həmçinin, Prezident İlham Əliyev arasında beştərəfli görüşün keçirildiyini xatırladıb və bildirib ki, həmin görüşdə bu format çərçivəsində növbəti görüşün həmin ilin oktyabrında Avropa Siyasi Birliyinin Qranadada keçiriləcək sammitində təşkilinə dair razılıq əldə olunmuşdu. Bundan əvvəl isə iyulun 15-də Brüsseldə (Azərbaycan və Ermənistan liderlərinin Şarl Mişelin vasitəçiliyi ilə) üçtərəfli görüş keçirilməli idi. Erməni komissiya sədrinin sözlərinə görə, iyulda Brüsseldəki üçtərəfli görüş reallaşdı, amma Azərbaycan oktyabrda Qranada beştərəfli təmasından imtina etdi.



Xandanyanın dedikləri manipulyasiyadır. O, Kişineuda beştərəfli görüşün keçirildiyini düz deyir. Amma görəsən, nə üçün elə hesab edir ki, həmin görüşdə Brüssel formatı üçtərəflidən beştərəfliyə keçirildi? Bir halda ki, iyulda üçtərəfli görüş baş tutmuşdu, deməli, format aktivliyini qoruyurdu və Kişineudakı görüş üçtərəfli formatın beştərəfliyə transformasiyası şəklində göstərilə bilməzdi.

Qaranada sammitinə gəlincə, Azərbaycan həmin görüşdən üçtərəfli təmasın beştərəfli təmasa keçməsinə müsbət yanaşmadığı üçün imtina etmişdi. Ən əsası isə ölkəmiz beştərəfli yox, Türkiyənin iştirakı ilə altılı masa təklif etmişdi. Yəni, əgər masada aşkar erməniпərəst mövqeyi



ilə seçilən Fransa, eləcə də son nəticədə Parisi dəstəkləyəcəyi şübhə doğurmayan dişsiz Almaniya varsa, Fransanın təsirində olan Aİ formal xassəli bitərəfdirsə, deməli, Türkiyənin iştirakı tələbimiz haqlıdır. Görəsən, niyə Fransa, Almaniya, Aİ və Ermənistan Ankaranın vasitəçiliyini yaxın buraxmadılar? Səbəb məlumdur... Yəni, Xandanyan bilməlidir ki, Azərbaycan Qaranada sammitində iştirakdan masadakı "kvartetin" Türkiyəni görmək istəməməsinə görə imtina etdi.

Aydındır ki, Kişineuda Avropa Siyasi Birliyinin sammiti çərçivəsindəki beşli masa Fransanın əvvəlki üçtərəfli görüş (Azərbaycan, Ermənistan, Aİ – red.) gündəliyinə müdaxiləsi idi. Paris prosesə Almaniyanı da qatdı ki, İrəvanın tərəfində olduğunu pərdələsin. Əslində, Makron 2022-ci ilin oktyabrında üçtərəfli masaya oturduqdan, onu dördtərəfliyə çevirdikdən sonra yol verdiyi həyasızlığa görə pozulmuş Brüssel formatının bərpasına çalışdı. Yəni, Kişineuda belə bir görüntü yarandı. Ancaq ölkəmizin rəhbərliyi prosesin hansı səmtə yönəldiyini duydu. Ölkəmiz bu səbəbdən Türkiyənin beşli masaya dəvətini və beləliklə altılı masa təklifini irəli sürdü.

Makronun 2022-ci ilin Praqa Sammitindən sonrakı həyasızlığına gəlincə, həmin vaxt Fransa prezidenti dördlü masadan məğlub kimi ayrılmışdı. Belə ki, Ermənistanın baş naziri N.Paşinyan məhz o sammit zamanı Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımış, Brüssel formatı çərçivəsindəki növbəti toplantının dekabrda Belçikanın paytaxtında təşkili qərara alınmışdı. Praqa sammitindən heç iki həftə keçməmiş isə məğlub Makron yerli televiziyaya müsahibəsində Azərbaycanı işğalçı, Rusiyanı isə müttəfiqi Ermənistanın maraqlarını satan kimi təqdim etmişdi.

Fransa dövlət başçısının dedikləri ölkəmizdə sərt reaksiya doğurmuşdu. Ancaq hələ bu, son deyildi. Paşinyan bildirmişdi ki, dekabrda Brüsseldə Şarl Mişelin vasitəçiliyi ilə keçiriləcək üçtərəfli görüşə yalnız Makronun iştirak edəcəyi təqdirdə qatılacaq. Aydın idi ki, Bakı etikasızlığı siyasət amalına çevirmiş Fransa prezidentinin masada əyləşməsinə razılıq verməyəcək və vermədi də. Bu, Brüssel raundunun ilk pozulması idi ki, prosesin ikinci dəfə hansı səbəbdən pozulduğunu isə əvvəldə diqqətə çatdırdıq. Yəni, hər iki halda destruktivliyə görə günahkar Ermənistandır, Azərbaycan yox!

Yaxşı olar ki, Xandanyan məsələyə obyektiv və bütöv yanaşsın, yumşaq desək, ayrı-ayrı məqamları diqqətdən kənarda qoymasın. Ən əsası, bir qədər ciddi olsun. Nəzərə alsın ki, iki dəfə pozulmuş Brüssel prosesinə üçüncü dəfə qayıtmaq mənasızdır. Yəni, erməni komissiya sədrinin 2024-cü ildə Şarl Mişelin təşəbbüslərindən danışmasında normal məntiq yoxdur. Çünki Mişelin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin görüşündə nə qədər müsbət meyillər nəzərə çarpsa da, yekun nəticədə Aİ Şurasının prezidenti sülh təşəbbüslərini Fransanın müdaxiləsindən, aşkar tərəfkeşliyindən qorumağı bacarmadı. Belə olan təqdirdə, Azərbaycan ikili təmaslar üzərində dayandı və təcrübə göstərdi ki, ölkəmizin mövqeyi özünü doğruldur. Hərçənd, hazırda bu da görünür ki, İrəvan özünü doğrultmuş formatı sıradan çıxarmaq və sülh gündəliyindən tamamilə uzaqlaşmaq istəyir, bəhanələr axtarır.

Yeri gəlmişkən, Ermənistanın Brüssel formatı məsələsindəki pozuculuğunu təsdiqləyən ən böyük məqam baş nazir N.Paşinyanın həmin format çərçivəsində Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanımasına rəğmən, erməni silahlı birləşmələrinin bölgədə qalmaları idi. Onlar bölgədə qalmasaydılar, ölkəmiz lokal xarakterli antiterror tədbirləri keçirməyəcəkdi. Hələ N.Paşinyan bunadək bildirmişdi ki, Qarabağın özünün seçkili hakimiyyəti var. Belə demək hara, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını demək hara? Nikolun həyasızlığı sərhəd tanımamışdı və indi də tanımır.

*

Bəli, Ermənistan yenə sülh gündəliyindən uzaqlaşmaq istəyir. Buna həm gündəliyə əlavə elementlər qatmaqla, həm də sülh sazişinin natamam formada imzalanmasına nail olmaqla çalışır. İkinci məqama diqqət yetirərək, Prezident İlham Əliyevin Belçikanın ölkəmizdəki yeni səfiri ilə söhbət zamanı bildirdiyi fikirlərə... Dövlətimizin başçısı dedi ki, sülh müqaviləsinin bütün bəndləri eyni dəyərə malikdir, birini digərindən ayırmaq olmaz. Prezident Ermənistan hökumətinin "bu vaxtadək nə barədə razılaşdırılıbsa, ona imza atılsın, razılaşdırılmamış müddəalar növbəti mərhələlərə saxlanılsın" formada qəribə təklifini tamamilə reallıqdan kənar hesab etdiyini, habelə bu cür yanaşma presedentinin ona məlum olmadığını vurğuladı.

İrəvanın sülh gündəliyinə əlavə elementlər qatmaq cəhdinə gəldikdə isə məsələyə S.Xandanyan da toxunub. O deyib ki, guya, Azərbaycan erməni hərbi əsirlərin və digər məhbusların azad edilməsi ilə bağlı Brüsseldə keçirilən görüşlərdə üzərinə götürdüyü bir sıra humanitar öhdəlikləri yerinə yetirməyib. Halbuki, məsələnin qoyuluşu belə ola bilməz. Birincisi, ölkəmiz indiyədək Ermənistana Azərbaycanda həbs olunmuş bir çox ermənini təhvil verib və bunu xoş niyyət göstərici olaraq edib. İkincisi, hərbi cinayətkarlar, heç bir halda, azadlığa buraxıla bilməzlər və bu, Bakının prinsipial mövqeyidir. Üçüncüsü, İrəvanın və onun xaricdəki havadarlarının Azərbaycanda saxlanılan hərbi cinayətkarlarla bağlı məsələni siyasiləşdirmələri və onu ölkəmizə qarşı təzyiq aləti kimi istifadə etmək niyyətləri yolverilməzdir, etimadsızlıq yaradır. Nəticə etibarilə, sülh gündəmi zərər görür. Ermənistanın havadarlarının Azərbaycana qarşı sanksiya tətbiqi təşəbbüsləri də barış mühitinə ziddir. Yaxşı olar ki, Xandanyan və erməni hakim komandasının digər üzvləri ölkəmizə qarşı itiham yolu tutmazdan əvvəl məsələyə təfərrüatı ilə diqqət yetirsinlər.

*

Daha bir məqamı təhlil edək. Məlumdur ki, baş nazir N.Paşinyan Avropa Siyasi Birliyinin Böyük Britaniyada keçrilmiş sammiti çərçivəsində Azərbaycan Prezidenti ilə görüşdən boyun qaçırdı. Xandanyan buna da çox sərsəmcəsinə izahat verməyə çalışdı. Dedi ki, Ermənistan, guya, görüşdən imtina etməyib, sadəcə danışıqlarda yeni formatı məqsədəuyğun saymayıb. Nəzərə alaq ki, görüşdə Britaniyanın baş naziri də iştirak etməli idi və bu, heç də yeni format deyildi. Problem ondadır ki, Paşinyan Makrondan, necə deyərlər, qorxduğu üçün Britaniya baş nazirinin iştirakı ilə reallaşması planlaşdırılmış təmasdan boyun qaçırıb. Yəni, Xandanyanın format xüsusunda dilə gətirdiyi uydurmadır. Axı necə olur ki, Makronun və Şoltsun iştirakı ilə keçirilən görüş format sayılır, Britaniya baş nazirinin təşəbbüsü nəzərə alınmır? Azərbaycan nə vaxt beştərəfli görüşü format sayıb ki?..

*

Sonda S.Xandanyanın bir fikri üzərində dayanaq. O bildirib ki, oktyabrın 7–8-də Moskvada MDB Dövlət Başçıları Şurasının toplantısı çərçivəsində reallaşmış qeyri-rəsmi təmaslar zamanı baş nazir Paşinyan Prezident İlham Əliyevə ikitərəfli görüş keçirməyi təklif edib. "Daha doğrusu, Bakıda düzənlənəcək COP29-dan əvvəl xarici işlər nazirlərinin görüş keçirmələrini, sülh müqaviləsinin bir-iki razılaşdırılmamış maddəsinin razılaşdırılmasını, daha sonra isə liderlərin müvafiq sazişi imzalamasını təklif edilib. Düzünü desəm, Azərbaycanın reaksiyasından xəbərim yoxdur, amma ümid edirəm ki, bu məntiq həyata keçirilə bilər", – erməni komissiya sədrinin bu şəkildə detalları açıqlaması "Avazın yaxşı gəlir, oxuduğun Quran olsa" deyimini xatırladır. Çünki razılaşdırılmamış məsələlərin razılaşdırılması ritorikası gözdən pərdə asmağa oxşayır. Axı Ermənistan hakimiyyətinin, o cümlədən, baş nazir N.Paşinyanın sülh gündəliyi üzrə ən prinsipial tələbi, daha doğrusu, İrəvanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliyi yerinə yetirməkdən boyun qaçırmaq əzmi ortadadır. Bununla əlaqədar hansısa dəyişiklik hələ ki, yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Dünya ermənilər COP29-a hücuma keçiblər

(əvvəli 1-ci səhifədə)




Onlar, həmçinin materialların və tezislərin hazırlanmasında və iştirakçılar arasında bölüşdürülməsində bilavasitə iştirak edirlər. Bununla belə, ANCA buna nail olmaq üçün təkcə özünün birbaşa ünsiyyət vasitələrindən istifadə etmir. Bəzi şəxsləri pulla ələ alaraq, onların sosial şəbəkələrin son dərəcə aktiv olduqları seqmentlərində COP29-la bağlı yazılar vermələrini təşkil edirlər. Onlar özlərini "azadlıq və ədalət carçıları" kimi təqdim edirlər, əslində isə adı çəkilən təşkilatların başında oturanların pul kisəsindən asılıdırlar.

Dünya ermənilərinin Azərbaycan əleyhinə təbliğat tezislərini yaymaq üçün, belə deyək, işə götürdüyü əsas media ruporu artıq oxucularımıza yaxşı tanış olan personadır. Söhbət, təbii ki, Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okampodan gedir. O, 2024-cü il sentyabrın 6-da şəbəkəyə bağlı olan "Armenianweekly.com" saytına verdiyi eksklüziv müsahibəsində etiraf edib ki, Argentinadakı erməni diasporunun üç tanınmış nümayəndəsi, yəni hakim Leon Karlos Arslanyan, sosioloq Xuan Qabriel Tokatlyan və Sosialist İnternasionalının vitse-prezidenti Mario Nalpatiyan 2023-cü ilin yayında onu əməkdaşlığa dəvət ediblər. Tam dəqiq desək, ona zəng edib "Dağlıq Qarabağ" üçün nə edə biləcəyini soruşan Nalpatiyan olub.

Sözsüz ki, bu, bir sövdələşmə üçün tipik başlanğıcdır. Lakin Okampo, təbii ki, "cəsur üçlüy"ün keçmiş prokurora nə qədər pul təklif etdiyini qeyd etməyib. Yada salaq ki, məhz o vaxt başlayan anti-Azərbaycan fəaliyyəti çərçivəsində Okampo Azərbaycanın Qarabağ bölgəsində baş verdiyi iddia edilən "erməni əhalinin etnik təmizlənməsi" ilə bağlı tamamilə yalan məlumat yayıb.

Qeyd edək ki, erməni inqilabi federasiyası – "Daşnaksütyun" partiyasının idarə heyətinin üzvü, ANCA-nın vitse-prezidenti Mario Nalpatiyan da bir vaxtlar hazırda həbsdə olan separatçıların "qlavarı" Bako Saakyanla görüşmüşdü. Bu fakt özlüyündə Okamponun birbaşa ANCA-dan tapşırıqlar aldığını və separatizmi dəstəklədiyini sübut edir.

Fransa Milli Assambleyasının 2017–2024-cü illərdə sədr müavini olmuş Anne-Laurence Petel "#COP29" heşteqindən istifadə edərək Azərbaycan əleyhinə "X" platformasında belə yazıb: "Azərbaycan dünyanın indiyədək gördüyü ən böyük saxta xəbərləri istehsal edir. Əsl Azərbaycan qaz və neft dövlətidir. 2020-ci ildə Dağlıq Qarabağda cihadçılardan və fosfor bombalarından, 2023-cü ildə blokada və aclıqdan istifadə edib. "Utanc COP"una xoş gəlmisiniz".

"Human Rights House Foundation" adlanan təşkilatın vəkillik şöbəsinin rəhbəri Deyv Elseroud Azərbaycan haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdıran tanınmış analitik Brenda Şafferi hədəfə alıb. O, kin-küdurətini bu sözlərlə ifadə edib: "Azərbaycan kimi ölkələr niyə beynəlxalq tədbirlərə evsahibliyi edirlər? Çünki onlar professor Brenda Şaffer kimilərindən istifadə edərək, Azərbaycanı yeni yaranmış demokratik dövlət kimi göstərmək istəyirlər. Norveçdəki "CAN" adlı Azərbaycan təşkilatı 300-dən çox siyasi məhbusun (?) olduğu ölkəni təbliğ edir".

Təəssüf ki, belə nümunələrin sayı çoxdur və hər gün onların sırasına yeniləri əlavə olunur. Hətta, dünən keçirdiyi mətbuat konfransında ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Metyu Millerə təxribatçı sual da ünvanlanıb. Sualın qoyuluşu özü təxribat xarakterli olub: "Azərbaycan COP-a qədər insan hüquqları ilə bağlı problemlərini həll etməyib. Dedilər ki, biz sizin narahatlığınıza qulaq asmayacağıq. Onlar sülh sazişinin olmayacağını da bildiriblər. Dövlət katibinin ümid etdiyi bu idimi?"

Ancaq M.Miller bu sualı verəni və onun simasında düşərgəsini məyus edib: "ABŞ heç vaxt Azərbaycanla Ermənistan arasında sülh razılaşmasının imzalanmasını BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Sazişinin Tərəflər Konfransının 29-cu sessiyasının Bakıda keçirilməsi ilə əlaqələndirməyib. Biz ümid edirik ki, Azərbaycan və Ermənistan yekun nəticədə bu sənədi imzalayacaqlar. Lakin bu ABŞ-dən deyil, bilavasitə tərəflərin özlərindən asılıdır".

Mövzu üzrə fikirlərini öyrəndiyimiz **Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri, politoloq Zaur Məmmədov** bildirdi ki, beynəlxalq münasibətlərdə təsadüfi heç nə baş vermir. Onun sözlərinə görə, əgər biz müəyyən dövlətlərin, beynəlxalq təşkilatların birləşərək qrup şəklində bu və ya digər ölkələrlə, siyasi hakimiyyətlərlə bağlı ardıcıl addımlarını görürüksə, deməli, bəlli mərkəzlərdən göstərişlər alınıb. Həmin göstərişləri verən mərkəzlər müxtəlif aktorlardan öz kampaniyalarından yararlanırlar: "Biz bunu son zamanlar Cənubi Qafqazdakı proseslərdə də görməkdəyik. İstər Gürcüstana, istərsə də Azərbaycana



qarşı Qərb tərəfindən idarə olunan kampaniya başladılıb. Bu kampaniya bir neçə istiqamətdə aparılır. Məqsəd də bəllidir. Hazırda Avrasiyanın ortaq xəttində müəyyən qruplar arasında geosiyasi və geoiqtisadi mübarizə, daha doğrusu, çəkişmə gedir. Biz bunu hətta, gizli müharibə də adlandıra bilərik. Onlar bu kontekstdə Gürcüstandan, Azərbaycandan alət kimi istifadə etmək istəyirlər. Ermənistanla bağlı buna nail olublar. İrəvan alət rolunda çıxış edir. Buna görə də Nikol Paşinyan iqtidarını dəstəkləyirlər. Onun, necə deyərlər, ayaqda qalması üçün həm siyasi, həm iqtisadi, həm də hərbi dəstək göstərilir. Yəni, dövlətin suveren hüquqlarını məhdudlaşdıran və həmin mərkəzlərin dediyi ilə oturub-duran hakimiyyətlər, əlbəttə, onlar tərəfindən bu və ya digər şəkildə mükafatlandırılırlar. Biz də hazırda Paşinyan iqtidarının mükafatlandırıldığını görürük".

Politoloq qeyd etdi ki, Paşinyan 30 il işğalçılıqla məşğul olan Ermənistanın baş naziridir. Amma bu gün həmin ölkənin hərbi büdcəsi dəfələrlə artırılıb. Ermənistan silahlanmaya külli miqdarda vəsait xərcləyir. Həmçinin, Qərbdən pulsuz silahlar alır. "Bu, mükafatlandırılma deyilsə, bəs nədir!" ritorik sualını verən Z.Məmmədov əlavə etdi ki, beynəlxalq praktikaya nəzər saldıqda qonşu dövlətin torpaqlarına göz dikən ölkənin işğalçı müharibədə məğlubiyyətdən sonra cəzalandırıldığını görmək mümkündür. Amma müəyyən beynəlxalq şəbəkə nədənsə, Ermənistanın deyil, Azərbaycanın cəzalandırılması üçün əlindən gələni edir: "Luis Moreno Okamponun açıqlamaları, "Human Rights Watch", "Amnesty International" tərəfindən verilən bəyanatlar, hazırlanan hesabatlar, ayrı-ayrı ölkələrin parlamentləri tərəfindən qəbul edilən qətnamələr, əlbəttə, bilavasitə eyni şəbəkədən idarə olunur. Bu şəbəkənin əsas istək və məramı məhz öz məqsədlərini həyata keçirməkdir".

Z.Məmmədov dedi ki, 2020-ci ildəki Vətən müharibəsi və 2023-cü ilin lokal xarakterli antiterror tədbirləri bu prosesə, sadəcə, təkan verib. Əgər təkcə MDB məkanına nəzər yetirsək, onların müxtəlif illərdə rəngli inqilablar həyata keçirməyə nail olduqlarını görə bilərik. Onlar siyasi hakimiyyətləri devirdilər. Nəticədə həmin ölkələrdə baş verənləri biz bu gün görürük – hərc-mərclik, ərazi bütövlüyünün pozulması, milli ideyanın olmaması, milli ideya əvəzinə məhz Qərb ideyalarının cəmiyyətdə tüğyan etməsi və sair... Azərbaycanda isə onlar heç bir dəyişiklik edə bilmədilər. Soros fondu kütləni arxasınca apararaq, xalqın hakimiyyətə qarşı çıxmasına nail ola bilmədi. Nəticə etibarilə biz bu fərqi indi də görürük. Azərbaycan cəmiyyəti monolitdir və vahiddir. Cəmiyyətdə məhz milli ideyalar təbliğ olunur, milli ideyalar ən üst davranış kodeksidir.

Müsahibimiz onu da bildirdi ki, Azəbaycanda həm daxili, həm xarici siyasət, həm də milli ideya ilə bağlı vahid yanaşma mövcuddur. 44 günlük Vətən müharibəsinə qədər Azərbaycan cəmiyyətini parçalamağı bacarmayanlar müharibədən sonra ciddi şəkildə Rusiya – Ukrayna müharibəsi və Yaxın Şərqdə baş verən hadisələr fonunda Qara dəniz və Xəzər dənizi bölgəsində iştirakçılıq paylarını artırmağa çalışırlar. Onlar bu kontekstdə Azərbaycanın suveren hüquqlarından əl çəkərək, onların dediklərinə əməl etməsi üçün ciddi çalışırlar: "Gəlin, Azərbaycandan nəsə tələb edən, bizə təzyiq göstərən dövlətlərin və mərkəzlərin Bakı–İrəvan sülh danışıqları prosesi ilə bağlı özlərini necə apardıqlarına baxaq. Görək, onların əsas istəkləri nədən ibarətdir. Bu gün ölkəmizə edilən təzyiqlərin əsas səbəblərindən biri, guya, Qarabağ erməniləri ilə bağlıdır. Əslində isə, Qarabağ erməniləri alətdirlər. Onlar heç kim, o cümlədən, Qərbdəki mərkəzlər üçün maraqlı deyillər. Sadəcə olaraq, Qərbdəki mərkəzlər bu il Ermənistanla Azərbaycan arasında yarımçıq sülh müqaviləsinin bağlanmasını istəyirdilər. Əlbəttə, yarımçıq sülh müqaviləsinin iki ölkə arasında daha böyük müharibəyə gətirib çıxara biləcəyi də onları maraqlandırmır. Sadəcə, sülh müqaviləsini imzalayaraq, daha sonra NATO bazalarını Zəngəzurda yerləşdirmək, öz geosiyasi rəqiblərinə qarşı mübarizə aparmaq niyyətində idilər. Yaxud, regional kommunikasiyaların açılması ilə bağlı da eyni düşüncədədirlər. Onlar bu günədək öz məqsədlərinə çatmayıblar. Qərbdəki bəzi dövlətlər və mərkəzlər yarımçıq sülh müqaviləsinin imzalanmasından sonra Azərbaycana qarşı tələ hazırlamışdılar. İndi isə onlar görürlər ki, Cənubi Qafqazla bağlı planları boşa çıxıb. Belə olan təqdirdə, artıq Azərbaycana qarşı açıq müstəvidə hücuma keçmək lazımdır".

Ekspert onu da qeyd etdi ki, COP29-un keçirilməsi bu düşərgə üçün bəhanədir. Onlar bu mötəbər tədbir ərəfəsində dünyanın diqqətinin Azərbaycana yönəlməsindən istifadə edərək, qlobal miqyasda ölkəmizə qarşı əks-təbliğat kampaniyasına başlayıblar. Onlar burada da riyakar siyasət aparırlar. Çünki COP29 Azərbaycanın şəxsi tədbiri deyil, bu, BMT-nin himayəsi altında keçirlən iqlim dəyişmələri üzrə əsas qərarların qəbul edildiyi beynəlxalq platformadır. Bu gün bəşəriyyəti təhdid edən ən ciddi məsələ ekologiyanın çirklənməsi, tullantıların artması, qlobal istiləşmədir. Qeyd olunan problemlər dünyada quraqlığın artmasına, aclığa, iqtisadi göstəricilərin pisləşməsinə gətirib çıxarır. Belə olan təqdirdə, əksinə, COP tədbirlərinə dəstək vermək, onun işində iştirak etmək, problemlərin həlli üçün əlindən gələni etmək lazımdır. İldə bir dəfə müxtəlif ölkələrdə keçirilən bu tədbirlə bağlı Qərbin müəyyən mərkəzləri tərəfindən nümayiş etdirilən davranış və COP29-u boykot etmək səyləri göstərir ki, bəli, həmin qruplaşmalar bəşəri problemlərin həllində maraqlı deyillər. Bu mənada, onların COP29 ərəfəsində Azərbaycana təzyiqləri iç üzlərini açır, maskalarını yırtır. Bir daha göstərir ki, onların əsas məqsədi dünyada siyasi, əsasən də maddi-iqtisadi ambisiyalarını təmin etməkdən ibarətdir.

***Səxavət HƏMİD***
***XQ***

# "3+3"– regional maraqlar və ziddiyyətlər

## *Platforma ölkələri XİN rəhbərlərinin İstanbul görüşü nə vəd edir?*

**Sabah İstanbulda "3+3" regional platforması çərçivəsində bu platofrmaya daxil olan ölkələrin xarici işlər nazirləri səviyyəsində görüş keçiriləcək. Digər iştirakçılar kimi, Ermənistanın XİN rəhbəri Ararat Mirzoyan da görüşə qatılacağını təsdiqləyib. Bu məqamı niyə vurğuladıq? Yazımızda bu məsələyə aydınlıq gətirəcəyik.**

Əvvəlcə onu bildirək ki, "3+3" regional platforması Azərbaycanın və Türkiyənin birgə təşəbbüsüdür. Platformada, eyni zamanda, İran, Ermənistan və Rusiya da iştirak edirlər. Gürcüstanın ona qoşulması da nəzərdə tutulur. Beləliklə, üç Cənubi Qafqaz ölkəsi və regionda tarixi maraqları olan üç böyük ölkə. Platformanın şüarı da var: Region region ölkələri üçündür!

Rusiyadan başlayaq. Moskva üçün "3+3", necə deyərlər, Cənubi Qafqazda qalmaq üçün ən müasir mexanizmdir. Elə bir mexanizm ki, Moskvanın bölgədəki maraq və mənafeləri təmin olunur, onların leqallığı nəzərə alınır. Xüsusən də hazırkı qlobal reaksiyalarla və çağırışlarla üzləşdiyi bir durumda məsələ Rusiya üçün son dərəcə önəmlidir. Məlum olduğu kimi, Qərb ciddi şəkildə Kremli Cənubi Qafqazdan uzaqlaşdırmaq istəyindədir. Birincinin bunun üçün aləti nədir? Bu barədə söhbət açacağıq. Hələlik isə...

Gürcüstan. Qeyd etdiyimiz kimi, "3+3"də təmsil olunmur. Çünki Rusiya ilə ziddiyyətlərə malikdir. Söhbət Cənubi Osetiya və Abaxaziya problemindən gedir. Yəni, faktiki olaraq, Gürcüstanın bu iki bölgəsi işğal altındadır. Azərbaycanın da mövqeyi bundan ibarətdir ki, beynəlxalq hüquq prinsipinə uyğun olaraq ölkənin ərazi bütövlüyü və suverenliyi təmin olunmalıdır, onun ərazisindəki separatçılıq aradan qalxmalıdır. Bu, öz yerində. Düşünürük ki, "3+3" həm də etimad və maraqların təmin olunduğu platforma kimi orada Abxaziya və Cənubi Osetiya problemi də dinc yolla həllini tapa bilər. Əlbəttə, durumu dəyərləndirmək və regional düzənə qoşulma ilə bağlı son söz rəsmi Tbilisinindir.

Bildirdiyimiz kimi, Türkiyə təşəbbüskardır. Məsələ ondadır ki, 44 günlük müharibənin nəticələri rəsmi Ankaranın Cənubi Qafqazdakı tarixi maraqları qarşısında yaşıl işıq yandırıb. Hazırda Türkiyə son yüz ildə olmadığı qədər regiona yaxındır və bu, ciddi dividenddir. Dividendi əməli tədbirlərlə dəyərləndirmək lazımdır. Hesab edirik ki, "3+3" mövcud istiqamətdə, kifayət qədər, ciddi platforma sayılmaqdadır. Elə bir platforma ki, bütövlükdə, Türk dünyasının konsolidasiyasına dəstək təbiətini də özündə saxlayır. Əlbəttə, Türk dünyasına daxil olmayan tərəflərlə birgə əməkdaşlıq və onların maraqlarını nəzərə almaq şərti ilə.

...İran da "3+3"-də maraqlı tərəfdir. Tehran üçün bu platforma dünyaya açılım vasitəsidir. Nəzərə alsaq ki, İran hazırda Qərbin sanksiyaları ilə üzləşən tərəfdir, deməli, ona ciddi yaşam təminatları lazımdır. Üstəlik, kollektiv Qərbin ölkənin Cənubi Qafqazla bağlılığını aradan qaldırmaq yönümlü planlarının mövcudluğunu da bilirik. Yəni, "Region region ölkələri üçündür" deyimi üzərindən immunitet formalaşdıracaq Tehran gələcək təhdidlərdən qoruna bilər. Amma...



Əmma Ermənistandır. Əbəs yerə lap əvvəldə rəsmi İrəvanın "3+3"-ün İstanbul zirvəsində iştirakını vurğulamadıq. Məsələ ondadır ki, hazırda regional platformanın məramına qarşı çıxan tərəf Ermənistandır. Bu, Azərbaycanla yanaşı, İran və Rusiyaya əks mövqedir.

Rəsmi İrəvan Qərbin Cənubi Qafqazdakı peyki statusundadır. Belə bir status Ermənistanı regionda maraqlı olan ölkələrin hədəfinə çevirməkdədir. Ölkə fəaliyyəti ilə "3+3"-ün təlqin etdiyi Qafqaz evi ideyasını sıradan çıxmaq ampluasındadır.

Daha bir əmma isə İranın bölgəyə kənar qüvvələrin nüfuzunu yolverilməz saydığı halda, Ermənistanın avantürist niyyətləri baxımından sipər missiyası daşımasındadır. Rəsmi İrəvan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliyi yerinə yetirmək istəmir. Daha dəqiq desək, bəyanatın 9-cu bəndinə əsasən Naxçıvana maneəsiz – heç bir gömrük və sərhəd nəzarəti olmayan yolu təmin etməkdən boyun qaçırır, ərazi bütövlüyü və suverenlik iddiası ilə manipulyasiya yolu tutur. Bu yol, bütövlükdə, regiondakı sabitliyə təhdid mahiyyəti daşımaqdadır. İran da Naxçıvana yolun Azərbaycan məntiqini regiondakı ölkələrin sərhədlərinin dəyişdirilməsi kimi qiymətləndirərək, buna qarşı çıxır.

Xülasə, "3+3"-ün sabahkı İstanbul zirvəsi ərəfəsindəki regional durumun vurğuladığımız parametrləri var. Belə bir şəraitdə Azərbaycanın mövqeyinə gəldikdə, deməliyik ki, ölkəmiz özünün balanslı siyasət xəttinə sadiqdir. Rəsmi Bakı bu fikirdədir ki, Cənubi Qafqaz sülh və əməkdaşlıq məkanına çevrilməlidir. Elə bir məkana ki, orada bütün tərəflərin mənafeləri uzlaşsın. Ölkəmiz "3+3"-ü bu baxımdan etibarlı platforma kimi təsəvvürə gətirir və özünün səmimiyyət paradiqması ilə bu platformanın, sözün əsl mənasında, işlək olması üçün zəruri addımlar atır.

Sonda onu da deyək ki, "3+3" regional platformasının sabah İstanbulda xarici işlər nazirləri səviyyəsində keçiriləcək görüşü bu təşəbbüsün dayanıqlılığının vurğulanması baxımından önəmlidir. Hesab edirik ki, regiondakı ziddiyyətlərin aradan qaldırılması tam mənada reallaşmasa da, görüşdən müsbət gözləntilər var. Ən azı, XİN rəhbərləri çərçivəsindəki təmasın Cənubi Qafqazda pozuculuq niyyətləri güdən Qərbin son hərəkət və davranışlarının müzakirəsi, eləcə də hadisə və proseslərə daha aydın yanaşmaq nöqteyi-nəzərindən müəyyən əhəmiyyətinin olacağı proznozlaşdırılandır. Gözləyək və görək nə olacaq.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycan – Gürcüstan: Etibarlı dost dar gündə tanınar



## II MƏQALƏ

**Cənubi Qafqaza sülh lazımdır. Biz hər zaman Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik. Necə ki, Gürcüstan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəkləyir.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

### 2003-cü il: Mübarizə məkanı genişlənir

Azərbaycan – Gürcüstan münasibətləri dünya miqyasında öz yerini möhkəmləndirdikcə, buna neqativ yanaşanlar da fəallaşdılar. Çünki onlar görürdülər ki, bu iki Cənubi Qafqaz dövləti əsrlərdir ki, regionu parçalayan siyasəti pozur və əvəzində əməkdaşlıq fəlsəfəsinə üstünlük verirlər. Kənardan olan təsirlərin əsas hədəfi bu məqsədə aparan əsas əməkdaşlıq faktoruna – Azərbaycanın enerji strategiyasına əngəl törətməkdən ibarət idi. 2003 – 2008-ci illərdə bunun bir sıra əlaməti oldu. Özü də maraqlıdır ki, iki qlobal güc – Qərb və Rusiya həmin məsələdə həmrəy olmuşdular.

Avropa İttifaqı daha hiyləgər davranırdı. Bu təşkilat Azərbaycanı enerji siyasətində özünə tabe etdirməklə, bütövlükdə, situasiyanı, o cümlədən, Azərbaycan – Gürcüstan münasibətlərini idarə etməyi qarşısına məqsəd qoymuşdu. Buna görə də Aİ Şərq Tərəfdaşlığı proqramı çərçivəsində rəsmi Bakıya təzyiqlər edərək assosiativ üzvlüyə təhrik edirdi. Lakin Prezident İlham Əliyev hər şeyi öncədən görüb qiymətləndirməyə qadir siyasi lider kimi, buna imkan vermədi. Aİ Azərbaycana təzyiq edib, özündən asılı vəziyyətə salmaqda heç nəyə nail ola bilmədi.

Bunun fonunda Gürcüstanı həmin tələyə saldı. Tbilisi Aİ-yə assosiativ üzv olanda çox sevindilər. Demokaiya nağılları onları aldatmışdı. Lakin sonrakı proseslər göstərdi ki, İlham Əliyev müdrik seçim etmişdir və məhz Azərbaycanın müstəqil enerji siyasəti Gürcüstana da iri və perspektivli layihələrə qoşmağa yeni imkanlar yarada bilir. Bununla Azərbaycan XXI əsrdə də davranışı ilə Gürcüstana əsl dost olduğunu göstərir və onun müstəqilliyi üçün əlindən gələni etməkdə qərarlıdır.

Aİ-yə gəldikdə isə son 2 ilin prosesləri göstərdi ki, bu təşkilat ancaq öz şəxsi maraqlarına görə demokratları və qeyri-demokratları müəyyən edir. 2023-cü ilə qədər "demokratik" olan Gürcüstan, indi Avropa üçün "yolunu azmış ölkə"dir. Və buna görə də Tbilisi ilə bütün əlaqələri minimum səviyyəyə endirir və hətta onu hədələyir. Brüsselin və ABŞ-nin mövqeyini bu cür dəyişməsi onu göstərir ki, Gürcüstan assosiativ üzv kimi müstəqillik və sivillik baxımından heç nə qazanmamışdır, əksinə Qərbin yalançı "demokratiya boyunduruğundan" xilas olmaq üçün çapalayır. Və yanında etibarlı dost kimi yenə də Azərbaycan vardır.

Azərbaycan Rusiyanın Gürcüstana təzyiqləri zamanı da kifayət qədər obyektiv, xeyirxah və əməkdaşlığa hazır mövqeyində qaldı. 2008-ci ildə Rusiya – Gürcüstan müharibəsi də Azərbaycanın mövqeyini dəyişə bilmədi – bütün risklərə baxmayaraq, rəsmi Bakı Tbilisinin yanında oldu. Sözün həqiqi mənasında, bu mövqe Gürcüstanın müstəqilliyinə ciddi müsbət təsir etdi.

### Vətən müharibəsindən sonra

II Qarabağ müharibəsində Azərbaycanın möhtəşəm qələbəsi Gürcüstan üçün də faydalı oldu. İlk dəfə idi ki, bu regionda öz gücünə ərazi bütövlüyünü tam bərpa etməyin mümkünlüyü reallığa çevirmişdi. Gürcüstan hökuməti bunu qiymətləndirməyi bacardı. "Gürcü arzusu"nun qurduğu hökumət də Baki ilə aktiv əməkdaşlıqda davam etdi. İndi Baş nazir İrakli Kobaxidze Azərbaycanla əlaqələrin inkişafına ciddi maraq göstərir. Azərbaycan Prezidenti də, həmişə olduğu kimi, Gürcüstanın sabitliyi, inkişafı və təhlükəsizliyinin təmin olunmasında Bakının maraqlı olduğunu nümayiş etdirir.

İrakli Kobaxidzenin bu ilin martında Azərbaycana səfəri zamanı dövlət başçısı İlham Əliyev bu barədə demişdir: "Mən bir məsələni də qeyd etmək istəyirəm ki, aparılan düşünülmüş islahatlar nəticəsində Gürcüstanda sabitlik, əmin-amanlıq, təhlükəsizlik hökm sürür. Bu, xüsusilə indiki geosiyasi vəziyyəti nəzərə alsaq, böyük nailiyyətdir və biz bütün bu uğurlar münasibətilə gürcü qardaşlarımızı təbrik edirik".

Bütövlükdə Azərbaycan Respublikası öncəki mərhələlərdə olduğu kimi, indi də Gürcüstan istiqamətində Heydər Əliyevin müəyyən etdiyi siyasi strategiyanı kəsintisiz davam etdirir. Prezident İlham Əliyev bununla bağlı bəyan etmişdir: "Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır. Biz təkbətək görüş əsnasında bir çox məsələləri geniş müzakirə etdik. Gürcüstan və Azərbaycan iki müstəqil dövlət kimi daim bir-birinin yanındadır, bizim dostluğumuz, qardaşlığımız dərin tarixi köklərə əsaslanır. Əsrlər boyu bizim xalqlarımız dostluq və mehriban qonşuluq şəraitində yaşamışlar, dövlətlərarası münasibətlər bu möhkəm zəmin üzərində qurulmuşdur".

Nəhayət, Gürcüstan Baş nazirinin mart səfəri zamanı İlham Əliyevin bir fikri ayrıca vurğulaması iki dövlətin qarşılıqlı münasibətləri baxımından çox əhəmiyyətli oldu. Azərbaycan Prezidenti müstəqil dövlətlərin ərazi bütövlüyü və suverenliyinin müasir dövrdə olduqca böyük geosiyasi əhəmiyyət kəsb etdiyini vurğulayaraq, bu aspektdə Azərbaycanla Gürcüstanın daim bir-birinin yanında olduğunu xüsusi qeyd etmişdir. İki ölkə ərazi bütövlüyünün təmini və sərhədlərin toxunulmazlığı ilə bağlı bəyanatlar vermiş, beynəlxalq təşkilatlarda səsvermə zamanı bir-birini dəstəkləmişlər. Azərbaycan dövlət başçısı fikrinə davam edərək "bundan sonra da bu dəstək davam edəcəkdir" demişdir.

Gürcüstanın hazırkı geosiyasi durumu prizmasında İlham Əliyevin bu dəstəyi çox vacibdir. Bunu rəsmi Tbilisi də yüksək qiymətləndirir və İ.Kobaxidze də Bakıda həmin məqamı xüsusi vurğulamışdır. Bakıdakı görüşdə Azərbaycan lideri dövlətin mövqeyini diplomatik anlamda dəqiq ifadə etmişdir: "Heç bir ölkənin suveren ərazisi zor gücü ilə dəyişdirilə bilməz. Beynəlxalq hüququn normaları hər bir ölkə üçün əsas olmalıdır və burada heç bir ayrı-seçkilik ola bilməz. Azərbaycan uzun illər ərzində işğaldan əziyyət çəkmiş, öz ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş ölkə kimi çox yaxşı bilir ki, beynəlxalq hüququn normaları bəzi hallarda güc tətbiq etməklə bərpa olunur. Bu yol da tamamilə qanunidir. BMT Nizamnaməsi hər bir ölkəyə özünü müdafiəetmə hüququ tanıyıb və Azərbaycan məhz bu hüquqdan istifadə edərək ərazi bütövlüyünü bərpa etmişdir".

Cənubi Qafqazdakı real geosiyasi vəziyyəti anlayan hər bir kəs üçün rəsmi Bakının bu dərəcədə Gürcüstana dəstək verməsi kifayət qədər cəsarətli addımdır. Burada marağı olan böyük dövlətlərin yaratdığı risklər fonunda bu, Azərbaycan – Gürcüstan münasibətlərinin regional miqyasda faktiki olaraq yeni geosiyasi statusa yüksəldiyini göstərir. Bu məsələ üzərində Gürcüstanda qarşıdakı seçkilər fonunda geniş dayanmaq lazımdır.

### Azərbaycan və Gürcüstan: həlledici regional aktorlar

İndi siyasətçi və politoloqlar bu barədə iki aspektdə açıq danışırlar. Birinci aspekt, bütövlükdə regionun təhlükəsizliyi ilə bağlıdır. İkinci aspekt isə Gürcüstandakı parlament seçkilərindən sonrakı vəziyyətlə əlaqəlidir. Hər iki aspektdə Azərbaycanın ciddi təsiri nəzərə alınır və buna görə proqnozlar verilir. Detallara baxaq.

Vətən savaşından sonra Qərbin Cənubi Qafqazda formalaşan geosiyasi prosesləri pozmağa yönələn fəaliyyəti etiraf olunur. ABŞ və Avropa faktiki olaraq Ermənistanı müdafiə edərək, onu yeni təhriklərə düçar edirlər. Bu baxımdan gündən-günə regional miqyasda risklər artır. Bundan başqa, rəsmi İrəvanın Azərbaycan münasibətləri normallaşdırmaq istiqamətində atdığı səbatsız və qeyri-real addımlar göstərir ki, hələlik Ermənistan Cənubi Qafqaz miqyasında aparıcı rol oynamağa hazır deyildir. Onun Qərbə boyun əyməsi və onun sifarişlərini tam yerinə yetirməyə çalışması belə bir fikir oyadır ki, reallıqda vəziyyət Azərbaycan – Gürcüstan tandeminin nə dərəcədə fəal olacağından asılıdır.

Məhz bu prizmadan baxanda siyasi analitikləri region üçün Azərbaycan və Gürcüstanın geosiyasi statusunun yüksəlməsindən bəhs etmələri əsaslıdır. Bu tezisin baza prinsiplərindən biri hər iki dövlətin eyni geosiyasi mövqedə olmasına can atmalarından ibarətdir. Daha doğrusu, rəsmi Tbilisi birtərəfli Qərb mövqeyi tutmaq siyasətindən çəkilərək, öz milli maraqlarına uyğun mövqeyə gəlir. Deməli, Azərbaycanla Gürcüstanı regionun əsas geosiyasi aktorlarına çevirən başlıca faktor onların milli maraqlarını üstün tutmalarıdır.

Buradan məntiqi olaraq, Azərbaycanın Gürcüstanda gözlənilən seçkilərə münasibətinin başlıca məqamı aydın olur.

### Təhlükəsizlik və çiçəklənən region uğrunda

Müstəqillik mərhələsində Azərbaycana Heydər Əliyev rəhbərlik edən andan rəsmi Bakının xarici siyasətinin prioritet tezislərindən biri belə olmuşdur: çiçəklənən və təhlükəsiz Qafqaz uğrunda! Rəsmi Bakı Gürcüstan istiqamətində də həmişə bu kursu gözləmişdir. Gürcüstanla münasibətlərdə ölkə sərhədlərini aşaraq regional məna kəsb edən məqamlar da mütləq surətdə yer almışdır. Qarşıdakı seçkilərə Azərbaycanın münasibətinin təməlində dayanan şərtlərdən biri də bundan ibarətdir.

Konkret ifadə etsək, Azərbaycan süni surətdə regionda kimsənin tərəfini saxlamır. Bakı region lideri kimi Cənubi Qafqazın sabitliyi, təhlükəsizliyi və əməkdaşlığa açıqlığı mövqeyinə dəstək verən hər bir ölkə ilə əlaqələri inkişaf etdirir. Əlbəttə, ilk növbədə, Gürcüstanla.

Bu o deməkdir ki, Azərbaycanın Gürcüstandakı seçkinin sabit, şəffaf, demokratik keçməsində maraqlı olması hər hansı subyektiv məqamla əlaqəli deyildir. Həmin kontekstdə Bakını Gürcüstanda yaşayan azərbaycanlıların taleyinin də maraqlandırması da təbii və zəruridir. Çünki bir tərəfdən, söhbət Azərbaycanla həmsərhəd bir dost ölkədə ayrıca siyasi çəkisi olan toplumdan gedir, digər tərəfdən isə Azərbaycan Respublikası dünyanın istənilən ölkəsində yaşayan azərbaycanlıların hüquqlarının və təhlükəsizliklərinin təmininə mükəlləfdir. Çox yaxşı ki, qonşu Gürcüstanda bu məsələlərlə bağlı hər hansı ciddi problem yoxdur və bunu da Azərbaycan hakimiyyəti yüksək qiymətləndirir. Eyni ilə Azərbaycanda yaşayan gürcülərin burada hansısa siyasi və hüquqi problemi yoxdur. Deməli, bu qarşılıqlı sərvəti həm də inkişaf etdirmək, mümkün risklərdən qorumaq gərəkdir.

Bunlardan başqa, hazırda Gürcüstanda hökumətin nüfuzu böyükdür. Vətəndaşlar indiki hökumətə inanırlar. Qərbin son zamanlar anti-Gürcüstan mövqeyi nümayiş etdirməsi də ictimai rəyə ciddi təsir etməkdədir. "Gürcü arzusu"nun ölkədə sabitliyi və təhükəsizliyi təmin etməkdə israrlı olduğu aydın görünür. Deməli, siyasi və geosiyasi olaraq indiki gürcü hökumətinə etibar etmək olar. Əlbəttə, bu, Azərbaycanın Gürcüstan müxalifətini hesaba almaması anlamına qətiyyən gəlmir. Bakı üçün seçki bütün mənalarda Gürcüstan dövlətinin və cəmiyyətinin daxili işidir. Bu səbəbdən, Azərbaycan bu ölkədəki hər bir siyasi qüvvəyə hörmətlə yanaşır. Eyni zamanda, Gürcüstanın sabit inkişaf edən, təhlükəsizliyi təmin edilmiş və Azərbaycana dost dövlət kimi mövcud olmasında maraqlıdır.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

**Zəfər marafonunun 21-ci günü**

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi, təxminən, 30 illik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası: 17 oktyabr



• Füzuli şəhəri və rayonun Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi işğalçılardan azad edilib. Bununla əlaqədar Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib. Dövlət başçısı müraciətində bildirib: "Bu gün Ermənistanın faşist rəhbərliyi növbəti hərbi cinayət törədib. Gəncə və Mingəçevir şəhərləri raket atəşinə məruz qalıb. Bu namərd atəş nəticəsində soydaşlarımız həlak olub, yaralanıb. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralı soydaşlarımıza Allah şəfa versin!

Bu, bir daha Ermənistan rəhbərliyinin faşist mahiyyətini göstərir. Birinci dəfə deyil ki, bizim şəhərlərimiz atəşə məruz qalır və demək olar ki, hər gün Tərtər, Ağdam, Goranboy, Ağcabədi və digər şəhərlərə Ermənistan atəş açır. Bu atəş nəticəsində vətəndaşlarımız həlak olur, yaralanır, 2 mindən çox ev dağıdılıb, ya da ki, bu evlərə çox böyük ziyan vurulubdur. Ancaq bu namərd hərəkətlər Azərbaycan xalqının iradəsini qıra bilməz".

Dövlət başçısı müraciətində daha sonra Füzuliyə qayıdacağımızı, bütün kəndləri yenidən quracağımızı, abadlaşdıracağımızı əminliklə ifadə edib: "O kəndlərə həyat qayıdacaq. Necə ki, vaxtilə Ulu öndərin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 kəndini işğaldan azad edib, o cümlədən, Horadiz qəsəbəsini. İndi baxın, görün necə gözəl məkandır. Horadiz qəsəbəsi çox abad, müasir şəhərə çevrilibdir. İşğaldan azad edilmiş kəndlərdə füzulililər yaşayır. Deyə bilərəm ki, bu günə qədər işğaldan azad edilmiş kəndlərdə Füzuli əhalisinin, təqribən, yarısı məskunlaşıbdır. Ancaq bu gün artıq füzulililərin yaşadıqları kəndlər azad edilib və oraya həyat qayıdacaq, onlar qayıdacaqlar, onlar orada yaşayacaqlar, öz əcdadlarının qəbirlərini ziyarət edəcəklər".

Ali Baş Komandan müraciətində Vətən müharibəsinin başladığı sentyabrın 27-dən bu günə qədər Azərbaycanın Ermənistanın hərbi potensialına sarsıdıcı zərbə vurduğunu, düşmənin daha böyük həcmdə texnikasının məhv edildiyini vurğulayıb. Prezident İlham Əliyev daha sonra deyib: "Füzulililəri ürəkdən təbrik edirəm. Uzun illərin doğma torpaq həsrəti sona çatır. Biz öz üzərimizə düşən missiyanı şərəflə yerinə yetiririk, ölkəmizin ərazi bütövlüyünü bərpa edirik və bərpa edəcəyik. Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi. Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi".

• Ermənistan silahlı qüvvələri gecə saat 01.00 radələrində Gəncə şəhərinin mərkəzi hissələrini raket atəşinə tutub.

Baş Prokurorluğun məlumatına görə, bu xain hücum nəticəsində 13 nəfər həlak olub, 48 nəfər xəsarət alıb. Çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

• Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Gəncəyə növbəti raket hücumu ilə bağlı rəsmi instaqram səhifəsində paylaşım edib. Paylaşımda vurğulanıb: "Nə dərəcədə insanlıqdan uzaq, yırtıcı olmalısan ki, şəhərin heç bir hərbi infrastrukturun olmadığı yaşayış məhəllələrinə gecə vaxtı, sakinlər yatarkən raket zərbələri endirilməsi barədə növbəti dəfə əmr verəsən?

Bu gecə Gəncəyə xaincəsinə edilən hücum təkcə Ermənistan hakimiyyətinin faşist mahiyyətinə və onun prinsipsizliyinə dəlalət etmir, həm də təcavüzkarın Azərbaycan Ordusu qarşısında total acizliyinin təzahürüdür.

Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir. Bu cinayətə laqeyd qalmaq isə onun iştirakçısına çevrilmək deməkdir!

Bu faciə nəticəsində həlak olanların ailələrinə və doğmalarına dərin hüznlə başsağlığı verirəm və bütün yaralıların tezliklə sağalmasını arzulayıram.

Ulu Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!".



• Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 7 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS qurğusu, 8 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları, döyüş sursatı ilə yüklənmiş 10 ədəd yük maşını və 7 ədəd digər avtomobil texnikası məhv edilib. Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının 1-ci taboru xeyli itki verərək mövqelərini atıb və geri çəkilib. Həmçinin Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında ehtiyatdan çağırılmış 300 nəfərədək hərbi qulluqçu döyüş mövqelərini özbaşına tərk edib.

• Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi və hərbi texnikası bölmələrimiz tərəfindən məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, çirkin, məkrli və qorxaq xislətinə uyğun olaraq döyüş meydanında acizliyini başa düşəndə dinc əhalini atəşə tutan Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusundan daha bir sarsıdıcı zərbə alıb. Qəhrəman Azərbaycan Ordusu düşmənin xaincəsinə yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində həlak olan şəhidlərimizin qisasını məhz döyüş meydanında alır.

• Müdafiə Nazirliyi düşmənin S-300 zenit-raket kompleksinin məhv edilməsinin videogörüntülərini paylaşıb.

• Düşmənin yanacaq-sürtkü materialları və döyüş sursatı anbarları Azərbaycan Ordusunun aviasiya zərbələri ilə darmadağın edilib.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 17-si saat 12:00-dək 60 mülki şəxs həlak olub, 270 nəfər xəsarət alıb, 1704 ev, 90 çoxmənzilli yaşayış binası və 327 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

*XQ*

# Dirçələn Füzuli – Türk dünyasının azad şəhəri

**Bu gün Füzuli şəhərinin erməni işğalından azad olunmasından artıq 4 il ötür. 44 günlük Vətən müharibəsi zamanı yaşadığımız o həyəcan, sevinc və coşqu yenidən canlanır. Hər bir azərbaycanlının qəlbi o qürurlu və möhtəşəm günlərin xatirələri ilə döyünür.**



Prezident, Ali Baş Komandan İlham Əliyevin ard-arda torpaqlarımızın azad olunması xəbərlərini verməsi xalqımıza uzun illərdən bəri gözlədiyi xoşbəxtliyi gətirirdi. Biz illərlə ayrı düşdüyümüz, hər qarışı üçün ürəyimizin döyündüyü yurd yerlərimizə qayıdırdıq. Səngərlərdə igid əsgərlərimizin qələbə nidalari ucalanda, biz – bütün xalq evlərdə, küçələrdə, meydanlarda bu səadəti elliklə paylaşırdıq. Azərbaycanın Vətən müharibəsindəki Zəfəri xalqımızın birliyinin, əzminin, gücünün və Ali Baş Komandanımızın dəmir iradəsinin təcəssümü idi!

2020-ci il 17 oktyabr günü Füzuli şəhərinin Azərbaycan əsgərinin böyük qəhrəmanlığını ifadə edən qələbəsi ilə ən şərəfli bir səhifə kimi xalqımızın və dövlətimizin tarixinə yazıldı. Füzuli – bir vaxtlar işğal altında qalan, dağıdılmış, amma yenə də ruhumuzun bir parçası olan o doğma yurd yeri azad edildi!

27 il ərzində qara bir tarix – 23 avqust 1993-cü il Füzuli rayonunun işğal günü kədər və qüssə içində qeyd olunurdu. 27 ildən sonra isə 44 günlük taleyüklü Zəfər yeni və möhtəşəm bir tarix yazdı. Prezident İlham Əliyevin 2020-ci il oktyabrın 17-də xalqımıza çatdırdığı bu xoş xəbərin əks-sədası hələ də qulaqlarımızdadır: "Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir... Bu gün Füzuli rayonunun bir sıra yaşayış məntəqələri işğalçılardan azad edilib – Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!"

Füzulinin tarixi adı Qarabulaq idi. İnzibati-ərazi vahidi kimi 1827-ci ildə elə Qarabulaq kimi də yaradılmışdı. Həmin illərdə bu tarixi ad dəyişdirilərək, çar ordusunun tanınmaz, bilinməz bir zabitinin şərəfinə "Qaryagin" adlandırılmışdı və uzun illər belə də qalmışdı. Mənim nənəm, əslən Füzulinin Cuvarlı kəndindən olan Leyla xanım Əliyeva (Cuvarlinskaya) o illərə qayıdarkən "Qaryagin" adını tez-tez çəkərdi.

Nəhayət, 1959-cu ildə şəhər bu yad və qurama addan qurtularaq Azərbaycanın dahi şairi və mütəfəkkiri Məhəmməd Füzulinin şərəfinə Füzuli adlandırıldı. Bu, əslində, adi ad dəyişməsi deyildi, sanki, Füzuli rayonu canlı bir vücud kimi özü də milli mənliyinə qayıtmış oldu.

Bu il Prezident İlham Əliyev ədəbiyyatımızın və ictimai fikrimizin böyük siması, milli qürur mənbələrimizdən olan Məhəmməd Füzulinin 530 illik yubileyinin qeyd olunması ilə bağlı 25 yanvar 2024-cü il tarixli Sərəncam imzalamışdır. Dahi şairimizin yubileyi ölkənin hər yerində və əlbəttə, onun adını daşıyan şəhərdə xüsusi təntənə ilə keçirilir.

Füzuli rayonu nəinki Azərbaycanın, həm də dünyanın qədim məskənlərindən biridir. Rayon yaşı minilliklərlə ölçülən Azıx mağarası, Quruçay mədəniyyəti, eləcə də tarixi və memarlıq abidləri ilə məşhurdur. 1968-ci ildə arxeoloq-alim Məmmədəli Hüseynov Füzuli ərazisində yerləşən Azıx mağarasında qadın çənəsinin alt sümüklərini aşkar etmiş və elmdə buna "Azıxantrop" adı verilmişdir. Ərazidə müxtəlif dövrlərdə Qaraköpəktəpə, Qarabulaq kurqanlarında, Günəştəpədə, Quruçay sahillərində və digər yerlərdə tədqiqatlar aparılaraq, Füzulinin Azərbaycanın ən qədim yaşayış mərkəzlərindən biri olduğu sübuta yetirilmişdir.

Şuşa başda olmaqla, bütün Qarabağ şəhərləri kimi, Füzuli də Azərbaycan mədəniyyətinin, ədəbiyyatının inkişafına mühüm töhfələr vermişdir. Yaxşı yadımdadır, babam İlyas Əfəndiyev həmişə Füzuli Teatrından xüsusi bir həvəs və bağlılıqla danışardı, hələ lap uşaq çağlarında bu teatrda baxdığı tamaşaları xatırlayardı. Qocaman aktyor Mürşüd Həşimlinin teatrda, bir tərəfdən, "Əsli və Kərəm"də Qara Keşiş obrazını oynayıb camaatı, xüsusən də qadınları necə ağlatdığını, o biri tərəfdən isə "O olmasın, bu olsun"da Məşədi İbadı oynayıb tamaşaçıları necə güldürdüyünü şövqlə danışardı.

Hələ keçən əsrin əvvəllərində Üzeyir bəy Hacıbəylinin, Cəlil bəy Bağdadbəyovun (o, İlyas Əfəndiyevin dayısı idi), Seyid Şuşinskinin və başqa görkəmli mədəniyyət xadimlərinin köməyi ilə fəaliyyətə başlamış Füzuli Dövlət Dram Teatrı 1994-cü ildən etibarən erməni işğalından azad edilmiş doğma Horadizdə işini davam etdirməkdədir.

Ümumiyyətlə, Füzuli rayonunda işğala qədər 90 kitabxana, 20 mədəniyyət evi, 79 klub, 20 kinoqurğu, 2 muzey, xalq və dövlət dram teatrları, istirahət parkları fəaliyyət göstərib. Bu baxımdan, erməni irqçilərinin vandalizmi nəticəsində işğal olunmuş ərazilərimizdəki, o cümlədən də Füzuli rayonundakı mədəni irsimizə xaincəsinə vurulan ziyan tarixdə misli olmayan, görünməmiş bir vandalizmdir.

Füzuli rayonunda Əcəmi memarlıq məktəbininə aid abidələr də var idi. Çox təəssüf ki, Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273-cü il), Aşağı Veysəlli kəndində hamar daşdan tikilən qülləvari Mirəli türbəsi (XV əsr), Qarğabazar kəndində Hacıqiyasəddin məscidi (1682-ci il), karvansara (1684-cü il), Qoçəhmədli kəndində məscid (XVIII əsr), Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr) "Məşədi Həbib" hamamı (XIX əsr), Merdinli kəndi yaxınlığında daşdan yonulan at, qoç fiquru (XVIII–XIX əsrlər) və s. kimi tarixi əhəmiyyət daşıyan abidələr Ermənistan işğalçılarının vəhşicəsinə dağıntısına məruz qalmışdır.

Dövlətimiz bütün Qarabağda sürətlə abadlıq işlərinə start verdi, işğaldan azad edilən digər rayonlar kimi Füzuli də az bir müddətdə yenidən rahat yaşayış vəziyyətə gətirildi. 2026-cı ilədək rayonun 10 kəndinin bərpası nəzərdə tutulur. Hazırda işğaldan azad olunmuş torpaqlarda əhali öz doğma yurduna qayıtmaqdadır.

Yalnız yerli camaat yox, bütün xalqımız Füzuli şəhərinin işğaldan azad olunmasının 4-cü ildönümü ərəfəsində müqəddəs Vətən torpağı uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edir. Məhz onların qəhrəmanlığı və fədakarlığı sayəsində bu gün Qarabağımız azaddır, yenidən dirçəlir və dövlətimizin sarsılmaz məramı ilə daha da çiçəklənməkdədir.

Ulu Füzulinin irsi Azərbaycan ilə yanaşı, bütün Türk xalqlarına məxsus olduğu kimi, onun adını daşıyan şəhər də bütün Türk dünyasının azad şəhərinə çevrilib. Böyük mədəniyyət mərkəzlərimizdən biri olan bu qədim şəhər Füzulinin ruhunu, çoxəsrlik mənəvi dəyərlərimizi və qardaş xalqların birliyini özündə təcəssüm etdirir.

Azərbaycan işğaldan azad olunmuş ərazilərində sıfırdan və öz daxili imkanları hesabına həyata keçirilən bərpa-quruculuq işlərini sürətlə davam etdirir. Ortaq soy-kökü və tarixi-mədəni əlaqələri olan türk dövlətlərinin başçılarının bu prosesdə fəal iştirakı Azərbaycan xalqına dostluq, qardaşlıq duyğularının ifadəsinə çevrilmişdir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan azad Qarabağa ilk səfər edən dövlət başçısıdır.

Füzuli rayonu ərazisində inşa olunan hava limanına beynəlxalq status verilmişdir. 2021-ci il oktyabrın 26-da hava limanının rəsmi açılışında Prezident İlham Əliyev və birbaşa təyyarəsi hava limanına eniş etmiş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak etmişlər. Qarabağın dirçəlişini ifadə edən bu mühüm rəmzi mərasimdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə üzərində "Xarıbülbül" təsviri olan saatları hədiyyə edərək, bildirdi: "Şuşaya gəlmişdik. Buradan Şuşa yaxındır. "Xarıbülbül" də Şuşanın simvoludur".

Müqəddəs Qələbədən sonra Qarabağın azadlığını, şəhidlərimizin qəhrəmanlığını, fədakarlığını və mənəvi təmizliyini əks etdirən Xarıbülbül çiçəyi, həm də Azərbaycan və Türkiyənin qardaşlığını, birlikdəliyini, daimi mənəvi dəstəyini bir daha nümayiş etdirdi.

23 avqust 2023-cü il tarixində Azərbaycana rəsmi səfəri çərçivəsində Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində, MİDA yaşayış kompleksində yeni evlərə köçürülmüş sakinlərlə görüşlərdə iştirak etmişdir. Böyük özbək aliminin adını daşımaqla, Qarabağın Türk Dünyasına inteqrasiyasını təşviq edən bu məktəbin inşası dəyərli hədiyyə olmaqla yanaşı, həm də Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin təsdiqidir.

12 mart 2024-cü il tarixində Qazaxıstan Prezidenti Qasım-Comərd Tokayev Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışında çıxış edərək, qardaş Azərbaycan və qazax xalqlarının müttəfiqliyini, strateji tərəfdaşlığını vurğuladı. Qazaxıstanın azad Qarabağa qiymətli bir ərmağanı olan bu mərkəz iki qardaş xalq arasında mədəni əlaqələri gücləndirməklə yanaşı, ortaq mədəniyyətimizi gələcək nəsillərə ötürmək üçün daha da möhkəm zəmin yaratmaqdadır.

25 aprel 2024-cü il tarixində Qırğız Respublikasının Prezidenti Sadır Japarov da Füzuliyə səfər edərək şəhərin dağıdılmış yerlərinə baxmış və baş plan ilə tanış olmuşdur. İki qardaş ölkənin ortaq tarixi-mədəni əlaqələri fonunda bu səfər, regionda sülh və əməkdaşlığın genişlənməsinə xidmət etməklə yanaşı, eyni zamanda, tarixə Qırğızıstanın Azərbaycanın bərpa və yenidənqurma prosesinə dəstəyinin timsalı olaraq yazıldı.

Bu il Füzuli şəhərində Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə böyük coşğunluqla son zəng bayramı keçirildi, dahi Füzulinin 530 illik yubileyi təntənə ilə qeyd olundu. Füzulinin gənc istedadları şəhərdə ilk incəsənət təhsili ocağı olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzində sənətin sirlərini, incəliklərini öyrənirlər.

Sevindirici haldır ki, bugün Füzuli torpağında Türk xalqlarının maddi-mədəni irsi yenidən canlanır. Füzulidə yetişən gənc nəsil, Türk dünyasının inteqrasiyasının şahidi olaraq, birlik ruhunda böyüyür və müştərək milli dəyərlərimizi yaşadır. Əcdadlarımızın müqəddəs əmanəti olan qədim Füzulimiz öz əzəli mənəvi yoluna qayıdır, Türk dünyasında mədəni mübadilənin önəmli mərkəzlərindən birinə çevrilir.

Və biz bu gün böyük qürurla deyirik ki, Füzuli, Türk dünyasının birliyini nümayiş etdirən, qədim və zəngin ortaq irsimizin qanadlarında yüksələn azad Azərbaycan şəhəridir!

*Günay ƏFƏNDİYEVA,*
*Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədr müavini*

# Azərbaycan əsgəri burada hünər dastanı yazıb

**Azərbaycan Ordusu 2020-ci il oktyabrın 17-də Füzuli şəhəri daxil olmaqla, rayonun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndlərini işğaldan azad etmişdir. Bu əlamətdar hadisə həmin həyəcanlı anlarda olduğu kimi, bu gün də xalqımıza qürur və sevinc bəxş edir.**




Füzuli uğrunda savaş Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində cənub-şərq istiqamətində apardığı ən əhəmiyyətli döyüşlərdən biri kimi tarixə düşmüşdür. Füzuli döyüşləri 44 günlük şanlı savaşın ən parlaq səhifələrindən biridir. Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli sərəncamı ilə 17 Oktyabr – Füzuli Şəhəri Günü elan edilmişdir.

Bir çoxları Füzulini işğaldan azad etmək üçün həftələrlə, bəlkə də aylarla vaxt lazım olacağını düşünürdü. Belə ki, 30 il ərzində düşmən bu ərazidə möhkəm istehkamlar qurmuşdu. Lakin doğma Qarabağımızın xilası naminə ölüm-dirim savaşına çıxmış Azərbaycanın igid, yenilməz əsgər və zabitlərinin güclü təzyiqi qarşısında düşmən tab gətirməyərək səngərlərdən çıxaraq qaçmışdır.

Azərbaycan Ordusu həmin savaşda Vətən torpaqları naminə bütün maneələri sürətlə keçməyə qadir olduğunu sübut etdi.



Təkcə düşmən deyil, çağdaş dünyanın nüfuzlu hərbi ekspertləri belə hərbçilərimizin qeyrət, əzm və hünəri qarşısında şokda idilər. Yeri gəlmişkən, ordumuz sonrakı döyüşlərdə, xüsusilə Şuşa uğrunda savaşda düşmənə və bütün dünyaya belə bir şoku yenidən yaşadacaqdı...

Unutmaq olmaz ki, biz Füzulini, eləcə də Qarabağdakı digər şəhər və kəndlərimizi şəhidlərimizin qanı hesabına azad etmişik. Onların hər birinin ruhu xalqımız üçün son dərəcə əzizdir. Gələcək nəsillərimiz bu igidlərin qəhrəmanlığını heç zaman unutmayacaq, onlarla sonsuz qürur duyacaqlar!

Xatırladaq ki, Füzuli şəhəri və rayonun böyük hissəsi 23 avqust 1993-cü il tarixində erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Rayon əhalisi həmin dönəmdə düşmənə qarşı böyük müqavimət göstərmişdir. Ermənistanın silahlı qüvvələri ilə mübarizədə 663 nəfər Füzuli sakini şəhid olmuş, 181 nəfər əsir və itkin düşmüşdür.

Azərbaycan xalqı heç vaxt Füzulinin, Qarabağın digər şəhər və kəndlərinin süqutu ilə barışmayıb və barışa da bilməzdi. Hər birimizin yaxşı yadındadır ki, 1994-cü ilin 5-6 yanvar tarixlərində həyata keçirilən uğurlu Horadiz əməliyyatı zamanı Silahlı Qüvvələrimizin hücumu nəticəsində bir qəsəbə və 21 kənd işğaldan azad olunmuşdu. Ümummilli lider Heydər Əliyev hərbi əməliyyata şəxsən rəhbərlik etmişdir.

İşğaldan azad edilmiş Füzulinin əhalisi, bütün xalqımız Füzuli şəhəri uğrunda unudulmaz döyüşün qəhrəmanları ilə fəxarət hissi keçirirlər. 2020-ci il noyabrın 26-da "Füzulinin azad olunmasına görə" medalı təsis edilmişdir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 25 min 301 hərbi qulluqçusu "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Xoşbəxtlikdən bu gün Füzuli rayonu və onun yaşayış məntəqələri yenidən qurulur. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş, 2022-2026-cı illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində Böyük Qayıdışa dair I Dövlət Proqramı" böyük uğurla həyata keçirilir. Rayonun ərazisində çox sayda bağça, məktəb, xəstəxana tikilmiş, bir-birindən rahat yollar, yaraşıqlı parklar salınmış, yaşayış kompleksləri ucaldılmışdır.

Füzuli rayonu sakinlərinin bir qismi artıq doğma yurd yerlərinə qayıtmışdır. Bu günlərdə təsadüfən rastlaşdığım Füzulidən olan köhnə dostum qürur hissi ilə dedi ki, o, artıq ailəsi ilə birlikdə rayon mərkəzində ucaldılan hər cür şəraiti olan evlərdən birində yaşayır və özünü dünyanın ən xoşbəxt insanlarından biri sayır.

Əsərlərini sevə-sevə mütaliə etdiyim ədiblərdən biri deyib ki, hər bir insan azad, şanlı bir dövlətin vətəndaşı olmasa, heç vaxt tam xoşbəxt ola bilməz. Bu gün Azərbaycanın hər bir sakininin, eləcə də hünərvər Füzuli camaatının, sözün həqiqi mənasında, başını uca, dik tutmağa haqqı var! Biz torpaq bütövlüyümüzü, azadlığımızı qəhrəmancasına təmin edən şanlı Vətənin övladlarıyıq!

*Məsaim ABDULLAYEV*
*XQ*

# Azərbaycan 172 ölkə ilə ticarət tərəfdaşıdır



(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, hesabat dövründə qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (752 milyon ABŞ dolları) birinci yerdə qərarlaşıb. Bu siyahıda Türkiyə (395 milyon ABŞ dolları) ikinci və Gürcüstan (158 milyon ABŞ dolları) üçüncü, ABŞ (109 milyon ABŞ dolları) isə dördüncü olub. İxracın strukturunda xam neft, təbii qaz və neft-qaz məhsullarının, plastik kütlə və ondan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının payı üstünlük təşkil edib.

Cari ilin yanvar–sentyabr aylarını ərzində Azərbaycanın qeyri-neft sektoru üzrə ixrac həcmi 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz artaraq 2,5 milyard dollar təşkil edib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nda cari ilin yanvar-sentyabr ayları üzrə göstəricilər də açıqlanıb. İcmala əsasən, bu dövrdə Azərbaycanın qeyri-neft sektoru üzrə ixrac həcmi 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz artaraq 2,5 milyard dollar təşkil edib, yeyinti məhsullarının ixracı isə 13,3 faiz artaraq 698,3 milyon dollara çatıb.

Hesabat dövründə aqrar-sənaye məhsullarının ixracı 60 faiz artaraq 233,4 milyon dollara bərabər olub. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 17,8 faiz artaraq 755,4 milyon dollara yüksəlib.

İxrac əməliyyatlatında diqqətçəkən bu uğurlu göstəriciləri bir sıra amillər şərtləndirir. Məsələn, son illər respublikada ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirilib. Bunun nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.

Azərbaycanda Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin diqqət mərkəzində saxlanılması və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin artırılması sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

Azərbaycanda həyata keçirilən daxildə emal xüsusi gömrük prosedurunun tətbiqi də ixrasda müsbət göstəricilərin əldə edilməsini şərtləndirir. Bu, müəyyən malların emal əməliyyatları aparıldıqdan sonra ixracı məqsədilə ölkə ərazisinə gömrük rüsumları və vergilər, o cümlədən ƏDV alınmadan gətirilməsindən ibarətdir. Respublikamızda malların daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi əsasən, təmir və emal məqsədilə gerçəkləşdirilir. Prosedur məhz xidmət sektorunun inkişafına, ixrac fəaliyyətinin stimullaşdırılması məqsədilə tətbiq olunur.

Malların daxildə emal xüsusi gömrük proseduru ilə yerləşdirilməsi qaydalarına indiyədək bir sıra dəyişikliklər olunub. Həmin dəyişikliklər nəticəsində prosedur sahibi sifariş müqaviləsi ilə yanaşı, alqı-satqı razılaşması əsasında da istənilən ölkədən xammal və ya materialı respublikaya gətirib qanunvericilikdə nəzərdə tutulan müddətdə emal edərək istənilən ölkədəki alıcıya göndərmək imkanı əldə edib. Bununla yanaşı, gömrük borcunun ödənilməsinə məcburi təminatın verilməsi aradan qaldırılıb, həmçinin prosedurdan istifadə icazəsinin alınması üçün sənədləşmə prosesi sadələşdirilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiqlənən "2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq, ixracyönümlü yerli istehsalı artıra biləcək güzəştli gömrük prosedurlarının sadələşdirilməsi nəzərdə tutulur. Bu kontekstdə daxildə emal xüsusi gömrük prosedurunun istifadə şərtlərinin sadələşdirilməsi diqqət mərkəzində saxlanılır.

Ölkə daxilində emal xüsusi gömrük prosedurundan istifadənin sadələşdirilməsi, səmərəliliyinin və ixracyönümlü yerli istehsalın artırılması məqsədilə Nazirlər Kabineti tərəfindən 2023-cü il aprelin 10-da müvafiq qərar qəbul edilməsi müəyyən mallarla bağlı emal əməliyyatları aparıldıqdan sonra onların ixracı məqsədilə Azərbaycanın gömrük ərazisinə gömrük rüsumları və vergilər, o cümlədən ƏDV alınmadan gətirilməsindən ibarət xüsusi gömrük prosedurunun gerçəkləşdirilməsi nəzərdə tutulub. Yeri gəlmişkən, yuxarıda vurğulanan "emal əməliyyatları" dedikdə isə malların hazırlanması, emalı, təkrar emalı və təmiri nəzərdə tutulub.

Daxildə emal proseduru əsasında yerləşdirilən xarici xammallar gömrük ərazisində bir və ya bir neçə emal əməliyyatında (idxal gömrük rüsumları, malların idxalı üzrə qanunvericilikdə nəzərdə tutulmuş əlavə dəyər vergisi və aksizlər) istifadə edilir. Ümumiyyətlə, xarici ölkələrin təcrübəsində daxildə emal xüsusi gömrük proseduru ixracyönümlü istehsalın artırılması üçün geniş istifadə olunur. Belə ki, xarici xammaldan asılı olan ixrac məqsədli məhsulların istehsalı üçün xammal və materiallar bu prosedur əsasında yerləşdirilir, gömrük rüsumu və vergilər ödənilmədən ölkəyə gətirilir və istehsal olunan yeni məhsul qanunvericilikdə nəzərdə tutulan müddət ərzində emal edilərək ixrac olunur.

Beləliklə, istehsal olunan məhsulun ixrac bazarlarında rəqabətqabiliyyətliliyi artır. Daxildə emal xüsusi prosedurunun üstünlüyü odur ki, məhsulun maya dəyəri aşağı düşür, inzibatçılıq azalır, sahibkarların vaxtına və vəsaitinə qənaət edilir, ölkəmizə investisiya yatırılması imkanları artır, istehsal olunan məhsulların rəqabət qabiliyyəti yüksəlir, ixrac bazarlarına yönəlmiş istehsalın artırılmasına şərait yaranır.

Bütün bunlarla bərabər, respublikamızda prioritet layihələrin maliyyələşdirilməsi üçün yeni borclanma siyasəti aparılır, makroiqtisadi və büdcə dayanıqlığının reallaşdırılması məqsədilə iqtisadiyyatın şaxələndirilməsinə xüsusi əhəmiyyət verilir. Məhz bütün bunların nəticəsidir ki, hazırda qeyri-neft-qaz sənayesində artım neft-qaz sektorundakı artımı üstələyir. Mövcud sahədə əlavə dəyərin 7 faizə yaxın artması, ümumi halda isə qeyri-neft sektorunda 3 faizdən çox artım müşahidə olunması, həmçinin 2003-cü ildən başlayaraq, ötən zaman ərzində reallaşdırılan strategiya sayəsində milli iqtisadiyyatın real xərcinin, təqribən, 4 dəfə, ixracın 15,6 dəfə yüksəlməsi, iqtisadiyyatın orta artım tempinin dünya üzrə orta səviyyədən 4 faiz çox olması bunun parlaq ifadəsidir.

Azərbaycanın iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun getdikcə güclənməsi də xarici ticarət dövriyyəsinin əhatə dairəsinin böyüməsinə təkan verib. Məhz bunun nəticəsidir ki, ölkəmizin xarici ticarət əlaqələrinin coğrafiyası ildən-ilə genişlənir.

Bütün bunlar hazırda ölkə iqtisadiyyatı üçün yeni istiqamətlərin formalaşdığını deməyə əsas verir. Bu istiqamətlər isə idxaldan asılılığın azaldılması, qeyri-neft əmtəə və xidmət ixracı həcminin yüksəldilməsi, qeyri-neft emal sənayesinin inkişafının sürətləndirilməsi, biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması, özəl investisiyaların dominant rolunun gerçəkləşdirilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və "kölgə iqtisadiyyatı" səviyyəsinin minimuma endirilməsindən ibarətdir. Yeni məqsədlərə doğru yolda əldə edilən ilkin nəticələr isə müsbətdir.

# Qarabağ yenidən cənnətə çevrilir



(əvvəli 1-ci səhifədə)

Vətən müharibəsi başa çatandan dərhal sonra düşməndən təmizlənən ərazilərdə hava limanlarının, avtomobil və dəmir yollarının tikintisi işlərinə də başlanılıb, qısa zaman ərzində bu bölgədəki müxtəlif yaşayış məntəqələri arasında, eləcə də bu məntəqələri ölkənin digər şəhər və rayonları ilə birləşdirən nəqliyyat infrastrukturunun formalaşdırılması diqqət mərkəzində saxlanılıb.

Bütün bunlarla bərabər, işğaldan azad edilən ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası məqsədilə mühüm tədbirlər həyata keçirilir. Erməni faşizmi tərəfindən tamamilə dağıdılan iqtisadiyyatın qurulması üçün iqtisadi fəaliyyətin canlanması sürətləndirilir və əlverişli biznes mühitinin formalaşdırılması təmin edilir.

Bütün bunlar barədə Xəzər İnşaat Həftəsi çərçivəsində keçirilən panel müzakirəsində ətraflı məlumat verilib. Ağdam şəhərində bu ilin iyununda başlanılan yaşayış məhəllələrinin tikintisinin hazırda 2-ci məhəllənin 11 kvartalında sürətlə həyata keçirildiyi qeyd edilib. Eyni zamanda, 3 kənddə –Sarıcalıda 203, Kəngərlidə 292, Xıdırlıda isə 719 fərdi yaşayış evinin inşası davam etdirildiyi vurğulanıb. Eyni zamanda, bu yaşayış məntəqələrində məktəblər, uşaq bağçaları, klub icma mərkəzləri, bazar kompleksləri, məişət xidməti obyektləri, ailə sağlamlıq mərkəzləri, inzibati binalar və digər iaşə obyektlərinin də tikintisinin cədvəl üzrə aparıldığı xatırladılıb.

Ağdamın ən böyük kəndlərindən olan Baş Qərvənddə "Ağıllı kənd" layihəsinin icrası nəzərdə tutulub. Burada Slovakiyanın mütəxəssis və mühəndislərinin reallaşdıracaqları "ağıllı həllər"in tətbiqi ilə, ümumilikdə, ərazisi 476 hektar olan yaşayış məntəqəsinin tamamilə yenidən qurulması, "ağıllı kənd" kimi bərpası planlaşdırılıb.

"Ağıllı kənd"də "ağıllı" texnologiyalardan istifadə ediləcək. "Yaşıl" enerjidən istifadə olunmaqla kanalizasiya təmizləmə qurğusu quraşdırılacaq. Bütün növ qənaətli texnologiyalar "Ağıllı kənd" konsepsiyası çərçivəsində tətbiq ediləcək. Evlərin inşası zamanı təbii materiallardan, "smart" texnologiyaların istifadə olunacaq. Füzulinin bərpası da sürətlə davam etdirilir. Şəhərin mərkəzində, Zəfər yolunun kənarında istifadəyə verilən 846 mənzildən ibarət 4, 5 , 6 və 7 mərtəbəli binalarda 822 ailə məskunlaşıb. Baş plana uyğun olaraq burada şəhərdaxili yolların uzunluğunun 87 kilometrdən çox olması nəzərdə tutulub.

Şəhərdə Özbəkistan Respublikası tərəfindən inşa olunan 960 şagird yerlik Mirzə Uluqbəy adına 1 saylı məktəb, Qazaxıstan Respublikası tərəfindən tikilən Kurmanqazı Uşaq yaradıcılıq Mərkəzi də fəaliyyət göstərir. Kəndlərdə də quruculuq işləri davam etdirilir. Pirəhmədli kəndində bərpa işlərinə hazırlıq görülür.

Dövlətyarlı yaşayış məntəqəsi "ağıllı kənd" layihəsi kimi sistemləşdiriləcək və burada alternativ enerji mənbələrindən, "yaşıl" enerjidən istifadə ediləcək. Tikintinin ilk mərhələsində 450 fərdi ev inşa olunacaq, eləcə də məktəb, uşaq bağçası, kənd meydanı, bazar və digər infrastruktur obyektləri də formalaşdırılacaq. İşğaldan azad edilmiş Tuğ kəndinin vacib turizm məntəqəsi olduğu nəzərə alınaraq burada avtomobil dayanacağı yaradılacaq.

İşğaldan azad edilmiş Tuğ kəndinin bərpası da diqqətdə saxlanılır. Bu yaşayış məntəqəsində ilkin mərhələdə 30 fərdi yaşayış evi, 360 yerlik məktəb binası və 50 yerlik uşaq bağçasının bərpa edilməsi nəzərdə tutulur. Yenidənqurma işləri aparıldıqdan sonra bir sıra mövcud binalar yeni təyinatla – hotel, mədəniyyət mərkəzi, aptek kimi fəaliyyət göstərməsi, eyni zamanda, Tuğun vacib turizm məntəqəsi olduğu nəzərə alınaraq burada avtomobil dayanacağının yaradılacağı da planlaşdırılır. Hadrut qəsəbəsində də bərpa prosesinə aid işlər davam etdirilir və hazırda qəsəbədə söküntü və şaquli planlaşdırma işləri icra edilir. Ümumilikdə, Hadrut qəsəbəsində 11 yaşayış binasının bərpası və tikintisi nəzərdə tutulur.

Hazırda Hadrutda həyata keçiriləcək bərpa-tikinti işlərinin layihələndirilməsi aparılır. Qəsəbədə istirahət sahələrinin, meydanın, çay bağçasının, uşaq oyun meydançalarının, kitabxananın, 64 yerlik avtomobil dayanacağının və s. yaradılması nəzərdə tutulub.

Laçının qurulması zamanı "yaşıl" texnologiyardan istifadə edilməsi də diqqətdə saxlanılıb. Şəhərdə 24 fərdi evdə enerji təchizatının sabitliyini gerçəkləşdirmək üçün günəş panelləri quraşdırılıb, 9 fərdi ev isə günəş kollektoruna qoşulub. Zabux və Sus kəndlərində bütün yaşayış evləri, iki məktəb və inzibati binalar günəş panelləri ilə təchiz olunub.

Laçın rayonunda "yaşıl" enerji strategiyasına uyğun olaraq 11 yerdə su elektrik stansiyası qurulur, bərpa-tikinti prosesində ətraf mühitin mühafizəsi məsələsinə xüsusi diqqət yetirilir, alternativ enerji mənbələrinin istifadəsinə böyük önəm verilir. Bu, evlərin damlarının üzərində quraşdırılmış günəş panellərində, şəhərdaxili işıqlandırmanı reallaşdıran hibrid–solar lampaların istifadəsində öz əksini tapır.

Rayonda tikilən yeni hava limanı isə bölgənin turizm potensialından geniş istifadə olunmasına imkan verəcək. Laçının Qorçu kəndində inşa olunan və saatda 200 sərnişinə xidmət göstərəcək beynəlxalq hava limanı yaxın perspektivdə istifadəyə veriləndən sonra bölgələrə gediş-gəliş asanlaşacaq.

# Çin şirkəti ilə Anlaşma Memorandumu imzalanıb

**Azərbaycan İnvestisiya Holdinqi ilə Çinin "FiberHome Telecommunication Technologies Co., Ltd." şirkəti arasında əməkdaşlıq üzrə Anlaşma Memorandumu imzalanıb.**




Mərasimdə iqtisadiyyat naziri Mikayıl Cabbarov, Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanov, "FiberHome Telecommunication Technologies Co., Ltd"nin baş icraçı direktoru Hai Lan iştirak ediblər.

Toplantıda 2030-cu ilə qədər Azərbaycanın sosial-iqtisadi inkişafına dair Milli Prioritetləri barədə məlumat verilib. Sənəddə ölkəmizin müasir innovasiyalar məkanına çevrilməsinin qarşıya hədəf kimi qoyulduğu qeyd edilib. Eyni zamanda, respublikamızda "ağıllı" texnologiyaların tətbiqinin genişləndirilməsi məqsədilə dünyanın aparıcı şirkətləri ilə uğurlu əməkdaşlıq əlaqələri qurulduğu və mühüm layihələrin icra edildiyi bildirilib.

Qeyd edilib ki, telekommunikasiya texnologiyaları sahəsində ixtisaslaşan şirkətlə imzalanan sənədin icrası tərəflərin "ağıllı" infrastruktur, innovativ məxanizmlər və informasiya texnologiyaları istiqamətlərində əməkdaşlığını gücləndirməklə Azərbaycan və Çin arasında biznes tərəfdaşlığının təşviqinə və ölkəmizdə qabaqcıl biznes təcrübələrinin tətbiqinə təkan verəcək.

Xatırladaq ki, "FiberHome Telecommunication Technologies Co., Ltd." Çinin nəhəng telekommunikasiya texnologiyaları şirkətlərindən, habelə dünyanın ən böyük fiber-optik kabel istehsalçılarından biridir. Şirkət optik ötürmə sistemləri, İP şəbəkələri, məlumat mərkəzləri və müasir şəbəkə infrastrukturu həlləri kimi sahələrin daxil olduğu geniş məhsul portfelinə sahibdir və dünyanın 90-dan çox ölkəsində məhsul və xidmətlərin satışını həyata keçirir.



# 3 ildə aqrar sığorta ödənişləri 10 milyon manatı ötüb

**Aqrar Sığorta Fondu İdarə Heyətinin sədr müavini Ləman Alıyeva-Məmişova brifinqdə çıxışı zamanı son 3 il ərzində qurumun sığorta ödənişlərinin, təxminən, 10,8 milyon manatı keçdiyini bildirib.**

Onun sözlərinə görə, bitkiçilik və heyvandarlıq sahələrinə 2022-ci ildə 2,4 milyon manat, 2023-cü ildə 4,4 milyon manat, 2024-cü ilin ötən aylarında isə 4 milyon manata yaxın sığorta ödənişləri gerçəkləşdirilib. Sığorta ödənişləri 1000-ə yaxın fermer də bu ödənişlərdən yararlanıb. Ötən illə müqayisədə bu il fonda olan müraciətlərin sayında isə 42 faiz artım müşahidə olunub.

# Yanacaq satışından gəlir 7 faiz artıb



**Bu ilin yanvar–sentyabr aylarında ölkədə 2 milyard 430,9 milyon manat məbləğində avtomobil benzini və dizel yanacağı satılıb. Dövlət Statistika Komitəsinin bununla bağlı yaydığı məlumatda həmin göstəricinin ötən ilin müvafiq ayları ilə müqayisədə 6,3 faiz çox olduğu bildirilib.**

Hesabat dövründə Azərbaycanda pərakəndə ticarət dövriyyəsinin ümumi həcmində avtomobil benzini və dizel yanacağı satışından 5,7 faiz gəlir əldə edilib.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*




# "Yaşıl dünya" naminə həmrəylik



# Müasir suvarma şəbəkəsi genişlənir

**Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq olunan "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"sında ölkədə su təhlükəsizliyinin qorunması, onun dayanıqlığının artırılması və bu sahədə müasir idarəetmə sisteminin qurulması qarşıya mühüm vəzifə kimi qoyulub.**

Sənəddə müəyyənləşdirilən prioritet istiqamətlər sırasında olan su ehtiyatlarının qiymətləndirilməsi və proqnozlaşdırılması sisteminin təkmilləşdirilməsi, bu zaman hidroloji və hidrogeoloji tədqiqatlara üstünlük verilməsi, monitorinq stansiyalarının rəqəmsallaşdırılması, məlumatların real vaxt rejimində emalının gerçəkləşdirilməsi kimi amillərin diqqətdə saxlanmasının zəruriliyi də vurğulanıb.

Bütün bunlarla bərabər, müəyyən layihələrin həyata keçiriləcəyi təqdirdə risklərin simulyasiyası və rəqəmsallaşmasının təmin ediləcəyinə, beləliklə, ölkənin su ehtiyatları barədə real təsəvvür formalaşacağına, iqlim dəyişmələrinin təsirləri nəzərə alınaraq dayanıqlı su mənbələrindən istifadəyə zəmin yaradılacağına əminlik ifadə olunub.

Mütəxəssislərin fikrincə, ölkədə su təsərrüfatları və su hövzələri səviyyələrinin optimallaşdırılması, eləcə də dövlət–özəl tərəfdaşlığının inkişaf etdirilməsi bu sahədə idarəetmənin səmərəliliyini artıraraq, sosial-iqtisadi vəziyyət və investisiya qoyuluş nəzərə alınmaqla tariflərin diferensiallaşdırılmasını şərtləndirəcək. Su ehtiyatlarının hövzədaxili və hövzələrarası inteqrasiyalı idarə edilməsinə nail olunacaq.

İqtisadçı-ekspert Samir Heydərov bildirir ki, strategiyada su ehtiyatlarından səmərəli istifadənin önə çəkilməsi mühüm önəm daşıyır: "Bunun üçün suyun dövlət uçotu sistemi təkmilləşdirilməli və qanunsuz müdaxilələrin qarşısı alınmalı, ən başlıcası isə müasir suvarma üsullarının tətbiqi genişləndirilməlidir. Yalnız bu halda qarşıya qoyulan vəzifənin gerçəkləşdirilməsi mümkündür".





S.Heydərovun sözlərinə görə, 2027-ci ilədək ölkədə şirin su ehtiyatlarının artırılması məqsədilə 4 yeni su anbarının yaradılacağı, su təchizatı infrastrukturunun genişləndirilməsi nəticəsində içməli su təminatının 85 faizə, suvarma suyu təminatının isə 90 faizə çatdırılacağı bildirilir.

İqtisadçı-ekspert qeyd edir ki, tezliklə su təhlükəsizliyi sahəsində risklər müəyyənləşdiriləcək və onların aradan qaldırılması ilə bağlı qabaqlayıcı tədbirlər görüləcək, sərhədlərarası razılaşdırılmış fəaliyyətlər vasitəsilə su hövzələri boyunca su ehtiyatlarının inteqrasiyalı idarə olunması inkişaf etdiriləcək. Su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, sudan səmərəli istifadə, tullantı sularının axıdılması sahəsində mövcud problemlərin həlli məqsədilə qarşılıqlı əməkdaşlıq gücləndiriləcək, ekoloji tarazlıq qorunacaq, iqlim dəyişikliyinə mitiqasiya və adaptasiya yolu ilə cavab verməklə hidroekoloji böhranın qarşısı alınacaq.

Coğrafiya elmləri doktoru Məhəmməd Abduyev bildirir ki, qlobal iqlim dəyişiklərinin yağıntıların paylanmasına mənfi təsiri, eləcə əhali artımı suya olan tələbatı getdikcə artırır. İlkin proqnozlara görə, su qıtlığı daha geniş miqyas alaraq XXI əsrin ortalarınadək davam edəcək. Beynəlxalq Təbii Resurslar İnstitutunun verdiyi proqnozlara əsasən isə, 2040-cı ilə qədər dünya ölkələrinin beşdə birində su çatışmazlığı problemi yaranacaq.

Adı çəkilən institutun hesabatında quraqlıq təhlükəsi ilə qarşılaşacaq ölkələr arasında, təəssüflər olsun ki, Azərbaycanın da adı var. Belə ki, siyahıda göstərilən 33 ölkə arasında ölkəmiz 18-ci yerdə qərarlaşıb: "Azərbaycanın çay axımına əsaslanan su ehtiyatları orta hesabla 30,9 kubkilometrə bərabərdir ki, bunun da 20,3 kubkilometri qonşu ölkələrdən gələn (əsasən Kür və Araz çaylarının) tranzit axım hesabına, 10,6 kubkilometri isə ölkə daxilində formalaşır.

Yeri gəlmişkən, ümumi su ehtiyatlarının üçdə iki hissəsi tranzit axımın payına düşdüyündən çirklənmə də, əsasən, bu çaylarda müşahidə olunur. Bu qədər su ehtiyatlarına malik olan ölkəmiz Beynəlxalq Təbii Resurslar İnstitutunun tərtib etdiyi siyahıda 18-ci yerdə qərarlaşması itkiyə sərf olunan suyun kəmiyyətinin kifayət qədər yüksəkliyi, selləmə suvama üsulunun geniş tətbiqi, eləcə də mövcud suvarma şəbəkəsinin 70-73 faizinin torpaq məcralı kanallardan ibarət olması ilə izah edilə bilər".

İqlimşünas alimin sözlərinə görə, adambaşına gündəlik içməli və məişətdə istifadə edilən su norması Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən 450 litr müəyyən edilib. Beynəlxalq norma nəzərə alınsa, ölkəmizdə əhali il ərzində 1,6 milyard kubmetr içməli və məişətdə istifadə üçün su ilə təmin olunmalıdır. Azərbaycanda əhalinin su təminatı 32 il ərzində (1990-2021) orta hesabla 367 milyon kubmetr təşkil edib ki, bu da müəyyənləşdirilən su normasından 4,4 dəfə azdır. Bu, həm də gün ərzində adambaşına 100 litr, yəni müəyyən edilən beynəlxalq normadan 4,5 dəfə az su istehlakı deməkdir.

M.Abduyev fikirlərini yekunlaşdıraraq bildirir ki, keçid iqlim qurşağında yerləşən və su ehtiyatları ilə zəif təmin olunan Azərbaycanda su çatışmazlığı özünü daha aydın hiss etdirir. Təbii və antropogen təsirlərlə su ehtiyatlarında baş verən dəyişikliklərin qiymətləndirilməsi son illər xüsusi aktuallığı ilə seçilir. Ölkəmizdə təbii su mənbələrindən götürülmüş və istehlak olunmuş su ehtiyatlarından istifadə iki dövr üçün təhlil edilib. Birinci mərhələni əhatə edən 1990-2000-ci ilədək olan dövrdə təbii mənbələrdən götürülən suyun azalması məlum olub. Yəni 2000-ci ilədək su ehtiyatlarından istifadə olunmasında azalma qeydə alınsa da, sonrakı illərdə bu sahədə artım baş verib. Bu da əkin sahələrinin çoxalması, əhalinin suya olan tələbatının artması, yeni sututumlu müəssisələrin yaradılması ilə bağlıdır.

Son illər respublikamızda müasir suvarma üsullarının tətbiqi diqqətdə saxlanılır. Çinin Lançjou Universitetinin iqlim üçün optimallaşdırılmış kənd təsərrüfatı sahəsi üzrə eksperti Adnan Arşad bildirib ki, ölkəsinin iqlimə davamlı aqroekosistemlərin yaradılmasındakı uğuru suvarma problemi ilə üzləşən ölkələr, o cümlədən Azərbaycan üçün yaxşı nümunə ola bilər. Ekspert suvarma problemi olan ölkələrdə tətbiq edilə biləcək bir neçə konkret metodun adını çəkib. Onun fikrincə, suya qənaət edən suvarma üsullarının tətbiqi sudan istifadəni optimallaşdırmağa və itkiləri azaltmağa kömək edir: "Bura damcı suvarma sistemi və çiləmə kimi üsulların tətbiqi daxildir. Bu cür üsullar suyu birbaşa bitki köklərinə çatdırır, buxarlanmanı minimuma endirir və istifadənin səmərəliliyini artırır".

A.Arşad söhbətində suyun yığılması ilə bağlı texnologiyaların inkişaf etdirilməsi, əkinlərin şaxələndirilməsi, bilik mübadiləsi və məhsul təlimi proqramlarının təşviqi zərurətini də vurğulayıb: "İqlim, suyun mövcudluğu, yerli sosial-iqtisadi amillər nəzərə alınmaqla bu üsulların Azərbaycanın konkret şərtlərinə uyğunlaşdırılması vacibdir".

Bakıda keçiriləcək COP29-dan gözləntiləri barədə danışan A.Arşad qeyd edib ki, optimallaşdırılmış kənd təsərrüfatı sahəsinin maliyyələşdirilməsi ilə bağlı vəsaitlər artırılmalıdır. Qarşıdan gələn COP29 təşəbbüsləri üçün artan maliyyə resurslarının prioritetləşdiriləcəyi və reallaşdırılacağı mühüm önəm daşıyır. Bura tədqiqat və inkişaf üçün maliyyə, potensialın artırılması, texnologiya transferi və iqlim dəyişikliyinə uyğunlaşmanı yaxşılaşdıran davamlı kənd təsərrüfatı təcrübələrinə investisiya daxildir.

# "İqlim və sülh bağlantısı"



**Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının mərkəzi qərargahında COP29 Sədrliyi və Federasiyanın birgə təşkilatçılığı ilə iqlim dəyişikliyi və qlobal sülh arasındakı qarşılıqlı əlaqəyə həsr olunmuş müzakirə keçirilib.**

Cenevrədə yerləşən BMT qurumlarının, beynəlxalq humanitar təşkilatların, eləcə də BMT-yə üzv dövlətlərin daimi nümayəndəliklərinin iştirak etdikləri tədbirdə Federasiyanın baş katibi Caqan Çapagain Azərbaycana iqlim dəyişikliyi və sülh arasında bağlantı mövzusuna diqqət çəkdiyinə görə təşəkkürünü bildirdi və COP29 Sədrliyinin bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirdi.

COP29 Sədrliyinin baş müşaviri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov iqlim konfransı çərçivəsində keçirilməsi nəzərdə tutulan Sülh, Yardım və Bərpa Günü haqqında ətraflı məlumat verib. Natiq iqlim dəyişikliyi nəticəsində su çatışmazlığı, ərzaq təhlükəsizliyi, torpaq deqradasiyası və miqrasiyanın artan miqyasına diqqət çəkərək bu problemlərin beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi risklər yaratdığını bildirib.

Səfir daha sonra 500 milyondan artıq əhalinin üzləşdiyi bu problemlərin həllinə iqlim maliyyəsinin cəmi 2 faizinin xərcləndiyini, bunun isə az inkişaf etmiş ölkələrin hələ uzun illər aclıq, münaqişə, xəstəliklərə düçar qalması üçün zəmin yaratdığını vurğulayaraq deyib: "İnkişaf etmiş ölkələri süni şəkildə siyasiləşdirilən məsələlər deyil, məhz bu kimi real fəlakətlər narahat etməli, bu istiqamətdə əməli addımlar atılmalıdır. COP29 sədri kimi Azərbaycan irəli sürdüyü təşəbbüslər vasitəsilə məhz bu yolda həqiqi sülhə xidmət edir".

Müzakirə zamanı COP29 Sədrliyinin təşəbbüsü olan İqlim və Sülh Fəaliyyəti üzrə Bakı Mərkəzinin konsepsiyası, eləcə də əməli təklifləri özündə ifadə edən İqlim üçün Bakı Sülh Çağırışının ilkin layihəsi tədbir iştirakçılarına təqdim edilib. Toplantıda çıxış edən Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi, səfir Qalib İsrafilov ölkəmizin COP29 Sədrliyinin fəaliyyət gündəliyi üzrə təşəbbüslərinin beynəlxalq sülhün gücləndirilməsinə xidmət edən amillərinə diqqət çəkib.

42 ölkə və 12 beynəlxalq təşkilatın nümayəndələrinin iştirak etdiyi tədbir zamanı aparılan müzakirələrdə COP29 Sədrliyinin iqlim və sülh mövzusu üzrə təqdim etdiyi gündəlik yüksək qiymətləndirilib, Azərbaycan nümayəndələri tədbir iştirakçılarının çoxsaylı suallarını ətraflı cavablandırıblar.

# Naxçıvanda karbon aksiyası

**Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin məlumatına görə, qədim diyarda bir gün ərzində 130 min kubmetr həcmində təbii qaza qənaət edilib. Belə ki, oktyabrın 11-də muxtar respublikanın 947 min 508 Kv/saat elektrik enerjisinə tələbatı tam "yaşıl" enerji hesabına ödənilib. Digər günlərlə müqayisədə, təqribən, 130 min kubmetr həcmində təbii qaza qənaət edilib, həmin gün karbon emissiyası sıfıra düşüb.**



Energetika Xidmətindən verilən məlumata görə, COP29 çərçivəsində bu addımların atılması muxtar respublikada alternativ enerji mənbələrindən daha səmərəli istifadə edilməsinə səbəb olacaq.

# Britaniya parlamentində COP29-a dəstək



**Böyük Britaniya parlamentinin Lordlar Palatasında 4-cü Qlobal Enerji Həftəsinin açılış konfransında alternativ enerji, hidrogen resursları, enerji keçidi və enerji təhlükəsizliyi kimi mövzular müzakirə edilib, Azərbaycanın evsahibliyi edəcəyi COP29-un əhəmiyyəti dəfələrlə vurğulanıb.**

Mərasimdə çıxış edən Britaniyanın enerji təhlükəsizliyi və "sıfır emissiya" məsələləri üzrə dövlət naziri Lord Hunt Britaniyada yenicə hakimiyyətə gələn Leyborist hökumətinin "yaşıl" keçid məsələsinə xüsusi diqqət yetirdiyini diqqətə çatdırıb. Azərbaycanda keçiriləcək COP29-un vacib əhəmiyyətinə toxunan britaniyalı nazir ölkəsinin bu xüsusda respublikamızla yaxından əməkdaşlıq etməsini və iqlim konfransının uğurla nəticələnməsi üçün Azərbaycana hər bir dəstəyi verməyə hazır olduğunu məmnunluqla vurğulayıb.

Lordlar Palatasının üzvləri, beynəlxalq, eləcə də Britaniyaya məxsus enerji şirkətlərinin nümayəndələri və diplomatik korpus üzvlərinin təmsil olunduğu tədbirdə təşkilatçıların dəvəti əsasında Azərbaycanın Britaniyadakı səfiri Elin Süleymanov da iştirak edib.

Britaniya parlamentinin Lordlar Palatasının üzvü Lord David Evans iqlim dəyişikliyi və "yaşıl" keçid məsələsinin önəmi barədə danışarkən COP29-a evsahibliyi etməklə beynəlxalq iqlim danışıqlarına şərait yaratmaq kimi məsuliyyəti işi öhdəsinə götürdüyünə görə Azərbaycana təşəkkür edib. O, COP29-un Bakı şəhərində uğurla təşkil ediləcəyinə əminliyini vurğulayıb.

# "Yaşıl dünya naminə həmrəy olaq"

**Bakı Mühəndislik Universitetində keçirilən "COP29: Yaşıl dünya naminə həmrəy olaq" adlı forumda qlobal ekoloji problemlərin ətraf mühitə təsiri, yaratdığı sosial-iqtisadi fəsadlar, "yaşıl" enerji və onun istixana qazlarının azaldılmasında rolu, COP29-un Azərbaycana ekoloji baxımdan qazandıracağı üstünlüklər, iqlim dəyişikliyinin su ehtiyatlarının idarə olunmasına, eləcə də Xəzər dənizinin səviyyə dəyişmələrinə təsirləri istiqamətində müzakirələr aparılıb.**



Tədbirdə Azərbaycanda 2024–2040-cı illərdə "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın qəbul olunmasının mühüm önəmi vurğulanaraq sənəddə iqlim dəyişmələri fonunda yeni texnologiyalardan istifadə, suyun uçotunun təkmilləşdirilməsi, eləcə də hidroböhranların qarşısının alınması kimi zəruri məsələlərə geniş yer verildiyi vurğulanıb. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su potensialından səmərəli istifadə ilə bağlı hazırda görülən işlər barədə məlumat verilib, eləcə də yeni su anbarlarının tikilməsinin Azərbaycanın iqlim dəyişmələrinin təsirinə uyğunlaşdırılması məqsədilə atdığı addımlar sırasında dayandığı diqqətə çatdırılıb.

Forumda 2030-cu ilə qədər dünyada bərk məişət tullantılarının 4 milyard tonu aşacağı və bunun ciddi risk kimi narahatlıq doğurduğu vurğulanıb. Bildirilib ki, bərk məişət tullantılarının idarə olunması təkcə atmosferə yox, yeraltı sulara, torpağa və s. mənfi təsir göstərir. Sanitar normalara cavab verən poliqonların yaradılmasının müsbət cəhətləri xatırladılaraq tullantılardan alınan qazların istilik məqsədli istifadəsi yüksək dəyərləndirilib.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***

İrəvan Azərbaycan Pedaqoji Texnikumu – 100

# Qədim türk yurdunun ziya ocağı

**XX əsrin əvvəllərinə qədər Bakı, Təbriz, Xoy, Naxçıvan və başqa şəhərlər ilə yanaşı, İrəvan da Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Bu ərazilərin əsl sakinləri və sahibləri azərbaycanlılar tarixin müxtəlif dövrlərində zor gücünə öz əzəli torpaqlarında yaşamaq hüququndan məhrum edilmişlər. 1918-ci ilin may ayında Qərbi Azərbaycanda daşnakların hakimiyyətə gəlməsi ilə azərbaycanlılara qarşı amansız və kütləvi terror, soyqırımı siyasəti ən qəddar metodlarla həyata keçirilmişdir.**



Bununla da İrəvanda soydaşlarımızın ictimai-siyasi, ədəbi-mədəni həyatı tənəzzülə uğramış, onlar davamlı soyqırımına və deportasiyaya məruz qalmışlar. Sonralar Azərbaycanda elm və mədəniyyətin inkişafında böyük rol oynamış Mustafa bəy Topçubaşov, Əziz Əliyev, Əhməd Rəcəbli, Əhməd Cəmil, Cəfər Xəndan, Heydər Hüseynov, Maqsud Məmmədov, Səid Rüstəmov, Bəhmən Axundov, Mirzə Cabbar Məmmədzadə, Cabbar Əsgərzadə, Həsən Seyidov, Cabbar Məcnunbəyov, Əli Məhzun və başqa görkəmli şəxsiyyətlərin ailələri də bu dövrdə öz doğma yurdlarını tərk etməyə məcbur olmuşlar.

1918–1920-ci illərdə Qərbi Azərbaycanda erməni millətçiləri 300-dən artıq azərbaycanlı kəndini yerlə-yeksan etmiş, on minlərlə dinc sakini kütləvi şəkildə qətlə yetirmişlər. Bütün bunlara baxmayaraq, 1920-ci il noyabr ayının 29-da Qərbi Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra başqa respublikalarda olduğu kimi, burada da məktəb və maarif probleminə münasibət dəyişdi, təhsilin inkişafında yeni bir mərhələ başlandı. Bolşevik rejimi 1920-ci ilin noyabr ayının 29-na qədər İrəvan quberniyasında və daşnak Ermənistanın da mövcud olan təhsil təcrübəsindən imtina edərək, yeni tipli maarif sisteminin yaradılmasını ön plana çəkdi. Beləliklə, azərbaycanlılar üçün məktəblərin yeni məzmunda təşkili istiqamətində ilk addımlar atıldı, Sovet hakimiyyətinin ilk illərində İrəvanda, Uluxanlıda, Vedibasarda, Allahverdidə, Qafanda, Basarkeçərdə, Ağbabada və s. məntəqələrdə ilk məktəblər açıldı. İrəvanda və azərbaycanlılar yaşayan bölgələrdə ana dilimizdə təhsil ocaqları şəbəkəsinin genişlənməsi orada təhsil alan şagirdlərin sayının sürətlə artmasına təkan verdi. Kütləvi maarifləndirmə müəllim kadrlarına olan tələbatı daha da artırdı.

Azərbaycan məktəblərinin müəllim kadrları ilə təmin olunması üçün 1922-ci ildə Ermənistan K(b)P MK-nin yanında yaradılmış Azsaylı Xalqlar Şöbəsi və onun müdiri Bala Əfəndiyev, Ermənistan Xalq Maarif Nazirliyinin nəzdində təşkil edilmiş Azlıqda qalan millətlər bürosunun müdiri Mehdi Kazımovun səyi nəticəsində 1922-ci ilin sonlarında İrəvanda xüsusi hazırlıq kursları təşkil edildi. Amma bu kurslar İrəvanda milli məktəblərimizin müəllim kadrlarına olan tələbatını ödəyə bilmirdi. Bu ehtiyacın ödənilməsi üçün azərbaycanlı ziyalılar milli pedaqoji kadrlar hazırlayan tədris müəssisəsinin yaradılması məsələsini 30 yanvar 1922-ci ildə Ermənistan Kommunist Partiyasının I qurultayında qaldırılsa da, müraciətə məhəl qoyulmadı.

Azərbaycan məktəblərində pedaqoji kadrlara olan ehtiyacı, qismən də olsa, aradan qaldırmaq üçün Bala Əfəndiyevin və Mehdi Kazımovun təşəbbüsü ilə 1922-ci ilin noyabrında İrəvanda 2 aylıq yay hazırlıq kursu təşkil edildi. Bu kurslar azərbaycanlı müəllimlərin hazırlanması işini canlandırdı. Azərbaycanlılar oxuyan məktəblərdə çalışmaq üçün burada həmin il 30 nəfər bitirdi. Kursda Azərbaycan məktəbləri üçün 60-dan çox müəllim hazırlandı. Bundan başqa, Uluxanlıda, Vedidə, Basarkeçərdə, Zəngəzurda, Ağbabada və azərbaycanlılar yaşayan digər bölgələrdə də hazırlıq kursları təşkil edildi. Müəllim çatışmazlığı problemini, qismən də olsa, aradan qaldırmaq üçün Azərbaycan Xalq Maarif Komissarlığının razılığı əsasında 1923-cü ildə İrəvandan Bakıya 16, 1925-ci ildə 38, 1926-cı ildə isə 11 nəfər pedaqoji təhsil almağa göndərildi. Məmməd Həsənov, Zəhra Abbasova, Əziz Əzizov, Tacirə Bağırova, Siddiqə Qədimova kimi gənclər Azərbaycan Ali Pedaqoji İnstitutunu bitirdikdən sonra İrəvana qayıdaraq maarifin inkişafına öz töhfələrini verirdilər.

Sovet hakimiyyətinin ilk illərində İrəvanda azərbaycanlı qızlar məktəbi, İrəvan yeddillik azərbaycanlı məktəbi, Əzizbəyov adına məktəb, Asrıyev, Dzerjinski və Şaumyan adına beynəlmiləl məktəblərinin isə azərbaycanlı bölmələri fəaliyyət göstərirdi. İlk vaxtlarda milli məktəblərimizdə müəllim kadrlarına böyük tələbat olduğundan İrəvan 7 illik azərbaycanlı məktəbinin şagirdləri də dərs deyirdilər. Hətta qış tətilində Zaqafqaziya Kommunist Universitetində təhsil alan azərbaycanlı tələbələr İrəvanda və yerlərdə təşkil edilmiş səyyar məktəblərdə dərs deməyə dəvət edilirdi.

Bütün bunlar azərbaycanlı məktəblərində müəllim kadrlara olan tələbatı ödəyə bilmirdi. Ermənistanın şovinist rəhbərliyi azərbaycanlı məktəbləri üçün pedaqoji



kadrlar hazırlayan müstəqil tədris müəssisəsinin yaradılmasını istəmirdilər. Bunun ən başlıca səbəbi azərbaycanlı əhalinin öz tarixi torpaqlarında qalıb möhkəmlənməsinin qarşısını almaq idi. Erməni millətçiləri Erməni Pedaqoji Texnikumunun nəzdində Azərbaycan şöbəsinin açılmasını daha məqsədəuyğun hesab edirdilər.

Yerli kadrlar hazırlayan təhsil müəssisəsinin yaradılmasının təxirəsalınmaz tələbat olduğunu aydın dərk edən Bala Əfəndiyevin, Mehdi Kazımovun, "Zəngi" qəzetinin məsul redaktoru Mustafa Hüseynovun, İrəvanda Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi mühitinin aparıcı simalarından olan Əkbər Rizayevin, Qulam Fərhadovun, Rza Şeyxzadənin, Miryusif Mirbabayevin, Murtuza Muradovun, Əhməd Əhmədovun, Abbas Fərəcovun və başqa qeyrətli ziyalıların təkidi, ciddi səyi və milli iradəsi sayəsində Ermənistan Xalq Maarif Komissarlığı İrəvan Türk Pedaqoji Texnikumunun təşkil edilməsi barədə qərar qəbul etdi.

Beləliklə, 1924-cü ilin oktyabr ayının 15-də daşnak hakimiyyətinin İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Texnikumu açıldı.

Texnikumun ilk fəaliyyət dövrünə nəzər saldıqda məlum olur ki, Mehdi Kazımov direktor və rus dili, Bala Əfəndiyev ictimaiyyat, Əsgər Əsgərzadə ana dili, Cəmil Əliyev təbiət müəllimi, Kərim Məhərrəmov isə texniki işlər üzrə köməkçi kimi fəaliyyət göstərmişlər. İrəvanın tanınmış qadın maarifçilərindən olan Bülbül Kazımova texnikumda dərs deyən ilk azərbaycanlı qadın idi.

Təhsil ocağı 1925-ci ildə Nəriman Nərimanov adına İrəvan Türk Pedaqoji Texnikumu adlandırıldı. İrəvanda bütün azərbaycanlı məktəblərində olan problemlər burada da mövcud idi. Heç bir tədris planı, proqramı, dərslik belə yox idi, müəllim kadrları çatışmırdı. Erməni Pedaqoji Texnikumunun binasında fəaliyyət göstərən bu maarif ocağı darısqal bir sinif və iki yataq otağından ibarət idi. Müəllimlər otağı yox idi. Əlavə otaqların ayrılması üçün müvafiq qurumlara edilən müraciətlərə isə heç bir müsbət cavab verilmirdi.

Ermənistanın "bolşevik" cildinə bürünmüş hakimiyyət orqanları nəinki texnikumda, eləcə də Azərbaycan məktəblərində mövcud olan problemlərin və çatışmazlıqların aradan qaldırılması üçün heç bir səy göstərmirdi.

Pedaqoji texnikumda ana dilində kitab, dərslik və dərs vəsaitlərinə, tədris proqramlarına və s. ləvazimatlara böyük ehtiyac olduğu halda, Ermənistan Xalq Maarif Komissarlığı bu tələbatı belə ödəmək istəmirdi.

Bu cür ciddi problemlər səbəbindən 1925-ci ilin sonlarına qədər texnikuma əsaslı qəbul həyata keçirilməmiş, altıaylıq və birillik kurslar fəaliyyət göstərmiş, məktəbin ehtiyaclarını uzun müddət Azərbaycan Xalq Maarif Komissarlığı ödəmişdir. Əşrəf Bayramov, Miryusif Mirbabayev, Məhəmməd Əzimzadə, İsmayıl Babayev kimi ziyalılar bu maarif ocağının dirşəldilməsinə çalışırdılar. Dünya şöhrətli alim, akademik Yusif Məmmədəliyev də ilk əmək fəaliyyətinə bu texnikumda başlamışdı. O, 1926-27-ci illərdə burada kimya-biologiya fənnini tədris etmişdi.

Türk Pedaqoji Tenikumunun 1929-cu ilin iyun ayındakı ilk buraxılışı İrəvanda və bölgələrdə milli maarifimizin böyük uğuru olmuşdur. Lakin onun müstəqil bina ilə təmin edilməsinə, tələbə kontingentinin sayının artırılmasına böyük ehtiyac var idi. 1930-cu illərdə Ermənistanda 7-dən artıq erməni texnikumunun hər biri müstəqil bina, tədris üçün lazımi şəraitlə təmin edildiyi halda, İrəvanda yeganə olan Azərbaycanlı Pedaqoji Texnikumu bu qayğılardan məhrum idi. "Qızıl şəfəq" qəzetində azərbaycanlı məktəblərinə və pedaqoji texnikuma Ermənistan hökumətinin lazımi kömək göstərməməsi, laqeyd münasibət sərgiləməsi barədə kifayət qədər kəskin yazılar dərc olunmuşdu. Texnikumun rəhbərliyi bütün çətinliklərə baxmayaraq, bu təhsil ocağının ahəngdar fəaliyyət göstərməsi üçün imkanlar axtarıb tapırdılar.

İlk dəfə bir neçə müəllimlə fəaliyyətə başlayan İrəvan Türk Pedaqoji Texnikumuna 1934-cü illərdə ali təhsilli müəllimlər cəlb olundu. Azərbaycan dili və ədəbiyyatından Nəsib Əfəndiyev, Müzəffər Nəsirli, Abbas Azəri, tarixdən Nəzər Paşayev, pedaqogika və psixologiyadan Tacirə Bağırova, Zəhra Abbasova, kimyadan Ramazan Əliyev, fizika və riyaziyyatdan Məmməd Həsənov, Zərri Qurbanova, Əziz Əzizov və Kərəm Abbasov kimi ali təhsilli, işıqlı simalar dərs deyirdilər. Texnikum uğurlarını möhkəmləndirərək Cənubi Qafqazda ali məktəb səviyyəsində böyük uğur qazana bilmişdi. İrəvan Türk Pedaqoji Texnikumu 1934-cü ildə Ümumittifaq texnikumlar yarışında birincilik qazanaraq 7 min manat məbləğində pul mükafatına layiq görülmüşdü.

1935-ci ildə Məmməd Səid Ordubadi, Mikayıl Müşfiq, Mehdi Hüseyndən ibarət nümayəndə heyəti İrəvanda səfərdə olarkən İrəvan Türk Pedaqoji Texnikumunun kollektivi ilə görüş keçirmişdilər. Ümumiyyətlə, Azərbaycanın bir çox görkəmli ziyalıları – Cəlil Məmmədquluzadə, Əli Nazim, Mir Cəlal, Yusif Vəzir Çəmənzəminli, Sabit Rəhman, Səməd Vurğun, Məmməd Arif, Nigar Rəfibəyli, Mirvarid Dilbazi, Əbülhəsən, Mikayıl Rəfili, Həmid Araslı, Vəli Xuluflu, Süleyman Rüstəm və başqaları bu təhsil ocağının qonağı olmuşdular.

İrəvanda belə bir məktəbin yaradılması Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların həyatında mühüm hadisə idi. İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun yaranmasının 15 illik yubileyi 1940-cı ildə dekabr ayının 6-da məktəbin böyük iclas zalında təntənəli şəkildə qeyd edilmişdir. Texnikum 15 ildə azərbaycanlı məktəbləri üçün 1228 müəllim hazırlamışdır. Azərbaycanın bir sıra tanınmış elm, mədəniyyət və ədəbiyyat xadimləri – akademik Budaq Budaqov, AMEA-nın müxbir üzvü Zərifə Budaqova, professorlar Nəzər Paşayev, Əli Fərəcov, Yusif Yusifov, Nəriman Əliyev, Fərhad Fərhadov, Həmid Əliyev, Cəfər Cəfərov, Süleyman Məmmədov, Qurban Bayramov, dosentlər Kövsər Tarverdiyeva, Zəhra Əliyeva, Əməkdar müəllimlər Tapdıq Novruzov, Şəfiqə Məhərrəmova, Bilas Şadlinski, ictimai xadimlər Həbib Həsənov, Məhərrəm Bayramov, Tapdıq Əmiraslanov, Əməkdar rəssam Cabbar Quliyev və başqaları bu təhsil ocağının yetirmələridir.

1948-ci ilin noyabr ayının ortalarına kimi İrəvanda fəaliyyət göstərən İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu təkcə tədris müəssisəsi kimi deyil, eyni zamanda, Qərbi Azərbaycanda ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin inkişafında, formalaşmasında və qorunmasında böyük rol oynamışdır. Milli təhsil tariximizin ən şanlı səhifələrindən birini təşkil edən İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu da deportasiyaya məruz qalaraq 1948-ci ilin noyabr ayında müəllim və tələbə kollektivi ilə birlikdə Azərbaycanın Xanlar rayonuna köçürülmüşdür.

Bu günlərdə milli təhsil tariximizin şərəfli səhifələrindən biri olan, İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin 100 illik yubileyi tamam olur. Bu maarif ocağının əlamətdar tarixinin qədirbilənliklə qeyd edilməsi həm təhsil tariximizin öyrənilməsi, həm də bu ziya ocağının şanlı tarixinin gənc nəsillərə çatdırılması baxımından önəmlidir.

***Könül HƏSƏNOVA,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent,***

***Cəlal ALLAHVERDİYEV,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Bakıda "Qərbi Azərbaycan mədəniyyəti" festivalı




**Dünən Azərbaycan Respublikası Gənclər Fondunun maliyyə dəstəyi, Qərbi Azərbaycan İcması, "İRƏLİ" İctimai Birliyi, Beynəlxalq Muğam Mərkəzi, Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin təşkilatçılığı ilə "Qərbi Azərbaycan mədəniyyəti" festivalı keçirilib.**





Aksiyada Qərbi Azərbaycana məxsus tarixi fotolar və rəsm kompozisiyaları, bu coğrafi əraziyə aid müxtəlif kulinariya nümunələri sərgilənib. Festival Qərbi Azərbaycanın tarixi, mədəniyyəti və coğrafiyasını gənclərə tanıtmaq, Azərbaycan həqiqətlərini doğru və ətraflı şəkildə çatdırmaq məqsədilə təşkil olunub. Festivalın açılışında Azərbaycan Dövlət Nəfəs Alətləri Orkestrinin ifasında Dövlət Himni və "Koroğlu" operasından "Uvertüra" səslənib, rəqs qrupları müxtəlif kompozisiyalar təqdim edib.

Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov festivalın əhəmiyyətinə toxunaraq bu cür layihələrin davamlı olmasını arzu edib.

Gənclər Fondunun direktoru Qədir Xəlilov isə bildirib ki, festival Qərbi Azərbaycanın tarixinə dönüş və bu tarixi xatırlama baxımından böyük əhəmiyyət kəsb edir və belə layihələr Qərbi Azərbaycana qayıdışa önəmli ictimai dəstək qazandırır.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələrindən ibarət xalq çalğı alətləri ansamblının müşayiəti ilə xanəndələr müxtəlif musiqilər və Qərbi Azərbaycana xas olan aşıq havaları ifa ediblər.

Tədbirdə çıxış edən rəsmilər gənclərin fəallığını yüksək qiymətləndirərək onları mükafatlandırıblar.

"İRƏLİ" İctimai Birliyinin sədri Şahin Rəhmanlı, Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının Gənclər Şurasının sədr müavini Kamal Cəfərov və Milli Məclisin deputatı Səbinə Xasayeva festivalda iştirak ediblər.

# İtirilmiş yurdun şirin nemətləri



**"Azərbaycan Milli Kulinariya Assosiasiyası" və "Xanədan" etno-restoranının birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycanın şirin inciləri" kitab-albomunun təqdimatı keçirilib.**

"20 Oktyabr – Dünya Kulinariya Günü"nə həsr edilən mərasimi giriş sözü ilə açan və təqdim olunan kitab haqqında ətraflı məlumat verən Azərbaycan Milli Kulinariya Assosiasiyasının və TÜRKSOY-un "Türk Dünyası Mətbəx Kültürü, Elmi və Sənəti Birliyi"nin prezidenti Tahir Əmiraslanov layihənin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə ərsəyə gəldiyini vurğulayıb: "Bu gün təqdim etdiyimiz "Qərbi Azərbaycanın şirin inciləri" kitabında tarixi bölgənin mətbəxi və şirniyyatları haqqında məlumat verilir. Yüzdən çox şirniyyatın hazırlanma qaydaları maraqlı şəkilləri ilə birgə bu kitabda əks olunub. "Qərbi Azərbaycanın şirin inciləri" adlı bu kitab qədim diyarda yüzilliklər boyu formalaşan və ermənilərin mənimsədikləri ənənəvi şirniyyatlarımızın reseptlərinin bərpasını və tarixi-etnoqrafik özəlliyini əhatə edir".

Ön sözün müəllifi Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva kitabın elmi, praktiki, mədəni önəmi ilə yanaşı, siyasi hədəfini də yüksək dəyərləndirib: "Bu gözəl kitabı ərsəyə gətirməyimizdə əsas məqsədimiz Azərbaycanımızın milli mətbəx mədəniyyətini, onun tarixini, unudulmuş kulinariya incilərini toplayaraq, gələcək nəsillərimizə və bütün dünyaya ərməğan etməkdir. Kitabı elə bu səbəbdən Azərbaycan və ingilis dillərində hazırlamışıq".

Albomda Qərbi Azərbaycan mətbəxinə aid bərpa edilmiş ənənəvi şirniyyat düsturları ilk dəfə təqdim olunur. Sucuq, alana, İrəvan kətəsi, saray paxlavası, adi paxlava, xurma südü, göyçə badamburası, cilov kimi şirniyyatlar bu mətbəxin inciləri olaraq oxuculara nəfis şəkildə təqdim edilib. Üz qabığında isə ermənilərin özününküləşdirməyə çalışdığı bu şirniyyatların rəsmləri yer alıb. Kitabın arxa üz qabığında isə "Kəvər" adlı toponimdən götürülmüş paxlavanın təsviri əks olunub.

Mərasimdə Naxçıvan Dövlət Universitetinin müəllim-tələbə heyəti və AMKA-nın Naxçıvan üzrə nümayəndəsi də iştirak edib. NDU nümayəndə heyətinin təqdim etdiyi süfrə, iştirakçıların milli geyimləri, Ordubad limonu, alana, sucuq, çöçə, ballı qayğanaq, bəy dəstanası və digər şirniyyatlar qonaqları görünüşü və dadı ilə valeh elədi. Bunlar milli mətbəximizin tədqiqində və təbliğində univetsitetin axtarışlarını nümayiş etdirdi.

AMKA 1993-cü ildən milli ordumuzla da əlaqələrini davam etdirir. Assosiasiyasının üzvləri dəfələrlə Müdafiə Nazirliyinin mükafatlarına layiq görülüb. Bu barədə danışan nazirliyin Maddi-Texniki Təminat Baş İdarəsinin məsləhətçisi, AMKA-nın fəxri üzvü, polkovnik-leytenant Vaqif Musayev arzu etdi ki, növbəti belə tədbir Qərbi Azərbaycanda keçirilsin.

Digər çıxışçılar da qeyd etdilər ki, albomda önəmli mövzulara toxunulub: unlu və qənnadı məmulatlarından başlayaraq, meyvə quruları, mürəbbələr, şəkərləmələr və içkilərə qədər müxtəlif şirniyyatlar ətraflı şəkildə təsvir olunub. Sonda 58 ədəbiyyat siyahısı və bu sahə ilə bağlı məlumat verən 63 respondent haqqında bilgi yer alır. Kitab həm tədqiqatçılar, həm də milli mətbəximizi öyrənmək istəyənlər üçün qiymətli qaynaqdır.

***Səhifəni hazırladı:***
***Namiq ƏHMƏDOV***
***XQ***

**İsa Həbibbəyli – 75**

# Sadəlikdən doğan böyüklük

**Zəngin pedaqoji və ictimai-siyasi fəaliyyəti ilə tanınan akademik İsa Həbibbəylinin çağdaş Azərbaycan elmi-ədəbi fikrinin inkişafında göstərdiyi xidmətlər təkcə Azərbaycanda deyil, respublikamızın hüdudlarından kənarda da ona böyük nüfuz və rəğbət qazandırmışdır. Akademik İsa Həbibbəylinin XIX əsrin sonu - XX əsrin əvvəlləri Azərbaycan ədəbi-ictimai-fəlsəfi fikir tarixi ilə bağlı apardığı geniş tədqiqatlar müasir dövrümüzdə aparılan və gələcək onilliklərdə aparılacaq çoxsaylı elmi araşdırmalar üçün etibarlı mənbə və istinad nöqtəsi hesab olunur. Görkəmli ədəbiyyatşünas alim, Əməkdar elm xadimi İsa Həbibbəyli müasir Azərbaycan elmi mühitində həm də təhsil qurucusu kimi tanınır. Bu mənada, İsa müəllimin həyatında və yaradıcılığında elm-məktəb-maarif məsələləri üzvi şəkildə birləşmiş aparıcı fəaliyyət xətti olaraq özünü göstərir.**



Hələ Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin rektoru olduğu illər ərzində İsa Həbibbəyli "Şərqin qapısı"ndakı bu ali təhsil müəssisəsini yalnız Azərbaycanda yox, qardaş Türkiyədə, eləcə də Türk dünyasında tanıtmağa nail olmuşdu. Onun 2000-ci ildə Azərbaycan, ingilis, fransız, rus və alman dillərində nəşr etdirdiyi "Naxçıvan Dövlət Universiteti" kitabı tələbəlikdən rektorluğa qədər şərəfli yol keçdiyi doğma universitetini dünyaya tanıtmaq və onu dünyanın qabaqcıl universitetləri sırasına çıxarmaq cəhdinin ifadəsi idi. Doğma universitetə bəslədiyi məhəbbətdən doğan bu cəhdlər zamanında öz bəhrəsini vermiş və İsa Həbibbəylinin rektor olduğu illərdə Naxçıvan Dövlət Universiteti dünyanın bir sıra mötəbər universitetləri ilə yaxından əməkdaşlıq etmişdir. 1999-cu ildə ümummilli lider Heydər Əliyevə Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin Fəxri doktoru diplomunu təqdim etmək şərəfi də məhz rektor İsa Həbibbəyliyə nəsib olub.

Həqiqi ziyalıya xas olan sadəlik və təvazökarlıq İsa müəllimin yaradıcılıq tərcümeyi-halında özünəməxsus yer tutur. Onun şəxsiyyəti və xarakteri haqqında yazanlar, danışanlar çox vaxt "Məmməd Cəfər faktoru"na xüsusi diqqət yetirirlər. Akademik Bəkir Nəbiyev yazırdı ki, "İsa Həbibbəyli akademik Məmməd Cəfər Cəfərovun məşhur "Ədəbiyyat nəzəriyyəsi" şöbəsinin yetirməsi və hamımızın müəllimi, mənəvi atamız olmuş Məmməd Cəfərin ən layiqli davamçısıdır".

Hələ 1970-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutu Naxçıvan filialının tələbəsi olarkən Naxçıvanda keçirilən "Elm günləri"ndə Azərbaycan ədəbiyyatşünaslığının mütəfəkkir patriarxı ilə tanış olmuş İsa Həbibbəyli onu özünə "əbədi müəllim" seçmiş və bu səmimi müəllim-tələbə münasibətləri uzun zaman davam edərək örnək səviyyəsinə yüksəlmişdir.

AMEA-nın müxbir üzvü Kamran Əliyev yazır ki, "akademik Məmməd Cəfər Cəfərov faktoru İsa Həbibbəylini təkcə elmi yaradıcılığa həvəsləndirməmiş, həm də onun sadəlik və müdrikliyi özündə cəmləşdirən şəxsiyyət kimi formalaşmasına nüfuz etmişdir... İsa Həbibbəylinin fikrincə, "sadəliyin nə qədər böyük mənəvi sərvət olduğunu akademik Məmməd Cəfər Cəfərova məxsus klassik sadəlik isbat etdi. Yalnız özünü dərk etmiş, şəxsiyyət etibarilə kamil olan insanlar bu qədər sadə ola bilərlər". Təkcə bu fikirlər İsa müəllimin sadəliyindən doğan böyüklüyünü xarakterizə etmək üçün kifayət edir.

İsa Həbibbəylinin elmi yaradıcılığı onun elmi baxışlarını və ictimai-siyasi görüşlərini tam dolğunluğu ilə əks etdirir. Onun "Xoş gördük, Mirzə Fətəli Axundzadə!", "Mirzə Fətəli Axundzadənin ədəbiyyat nəzəriyyəsi görüşləri və "nazimi-ustad" məsələsinə yenidən baxış" məqalələri Axundovşünaslıqda yeni bir mərhələ olmaqla yanaşı, həm də hörmətli İsa müəllimin mütərəqqi maarifpərvər dünyagörüşünü sərgiləyir.

"Üzeyir Hacıbəyov əfsanəsi" və "Rəşid bəy Əfəndiyevin iki məktubu"nda İsa müəllimin milli maarifçilik görüşləri öz əksini tapırsa, Rudolf İvanovun "Ölüm döyüşü"nün təhlilində mədəni maarif məsələləri daha geniş planda və bəşəri aspektdə diqqət mərkəzinə gətirilir. İsa Həbibbəylinin yaradıcılıq diapazonu kifayət qədər genişdir. Onun elmi yaradıcılığının ən mühüm hadisəsi isə, heç şübhəsiz, müəllifinə böyük şöhrət qazandırmış "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" mövzusunda apardığı fundamental və məhsuldar araşdırmadır. Mirzə Cəlil nəslinin davamçılarını, eləcə də dahi ədibin o zamana qədər məlum olmayan əsərlərini ölkə ictimaiyyətinə tanıtdıran tədqiqatçı bu məqsədlə dünyanın bir sıra ölkələrində tədqiqatlar aparmış, neçə-neçə arxivlərdə toz basmış səhifələri dönə-dönə vərəqləməli olmuş, "mühit və müasirlər" kimi həm sosial, həm də intellektual yönləri olan çox mürəkkəb bir problemin nümunəvi həllinin çox dəyərli bir təcrübəsini yaratmışdır. Təxminən on beş illik gərgin axtarışların nəticəsində meydana çıxan və 1996-cı ildə İsa Həbibbəyliyə "Filologiya elmləri doktoru" elmi dərəcəsini qazandıran "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" monoqrafiyası Azərbaycan ədəbiyyatşünaslığının klassik əsərləri sırasında şərəfli yer tutmaqdadır.

Belə əsərlər yalnız intellektual düşüncənin və zəhmətkeşliyin deyil, eyni zamanda, alimin gördüyü işə sevgisinin nəticəsində yaranır. Hər bir alimin fəaliyyəti onun intellektual qabiliyyətləri və zəhmətkeşliyi ilə yanaşı, həm də öz peşəsinə və gördüyü işə məhəbbəti ilə tamamlandıqda daha məhsuldar olur və beləcə, gələcək dövrlər üçün uzun müddət istinad olunacaq dəyərli elmi əsərlər doğulur. Bu mənada, İsa müəllimin yaradıcılığında düşüncə, fikir, istedad, zəhmətkeşlik və ən əsası, öz peşəsinə məhəbbət və sədaqət bir-birini tamamlayır və müəllifin fədakar tədqiqatçı, təvazökar alim və sadə insan obrazını yaradır.

Görkəmli akademik İsa Həbibbəylinin çoxşaxəli fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib və o, bir sıra digər təltiflərlə yanaşı, həm də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə birinci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib. İsa Həbibbəyli 10-dan çox xarici ölkə akademiyasının üzvü və bir sıra xarici ölkə universitetlərinin Fəxri doktorudur. İsa Həbibbəylinin bir sıra beynəlxalq təşkilatlar və xarici ölkələr tərəfindən beynəlxalq mükafatlara və fəxri adlara layiq görülməsi, orden və medallarla təltif olunması onun elmi yaradıcılığına beynəlxalq səviyyədə marağın göstəricisidir.

Bütün bunlar İsa Həbibbəylini fədakarlıqdan, sadəlikdən və təvazökarlıqdan uzaqlaşdıra bilməyib. Tanıyanların gözündə onu böyüdən və ucaldan da məhz budur – sadəlikdən doğan böyüklük.

Akademik İsa Həbibbəylinin əsl vətəndaşlıq mövqeyi onun doğulub boya-başa çatdığı diyara - Naxçıvana sonsuz övlad məhəbbətində və təəssübkeşliyində də özünü göstərir. Belə bir təəssübkeşlik yalnız o şəxslərdə olur ki, onlar bütün dünyanı doğulduqları diyar, doğulduqları diyarı isə bütün dünya qədər sevməyi bacarırlar. İsa müəllim doğma ocağına bəslədiyi təbii məhəbbəti həyatı boyu özü ilə bərabər böyüdərək Vətənə, dünyaya və bütün insanlığa qarşı sevgiyə çevirə bilən nadir şəxsiyyətlərdən biridir.

Bu yazımı Milli Məclisdə üzv olduğum son 15 il ərzində həmkarlarımız tərəfindən İsa müəllimə göstərilən böyük ehtiramın və rəğbətin şahidi kimi yazıram. Ona görə də əminəm ki, bu yazı təkcə mənim yox, onu yaxından tanıyan yüzlərlə, minlərlə insanın İsa müəllim haqqında düşüncələrini və fikirlərini ifadə edir.

Hörmətli İsa müəllimi 75 illik yubileyi münasibətilə təbrik edir, ona möhkəm cansağlığı, ictimai-siyasi və elmi yaradıcılıq fəaliyyətlərində davamlı uğurlar arzulayıram!

***Cavanşir FEYZİYEV,***
***Milli Məclisin deputatı, fəlsəfə doktoru***

# ATU-da Prezident təqaüdçüləri ilə görüş



**Prezident İlham Əliyevin oktyabrın 5-də imzaladığı sərəncamla 2024/25-ci tədris ilində ölkəmizin ali məktəblərinə daxil olan 102 tələbəyə Prezident təqaüdü təyin edilib. Onlardan 25-i Azərbaycan Tibb Universitetini seçib. Hər il 1-ci kursa yüksək ballarla daxil olan və Prezident təqaüdünə layiq görülən tələbələrlə görüş bu ali məktəbdə artlq ənənəyə çevrilib. Bu dəfə də ATU-nun rektoru Gəray Gəraybəyli Prezident təqaüdçüləri ilə görüşüb, onları təbrik edib:**

– İlk növbədə, hər birinizi Tibb Universiteti ailəsinə daxil olmağınız münasibəti ilə təbrik edirəm. Qarşıda 6 il tələbəlik həyatınız olacaq, sonra bəziləriniz rezidentura və digər pillələrdə təhsil alacaq, hətta sıralarınızdan gələcək müəllimlərimiz də yetişəcək. Bir sözlə, siz uzun müddət öz həyat və fəaliyyətinizi ATU ilə bağlamış olursunuz. Həm buna görə, həm də yüksək bal toplayaraq böyük uğura imza atmağınız, Prezident təqaüdçüsü adını qazanmağınız münasibətilə sizi təbrik edirəm.

Rektor, Prezident təqaüdçülərinin sayına görə tibb universitetinin ölkə ali məktəbləri arasında həmişə ön yerlərdə olduğunu diqqətə çatdırıb. Bildirib ki, 25 nəfərdən 24-ü müalicə-profilaktika fakültəsini, 1 nəfər isə stomatologiya fakültəsini seçib. Dərslərin artıq yeni proqramla aparıldığını vurğulayan rektor, tələbələrə tövsiyələr verib:

– Tibb Universitetində fənlər, dərsliklər çoxdur. Üstəlik də, proqramlar ilbəil təkmilləşir və dəyişir. Onları mənimsəmək xüsusi bir zəhmət və istedad tələb edir. Arzu edirəm ki, Prezident təqaüdçüsü adını qoruyub saxlayasınız.

Görüşdə Tədris Departamentinin rəhbəri, dosent Kamandar Yaqubov, I müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov, II müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli, stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva iştirak ediblər.

Görüşün sonunda tələbələrə hədiyyələr təqdim olunub.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

**Təhsildən elmi axtarışa**

# Azərbaycan tələbələrinin "TEKNOFEST" qələbəsi

*Bakılı gənclərə mükafatı Türkiyə Prezidenti təqdim edib*

**Yeni tədris ili başlayandan Bakı Ali Neft Məktəbinin uğurlarının sorağı nəinki ölkəmizdən, qonşu dövlətlərdən də eşidilir. Prezident təqaüdünə layiq görülən 102 nəfərdən 33-ü bu universitetə daxil olanlardır. Bir sıra layihələrdə yer qazanmış BANM tələbələri barəsində də qəzetimizdə məlumat vermişdik. Növbəti uğuru bu təhsil ocağının tələbələri qardaş Türkiyədə qazanıblar.**



Ali məktəbin "BHOSWARE" və "Dərbəndqala - BHOS" komandaları "TEKNOFEST-2024"də I və II yerə çıxıblar. 1-ci yerin qalib komandasını Adana şəhərində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mükafatlandırıb. "BHOSWARE" komandasına 150 min, "Dərbəndqala - BHOS" komandasına isə 50 min lirə pul mükafatı təqdim edilib.

"BHOSWARE" komandasının elmi rəhbəri ali təhsil ocağının informasiya texnologiyaları kafedrasının müəllimi Nihat Əlili, üzvləri isə informasiya təhlükəsizliyi ixtisası üzrə V kurs tələbələri Əli Məhərrəmli, Məhəmmədcan Məhəmmədcanov, Sahib Hümbətzadə və Oqtay Əhmədovdur. Uğur qazanmağın əziyyətli yolu, qələbə sevinci barəsində komandaların elmi rəhbərləri və üzvləri ilə həmsöhbət olduq.

**"BHOSWARE" komandasının elmi rəhbəri Nihat Əlili dedi ki, belə yarışlara ciddi hazırlaşmadan yaxşı nəticə əldə etmək çətindir:**

– Əvvəlcə iki mərhələdən ibarət kibertəhlükəsizlik üzrə müəyyən ssenari əsasında qurulmuş tapşırıqlardan ibarət yarış təşkil edildi. Seçim mərhələsində 200-dən çox komandadan 10-u uğur qazandı. Ölkəmizi və BANM-i ən gözəl formada təmsil etdik. Antalyada yarış 10 saatdan çox çəkdi. Şübhəsiz ki, həyəcan da var idi. Finala çıxan komandaların bəziləri əvvəlki illərdə belə yarışların qalibləri olmuşdular, təcrübələri var idi. Qısa müddətdə hazırlaşmağımıza baxmayaraq, rəqibləri üstələyib 1-ci olduq. Hazırlığımızın çox hissəsi yay tətilinə təsadüf etdiyi üçün bir sıra çətinliyimiz var idi. Belə bir yarışa ilk dəfə hazırlaşsaq da, birincilik qazandıq. Layihə üzərində çox çalışmışdıq. Əziyyətimiz yerdə qalmadı. Ən önəmlisi isə mükafatı Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın özündən qəbul etmək idi. Bu bizə ikiqat xoş hisslər yaşatdı.

"Mükafat olaraq verilən pulu hara xərcləyəcəksiniz?" sualıma cavab olaraq Nihat müəllim dedi ki, ona yetirmələrinin qələbə qazanması lazım idi, pulu isə tələbələr öz aralarında bölüşəcəklər.

Nihat Əlilinin elmi rəhbəri olduğu komandanın adının yarışın mövzusu ilə universitetin adının birləşməsindən əmələ gəldiyini söylədi. O bildirdi ki, ad olduqca önəm daşıyır. "BHOSWARE", yəni Baku Higher Oil School (BHOS ), "WARE" isə zərərli proqram təminatı sözü olan "malware"dən götürülüb.

Komandanın elmi rəhbəri qarşıdakı planlar barədə dedi ki, növbəti ildə "TEKNOFEST"ə daha çox komanda ilə hazırlaşıb ilk 3 yeri qazanmaq istəyirlər: "Bundan əlavə, universitetin aşağı kurs tələbələri ilə qazanılan təcrübəni bölüşüb belə yarışlar üçün komandalar formalaşdırmaq istəyirik".

Nihat müəllim Türkiyədə onları mehriban qarşılamalarından da söz açaraq bildirdi ki, qardaş ölkə onlara Azərbaycan qədər doğma olub.

Komandanın üzvü Əli Məhərrəmli qələbə qazanmağın onlara xoş hisslər bəxş etdiyini dedi: "Aylarla gecə-gündüz hazırlıqlar, əziyyət və fədakarlıqlarımızın belə böyük bir nəticə verməsi, bütün komanda üzvlərimiz üçün qürur mənbəyi oldu. Bu uğur bizi daha da irəliyə aparmağa və yeniliklər yaratmağa ruhlandırır".

Yarışmada həyəcan və coşqunun yüksək səviyyədə olduğunu deyən Məhəmmədcan Məhəmmədcanov böyük bir yarışda təmsil olunmağın ciddi məsuliyyət tələb etdiyini bildirdi. O əlavə etdi ki, qələbə qazanmağın sevinci bütün çətinlikləri unutdurdu. Sahib Hümbətzadə yarış atmosferinin dinamik və enerjili olmasından danışaraq dedi ki, komandanın bütün üzvlərinin hədəfə yönəlməsi və bir-birini dəstəkləməsi uğurun əsas sirri idi. Müxtəlif ölkələrdən olan komandalarla bir araya gəlmək və texnologiyanın son nailiyyətlərini paylaşmaq onlara böyük təcrübə qazandırdı. Oqtay Əhmədov da qeyd etdi ki, elə yarışlar onları daha çox öyrənməyə və inkişaf etməyə yönəldir.

*

"Dərbəndqala - BHOS" komandasının elmi rəhbəri BANM-ın innovasiya və tədqiqatlar mərkəzinin böyük mühəndisi, biznesin idarə edilməsi kafedrasının müəllimi Emilya Əhmədova, üzvləri isə proseslərin avtomatlaşdırılması ixtisası üzrə 4-cü kurs tələbələri Zahid Abdullayev, Rəna İsayevə, Rəvan Xıdırov və biznesin idarə edilməsi ixtisası üzrə 4-cü kurs tələbəsi Murad Əliyevdir.

**Emilya Əhmədova XQ-yə açıqlamasında dedi ki, yarışmaya 7 ay qalmış məşqlərə başlayıblar:**

– "TEKNOFEST"ə qoşulmaq təklifi tələbələrdən gəldi. Onlar məni özlərinə mentor seçdilər. Beləcə 4 tələbə ilə çıxdıq. Bizə, ilk növbədə, komandamızı qalib edə biləcək ideya lazım idi. Bundan sonra onlar mövzu üzərində işləyərək onu genişləndirmək məqsədilə "software" "hardware" tərəflərini hazırladılar. İdeyamızın qayəsi məktəbəqədər və 8-ci sinifə qədər uşaqlar arasında bullinqin, yəni qısnamaların qarşısının alınması məqsədilə tətbiqin yaradılması idi. Belə ki, şagird bəzək əşyası olaraq, qoluna qolbaq taxır. Bu qolbaq nazik və istənilən rəngdə ola bilər. Bunu digər qolbaqlardan fərqləndirən cəhət onun içərisində sensorların olmasıdır.

Bundan əlavə, qolbaq ürək ritmlərini, qan təzyiqini düzgün ölçə və digər funksiyaları da yerinə yetirə bilir. "Ağıllı qolbaq" tətbiqə bağlanılır və həmin proqram valideynlərin, uşağa nəzarət edən şəxslərin telefonuna yüklənilir. Uşaq bullinqə məruz qalarsa və sağlamlığı barədə mənfi məlumatlar olduğu halda tətbiqə siqnallar ötürülür. Adi qaydada isə tətbiqə daxil olaraq azyaşlı barədə ümumi vəziyyətlə tanış olmaq olur. Biz hətta bullinq zamanı qurğunun işə düşərək səsyazma funksiyasını aktivləşdirməyin üzərində də işləyirik. Sadəcə, ölkə qanunvericiliyində səsin yazılması qadağan olunduğu üçün proqram analiz edib ümumi təhlükəni valideynə çatdıra bilər. Biz bunu ağıllı saat və ya başqa vasitə kimi də düşünə bilərdik. Lakin həmin vasitələr uşaqların fikirlərini yayındıra, dərsə mane ola bilər. Amma nazik qolbaq elə bir maneə yarada bilməz.

Çətin olduğu qədər də maraqlı təcrübə oldu. Əvvəlcə layihədə müxtəlif mərhələləri keçmək üçün hesabatlar göndərdik. Türkiyədəki yarışa müxtəlif ölkələrdən fərqli kateqoriyalar üzrə qatılan minlərlə komanda var idi. Ümumilikdə, qatıldığımız kateqoriya üzrə 28 komandanın keçməsi nəzərdə tutulmuşdu. Biz 100 baldan 97-ni toplayaraq ikinci yeri tutduq. "Dərbəndqala - BHOS" komandası iştirak etdiyimiz kateqoriya üzrə finala vəsiqə qazanmış yeganə xarici komanda oldu.

Final mərhələsi Antalyada türk dilində keçirildi. Yüksək səviyyədə təşkil edilmiş mükafatlandırılma mərasimində bizim komandaya ödülü Səlcuq Bayraktar təqdim etdi. Biz qazandığımız vəsaiti layihəmizin inkişafına yönəldəcəyik. Yeni funksiyalar əlavə etmək istəyirik. Yerli və əcnəbi investorlar cəlb etmək, xarici bazara çıxmaq məqsədimiz var.

Qalib komandanın kapitanı Zahid Abdullayev dedi ki, uğurun arxasında gərgin əmək və əzmkarlıq dayanır: "Layihəmiz münsiflər heyətində də böyük maraq yaratmışdı. Biz uşaqların təhlükəsizliyi baxımından önəmli konsepsiya ortaya qoymuşduq. Onlar ideyamızın vacibliyini nəzərə alıb bizi də qalib elan etdilər. Azərbaycanı layiqincə təmsil etmək, ölkəmizin adına qalibiyyət yazmaq bizim üçün xoşbəxtlikdir. Bu uğur başlanğıcdır, ideyamızı genişləndirmək planımız var".

"Dərbəndqala - BHOS" komandasının üzvü Rəna İsayeva bildirdi ki, yaddaqalan və maraqlı yarış oldu. Bizim üçün böyük təcrübə idi. Qardaş ölkədən qalib kimi ayrılmaq Murad Əliyevdə də xoş təəssürat yaradıb: "Layihə vasitəsilə çatdırmaq istədiyimiz əsas mesajlardan biri informasiya texnologiyalarının həyatın müxtəlif sahələrinə tətbiqini əyani şəkildə göstərmək idi. Uğurumuz digər həmyaşıdlarımızda da həvəs yaradacaq".

Tələbələrimizin Türkiyə uğurları ölkəmizdə sevinclə qarşılandı. Onlara uğurlarının davamlı olmasını diləyirik.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Təqvimin qara səhifələri

# Gəncə: oktyabrın 5 məşhər günü

**2020-ci ilin oktyabrı Gəncənin və gəncəlilərin yaddaşında ağ-qara filmlər kimi qalacaq. Bu qədim şəhərin Ermənistan tərəfindən 5 dəfə ayrı-ayrı günlərdə bombalanması, yaşayış binalarının və çoxlu sosial obyektlərin yerlə-yeksan edilməsi, 26 nəfər dinc sakinin – körpə uşaqların, qocaların və qadınların dağıntılar altında qalaraq həlak olması, yüzlərlə sakinin yaralanması, şikəst olması heç vaxt unudulmayacaq, heç vaxt!**



..İlk hücum oktyabrın 4-də baş verdi və 1 mülki şəxsin – Əliyev Tunar Qoşqar oğlunun şəhid olması (qəzetimizin ötən nömrələrinin birində bu hücum haqqında ətraflı məlumat vermişik - HQ), 30-dan çox sakinin yaralanması ilə nəticələndi. Qeyd edək ki, bu raket hücumu müharibənin getdiyi Qarabağ bölgəsindən onlarla kilometr uzaqda idi.

İkinci raket hücumu isə oktyabrın 5-də baş verdi. Hücum nəticəsində 3 mülki şəxs yaralandı. Üç gün sonra, oktyabrın 8-də üçüncü raket hücumu oldu. Xoşbəxtlikdən həlak olan və yaralanan olmadı. Dördüncü raket hücumu isə oktyabrın 11-də baş verdi və nəticədə 10 mülki şəxs şəhid oldu, 40-dan çox insan yaralandı. Bu hücum aşağıda söhbət açacağımız atəşkəs razılaşmasından cəmi bir gün sonra baş verdi və atəşkəs erməni tərəfindən pozuldu. Ən nəhayət, mülki şəxsləri hədəf alan beşinci raket hücumu oktyabrın 17-də baş verdi. Həmin gecə hamısı mülki şəxs olmaqla 15 nəfər şəhid oldu, 55 nəfər isə yaralandı. Hücumlar zamanı şəhərin yaşayış binalarına, digər sosial obyektlərə, avtomobillərə ciddi ziyan dəydi.

Mülki şəxslərə raket hücumlarında həyatını itirənlər və yaralananlar arasında azyaşlılar da oldu. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bu hücumu haqlı olaraq "Azərbaycan xalqına qarşı Xocalı soyqırımından bəri şahidi olduğumuz bir soyqırım aktı" adlandırdı.

Ortada olan sübutlara baxmayaraq, şəhəri əsasən gecələr atəşə tutan və bu zaman daha çox insanın həlak olmasına çalışan Ermənistan yarasaları hücumların onlar tərəfindən həyata keçirilməsini inkar edirdilər.

Oktyabrın 9-da Rusiya da daxil olmaqla xarici işlər nazirləri arasında Dağlıq Qarabağ məsələsi ilə bağlı üçtərəfli müzakirələr başlandı və danışıqların nəticələrinə əsasən birgə bəyanat elan olundu. Razılığa gəlindi ki, oktyabrın 10-dan atəşkəs elan olunur.

Amma... atəşkəsə heç bir gün də dözmədilər...

Bu hadisədən sonra bədnam qonşuların işğalçı silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, habelə 10 oktyabr 2020-ci il tarixdə saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutdu. O zaman səhər saat 7-də Baş Prokurorluğun yaydığı açıqlamada qeyd olunurdu ki, düşmənin silahlı qüvvələrinin 11.10.2020-ci il tarixdə gecə saat 2 radələrində cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binasını raket atəşinə tutması nəticəsində günahsız insanlar həlak olub, xeyli adam yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərə külli miqdarda ziyan dəyib. Açıqlamada Ermənistan silahlı qüvvələrinin "Toçka-U" raket sistemindən istifadə edərək Gəncədə insanların sıx yaşadığı məntəqəni atəşə tutduğu bildirilirdi.



Gəncəni iki-üç gündən bir bombalayan erməni tərəfinin iddialarına görə raket atəşləri yalnız hərbi obyektlərə qarşı yönəlmişdi. Ermənistanın hərbi rəhbərliyi Gəncədə 10 hərbi obyektin olduğunu bildirirdi. Halbuki uydurulan hərbi obyektlərin hansısa birinin raket hücumlarında ziyan görməsinə dair bir dənə də sübut yoxdur. Olsaydı indi bütün dünyaya car çəkmişdilər.

Biz dəfələrlə bildirirdik ki, Gəncədə, ümumiyyətlə, hərbi təyinatlı binalar yoxdur. O günlər hadisə yerində olan rus jurnalisti və hava limanının direktoru "Covid-19" pandemiyasına görə martdan bəri işləməyən hava limanının vurulması xəbərinin yalan olduğunu bildirdilər və bu barədə mətbuatda ifşaedici yazılar dərc olundu.

Gecə vaxtı Berd rayonunun ərazisindən "Skad" ballistik raketin buraxılması insanlar yaşayan binaya tuş gəlmişdi və onu tamamilə dağıtmışdı. Heç 5 dəqiqə keçməmiş, az qala, bütün Gəncə ora axışmışdı. Burada bir məqamı xüsusi vurğulamaq istəyirəm ki, həmin gecə və ondan əvvəlki, yaxud sonrakı günlərdə şəhərin icra strukturları saat mexanizmi kimi işləyirdilər. Evləri dağıdılmış sakinlər dərhal yaşayış yerləri ilə təmin olunurdular, pal-paltar verilirdi, yaralananlara hərtərəfli yardın göstərilirdi, həlak olanlar elliklə dəfn olunurdular. Bir sözlə, həm güc strukturları, həm də fövqəladə hallar, mülki müdafiə xidmətinin əməkdaşları, ən başlıcası isə, əhalinin özü gecə-gündüz həmin ərazilərdə idilər...

Yuxarıda xatırlanan hücum nəticəsində şəhərdəki infrastruktura ciddi ziyan dəymişdi. Ümumilikdə, 31 mənzil tamamilə dağıdılmış, hadisə yerində və onun yaxınlığındakı obyektlər və avtomobillər sıradan çıxmışdı. Hücumdan, ümumilikdə, 205 nəfərin yaşadığı 95 mənzil ziyan çəkmişdi. Ermənistan isə hücuma görə məsuliyyəti öz üzərindən atırdı.

17 oktyabrda, təxminən, yerli vaxtla saat 1-də də eyni faşist hərəkəti təkrarlandı. Erməni Silahlı Qüvvələri "Skad" ballistik raketlərini yenə işə saldılar, Gəncəni atəşə tutdular. Şəhərin müxtəlif yerlərində 3 güclü partlayış səsi eşidildi. "RİA Novosti" agentliyinin müxbiri yazırdı ki, ballistik raketlər əhalinin sıx yaşadığı əraziyə düşüb və bu zaman xeyli sayda yaşayış evi dağılmışdır, dağıntılar altında insanlar qalmışdır. Rusiyanın "Dojd" kanalının müxbiri Vasili Polonski isə raketlərin düşdüyü yerlərin yaxınlığında heç bir hərbi, o cümlədən hansısa digər vacib obyektlərin olmadığını bildirmişdi. Həmin hücum nəticəsində 15 nəfər həlak olmuş, 55 nəfər yaralanmışdı.

Həmin günlər döyüşlərin getdiyi Qarabağ bölgəsindən şad xəbərlər alırdıq. Bu, gəncəliləri hədsiz ruhlandırırdı. Onlar qələbənin heç də uzaqda olmadığına inanırdılar. Oktyabrın 17-də Gəncəyə sonuncu raket hücumuna cavab olaraq Kəlbəcər bölgəsində yerləşən 3 R-17 Elbrus taktiki raketinin məhv edilməsi xəbəri isə Gəncədə böyük coşqu ilə qarşılanmışdı. İddiaya görə, bu raketlər Azərbaycanın Gəncə və Mingəçevir şəhərlərini hədəfə almışdı. Ermənistan tərəfi ölkə daxilindəki bölgələrin vurulmasını qəbul etsə də, Azərbaycana edilən hücumları inkar edirdi. Yeri gəlmişkən, ondan 3 gün qabaq Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev bildirmişdi ki, Azərbaycan qüvvələri 4-cü hücuma cavab olaraq Qarabağımızın Füzuli şəhərini və onun bir çox kəndini işğaldan azad etmişdir.

...O vaxtdan 4 il keçir. Gəncə bu gün yenə əvvəlki sakit, firavan həyatını yaşayır. Sakinlər 2020-ci ilin oktyabrını dəyanətlə qarşılayıb yola saldılar. Qorxmazlıqları, vətənpərvərlikləri, doğma şəhərə bağlılıqları, Prezidentlərinə sədaqətliliyi ilə yadda qaldılar. Akademik Fuad Əliyev yaxşı deyir ki, gəncəlilər belə sınaqlardan çox çıxıblar, heç vaxt da sınmayıblar. Çünki onlar daim haqq-ədalətə sığınıblar, xalqının gücünə inanıblar, cənab Prezidentimizin ətrafında sıx birləşiblər.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

**Ermənilər qürrələnirlər ki, fransızlarla tarixi əlaqələri Xaç yürüşləri dövrünə gedib çıxır. Hətta əlaqələrin daha da "qədimliyindən" dəm vuranlar da var. Amma müasir erməni-fransız əlaqələrinin əsası Fransada yuva salmış böyük və nüfuzlu erməni icmasıdır. Buna görə də, Fransa siyasətçiləri erməni səslərini qazanmaq üçün reallıqdan uzaq bəyanatlar səsləndirirlər. Fransa Milli Assambleyasının Fransa–Ermənistan parlament dostluq qrupunun rəhbəri Ann-Lorens Petel də fransız ənənəsinə uyaraq Azərbaycanın ünvanına böhtan atmaqla məşğuldur.**

# Fransız deputatın qərəz sancıları



Ann-Lorens Petel özünün "Facebook" səhifəsində yenə erməniləri sevindirib. Nə çərənlədiyini tam yazmağa ehtiyac yoxdur, amma onu qeyd etməyə dəyər ki, hər sətirindən Azərbaycana qarşı kin-küdurət hiss olunan fikirlərinin izharında Petel yalan nişangahında "onluğa" vurub. Guya, 44 günlük müharibədə qadağan olunmuş silahlardan istifadə olunub, separatçılar mühasirədə qalıb və digər bu kimi sicilləmələrlə fransız deputat siyasi sayıqlamaları ilə erməni diasporuna xoş gəlməyə çalışıb. İndi də COP29-u hədəfə alıb, belə böyük beynəlxalq tədbirin Azərbaycanda keçirilməsini həzm edə bilmir, Bakının uğuruna kölgə salmağa can atır.

Əslində, bu, Petelin ilk belə qeyri-obyektiv mövqeyinin nümayişi deyil. Cari ilin mart ayında erməni KİV-ə müsahibəsində də o, erməni "məhəbbətini" ortaya qoyub. Həmin müsahibədə də Petel Azərbaycanın ünvanına reallıqdan uzaq ifadələrə yer verib, Ermənistanı regionun "demokratik" ölkəsi adlandırıb. Bununla yanaşı, İrəvanı su yoluna çevirən fransız deputat bunu da etiraf edib ki, incə diplomatik oyunun getdiyi zamanda Fransanın istənilən dəstək bəyanatı gərgin vəziyyət yaradır. "Ermənistan Avropaya yaxınlaşmaq, Rusiyadan uzaqlaşmaq istəyini mütləq nümayiş etdirir", – deməklə Petel Fransanın erməni "sevgisinin" arxasında hansı niyyətin dayandığını gizlətməyib.

İrəvan Moskvadan bərk incidiyini hər fürsətdə büruzə verir və bu, şübhəsiz ki, Fransanı ruhlandırır. Buna görə də, fransız deputat deyib ki, Ermənistan müxtəlif tərəfdaşlar, o cümlədən müdafiə sahəsində tərəfdaşlar axtarır: "Realist olmaq lazımdır, Rusiya artıq Ermənistanın obyektiv müttəfiqi deyil. O, Dağlıq Qarabağ münaqişəsi zamanı öz rolunu oynamadı və bu, Ermənistanı Fransa kimi başqa, daha etibarlı tərəfdaşlar axtarmağa vadar etdi". Əlbəttə, Petel də gözəl bilir ki, Rusiya Azərbaycanın ərazisi hesab etdiyi Qarabağ zonasında aparılan əməliyyatlarda Ermənistana hər hansı bir hərbi yardım göstərmək hüququna malik deyildi. Amma bu fakt fransız deputatı narahat etmir və İrəvanın dəyirmanına su tökür. Yəni Petel də rəsmi Parisin Cənubi Qafqaz regionuna yönəlik siyasi dəst-xəttinə sadiq qalır, regionda Rusiyanı əvəz edəcək ölkənin məhz Fransanın olmasının səbəbini postmüharibə dövrünün reallıqları ilə əlaqələndirməyə çalışır.

Amma ötən müddət ərzində İrəvan Kremldən uzaqlaşmaq üçün real addım atmağa tələsmir. Ermənistan KTMT və AİI-nin üzvü olaraq qalır. Ən əsası isə, İrəvanın Moskvadan iqtisadi asılılığı aradan qalxmayıb. Ermənistan Rusiyadan neft, qaz və digər strateji məhsulları daxili qiymətlərlə alır. Nəticədə büdcəsini doldurur və buna görə də, Petelkimilər də gözəl anlayırlar ki, Paris İrəvanın Rusiya ilə əlaqələrini kəsməsi nəticəsində yaranacaq böyük iqtisadi itkilərini ödəyə bilməyəcək. Fransızlar da bilirlər ki, Rusiya coğrafi baxımdan Ermənistana yaxındır və burada təkcə təhlükəsizliyə deyil, həm də iqtisadiyyata əhəmiyyətli təsir göstərməkdə davam edir.

Bununla belə, Fransa və Qərbin digər ermənipərəst ölkələri Ermənistanı şirin vədlərlə öz tərəflərinə cəlb etmək ideyasından əl çəkmirlər. Xüsusilə də Paris bu məsələdə canfəşanlıq edir, "qardaş erməni xalqını xilas etməyə tələsir". Sanki ermənilər ciddi təhlükədədirlər və xüsusi missiya daşıyan fransızlar da "din qardaşlarına kömək etməlidirlər". Burada istər-istəməz 1095-ci ildə Roma papası II Urbanın Fransanın Klermon şəhərindəki alovlu nitqi yada düşür. Məhz katolik kilsənin rəhbərinin bir çıxışı yüz illərin düşmənçiliyinin əsasını qoymuşdu. Xatırladaq ki, II Urban Qüdsü "kafirlərdən" təmizləmək, xristianların müqəddəs ziyarətgahlarını qorumaq üçün hamını yürüş etməyə çağırmışdı. Bununla da on minlərlə insanın ölməsinə, şəhərlərin xarabalığa çevrilməsinə və iki böyük din nümayəndələri arasında gərgin münasibətlərin yaranmasına səbəb olan çox mənfi prosesin əsasını qoymuşdu.

İndi fransızlar Cənubi Qafqaza soxulmağa çalışırlar. Paris hər fürsətdən istifadə edərək Azərbaycanı beynəlxalq ictimaiyyətin gözündən salmağa cəhd göstərir. Ermənistanı "qurban", Azərbaycanı isə "təcavüzkar" göstərməyə can atmaqla fransız siyasətçilər sanki tarixi "missiyalarını" yerinə yetirdiklərini düşünürlər. Bəlkə buna görədir ki, ermənilər Azərbaycan ilə şərti sərhəddə üzərində xaç işarəsi olan bayraq qaldırırlar? Amma fakt faktlığında qalır–istənilən şər-böhtan, beynəlxalq miqyasda aparılan qarayaxma kampaniyaları Bakının güclü mövqelərini sarsıda bilməz. Çünki ədalət və haqq Azərbaycanın tərəfindədir!

***S.ELAY***
***XQ***

# Qəzzada humanitar böhran

*Bununla əlaqədar BMT TŞ-nin təcili iclası çağırılıb*



**Əlcəzair, Böyük Britaniya və Fransa Qəzza zolağında humanitar vəziyyəti müzakirə etmək üçün bu gün BMT Təhlükəsizlik Şurasının təcili iclasını çağırıb.**

Böyük Britaniya Xarici İşlər Nazirliyinin məlumatında deyilir: "Qəzzanın şimal hissəsində humanitar vəziyyət dəhşət doğurur. BMT-nin məlumatına görə, son iki həftə ərzində ora, demək olar ki, ərzaq yardımı daxil olmayıb. İsrail mülki şəxslərin müdafiəsini təmin etməli və humanitar yardımın çatdırılması üçün yolları açmalıdır. Biz bu problemi həll etmək üçün fransız və əlcəzairli həmkarlarımızla birlikdə bu gün BMT Təhlükəsizlik Şurasının təcili iclasını çağırmışıq".

Onlar humanitar yüklərin çatdırılmasını təmin etmək üçün dərhal atəşkəsə çağırıblar.

***XQ***

Maraq dünyamız

# Avrasiyanın ən uzun çayı da qlobal istiləşməyə dözmür



**Başlanğıcını Tibet dağlarının dəniz səviyyəsindən 6 min 500 metr hündürlükdə olan qarlı zirvələrindən götürən bu çay bir neçə cəhətdən maraq doğurur. Əvvəla, o, materikin ən uzun çayıdır. İkinci mənbəyi də, mənsəbi də eyni ölkənin ərazisindədir. Üçüncü, ötən əsrin əvvəllərinədək Yantsızının adı "Mavi çay" kimi (ehtimallara görə, bu ad Çində Sarı çayın da olduğuna görədir) göstərilib. Dördüncü, o, dünyanın ən uzun (Amazon və Konqo çaylarından sonra) üçüncü çayıdır. Beşinci, Asiyanın daha bir böyük çayı – Mekonqla yanaşı, çinlilərin dediyi kimi, çiyin-çiyinə axır. Uzun illər və əsrlər boyu bolsululuğuna görə də fərqlənib. Amma indi qlobal istiləşmə və iqlim dəyişmələri onu da xeyli "sıxır".**

Hələ 2019-cu uldə alimlər deyirdilər ki, Yantsızının suyu azalır. İndi isə demirlər, sadəcə, həyəcan siqnalı çalırlar. Alimlərin fikrincə, orada suyun azalmasına çay axarının uzunluğu da təsir edir. Belə ki, Çin kimi inkişaf etmiş sənaye və kənd təsərrüfatı ölkəsinin ərazisi ilə 6300 kilometr axıb gedən çayın suyunun azalması o qədər də qeyri-adi deyil. Ancaq bu arqumentə opponentlik edən mütəxəssislər deyirlər ki, Çin son dörd-beş ilin inkişaf etmiş sənaye və kənd təsərrüfatı ölkəsi deyil ki. Yüz illərdir Çin sənayesi də, kənd təsərrüfatı da Yantsızının suyundan bəhrələnir. Amma indi vəziyyət tamam başqadır.

yangtze.by/reka-yanczy/ yazır ki, bu çay ölkə boyu çoxsaylı dağlardan, dərələrdən, hətta böyük göllərdən (Yantsızı Çinin beş şirinsulu gölündən dördü ilə "görüşüb" sonra yoluna davam edir) keçərək , ucsuz-bucaqsız çöllərlə axaraq, Şanxayda Sakit okeanın Şərqi Çin dənizinə tökülür. Yəni Yantsızı Çinin təbiəti, iqtisadiyyatı, sənaye və kənd təsərrüfatı üçün olduqca əhəmiyyətli mənbədir. Odur ki, alimlərin həyəcan siqnalı çalması tamamilə təbiidir.

***İttifaq MİRZƏBƏYLİ***


## "Billur elektroniks" ASC səhmdarlarının nəzərinə!

"Billur elektroniks" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 5 dekabr 2024-cü il saat 12.00-da keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1** Cəmiyyətin 2023-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı.

**2** Əmlak məsələləri.

**3** Digər məsələlər.

Əlaqə telefonu- (022)264-07-76.

Ünvan- Gəncə şəhəri, Şəmkir şossesi 1.

***Müşahidə şurası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 228 (30632) 17 oktyabr 2024-cü il, cümə axşamı

## İdman xəbərləri

## MOK-da görüş

**Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında Namibiya, Toqo, Burkina Faso, Komor adaları, Çad, Lesoto, Nigeriya, Madaqaskar və Esvatini Milli Olimpiya komitələrinin rəsmiləri ilə görüş keçirilib.**



Milli Olimpiya Komitəsinin mətbuat xidmətindən "Xalq qəzeti"nə verilən məlumata görə, MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə qonaqları salamlayaraq belə böyük nümayəndə heyəti ilə dəyirmi masa ətrafında görüşdən məmnunluğunu bildirib.

Qurumun baş katibi Azər Əliyev çıxış edərək Azərbaycanda idmanın və Olimpiya Hərəkatının inkişafından, dövlətimiz tərəfindən bu sahəyə göstərilən diqqət və qayğıdan söz açıb.

Beynəlxalq Proqramlar idarəsinin müdiri Anar Bağırov isə qonaqlara Azərbaycan idmançılarının qazandığı mükafatlar barədə məlumat verib.

Qeyd olunub ki, atletlərimiz Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında, Avropa Oyunlarında, İslam Həmrəyliyi Oyunları və digər nüfuzlu beynəlxalq yarışlarda yüksək nailiyyətlər qazanıblar. Bunun nəticəsidir ki, ölkəmiz tarixdə ilk dəfə təşkil olunan Avropa Oyunlarına və IV İslam Həmrəyliyi Oyunlarına uğurla evsahibliyi edib.

Komor adalarının Millli Olimpiya Komitəsinin baş katibi Hilmi Abud Said, Toqo Milli Olimpiya Komitəsinin prezidenti Deladem Akpaki, Namibiya Milli Olimpiya Komitəsinin prezidenti Abner Axel Xoagub bildiriblər ki, ölkəmizə səfər zamanı burada olan idman infrastrukturu Afrika qitəsindən olan rəsmilərin diqqətindən yayınmayıb. Onlar vurğulayıblar ki, Azərbaycan idmançılarının Olimpiya Oyunlarındakı yüksək nailiyyətləri barədə kifayət qədər məlumatları var və əldə olunan medallar ölkəmizdə idmanın inkişafının göstəricisidir.

Afrika qitəsindən gələn MOK rəsmiləri Azərbaycan Milli Olimpiya Komitəsi və Gənclər İdman Nazirliyi ilə idman sahəsində əməkdaşlığın gələcəkdə böyük səmərə verəcəyini deyiblər. Qonaqlar fürsətdən istifadə edib, ölkəmizdə səmimi qarşılanmaya görə öz təşəkkürlərini bildiriblər.

## Tennisçilərimizin 3 bürüncü

**Birləşmiş Ərəb Əmirliklərində keçirilən "WTT Youth Contender" turnirində Azərbaycanın stolüstü tennisçiləri bürünc medal qazanıblar.**



Komandamızın üzvləri Rüstəm Hacılı – Aylin Əsgərova tandemi qarışıq qoşa, Onur Quluzadə ilə Yağmur Məmmədli isə şəxsi yarışlarda 3-cü yeri tutublar.

Qeyd edək ki, yarış oktyabrın 17-də başa çatacaq.

*L.AZAD*
*XQ*

***✓ Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 2010-cu il fevralın 10-da 100110A1-213 saylı şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış Masallı rayonu, Köhnə Alvadı kənd məscidi dini icmasına məxsus 1 may 2024-cü il tarixli 3-32/3-211/2024 nömrəli qeyri-kommersiya qurumlarının dövlət reyestrindən çıxarış itdiyi üçün etibarsız sayılır.***

***✓ Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 2009-cu il dekabrın 15-də 100109A2-100 saylı şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış Masallı rayonu, Şərəfə kənd məscidi dini icmasına məxsus 30 mart 2023-cü il tarixli 3-32/3-3-35/2023 nömrəli qeyri-kommersiya qurumlarının dövlət reyestrindən çıxarış itdiyi üçün etibarsız sayılır.***

## Həyatın içindən

**...Evdən çıxanda gərək başıma papaq qoyaydım. Yəqin, onda bu günə düşməzdim. Səs qopdu, dedim, yəqin, uşaqlar İran pistonu partladırlar... Ağlım özümə gələndə bildim ki, başıma dəyən daş imiş. Gördüm, gözüm qaralır. Əlimi daş dəyən yerə qoyub, söykəndim divara...Xeyli beləcə qaldım. İncəvara, başım partlamamışdı. Sonra fikirləşdim ki, burada daşla oynayan, göyə daş atan kim olar? Çünki hərə öz işində, alverində idi – satan satırdı, alan alırdı, dalaşan, eləyən də yox idi. Bəs, bu daşı kim atdı?**

edən cavan oğlan mini-marketin satıcısına dedi. O isə əsəbiləşərək: "Sən ölənnərün goru, apar o yana, görəsən neçə gündən qalıb, sırımaq istiyirsən bizə".

"Sədərək" yarmarkasının qarşısında nə olmuşdusa, bir arvad kişiyə deyirdi:

– Kül sənin başuva, şalvar geyinmisən, elə bilirsən sən də kişisən...

# "Sədərək"də başıma dəyən daş...

Yavaş-yavaş özümə gəlirdim. Məndən 2-3 metr aralı biri öz-özünə deyinirdi: "Göydən daş yağdır, ay Tanrı! Məni it elə, qurd elə. Belə də dünya olar? Biri milyonları bir saatda xərcləyir, mən bir ay burada çalışıb-vuruşuram, balalarımın əyin-başını, qarınlarının çörəyini qazana bilmirəm".

İstədim deyəm ki, rəhmətliyin qızı, başıma hələ balaca daş dəyib ağlım başımdan çıxıb. Göydən daş yağsa gör nə olar.

Bir satıcı qadın mənə baxıb nə düşündüsə dedi:

–Sən niyə orada dayanıb, pişik kimi marıtdıyırsan? Yoxsa kurtka çırpışdırmaq istəyirsən? Dur, keç o yana...Ay başuza dönüm, bu məmləkətdə nə qədər dədəsindən-nənəsindən, arvadından, ərindən küsən var, görəsən, niyə mənə rast gəlir? Mən başı daşlı balalarıma çörək qazanım, yoxsa bunları tərbiyələndirim?

Üzümü çevirdim. Qarşımda gözmuncuğu satan bir pəzəvəng uşaq kalqotqasına bənzər bir şey geyinmiş xanıma deyirdi:

– Dədəmin qəbriyçün, birindən mənə cəmi 50 qəpik qalır.

Qadın isə gözmuncuğulara baxıb dedi ki, bunların hamısı saxtadı. Sonra da kişiyə tərs-tərs baxıb getdi.

Qadın bir az aralanmışdı ki, kişi onun dalınca dedi:

– Bunun forsuna bax, ee! Yox bilməmişdik, sənə iki manata mirvari gözmuncuğu verəcəydim. Sənin harana göz dəyəcəkdi ki?

Bir qoca üzbəüzdə divara qısılaraq papağını qarşısına qoyub dilənirdi. Ayağa duranda istədim ona bir çörəkpulu verim. Əlim cibimin cırıq yerindən, utanmaz-utanmaz da danışıram, keçdi içəriyə. Deyəsən, pullarımı salıb itirmişdim. Sonra yadıma düşdü ki, fikrim özümdə olmayıb, şalvarı dəyişmişəm, pullar qalıb o birinin cibində. Yaxşı ki, avtobus kartını köynəyin cibinə qoymuşdum...

Bu ara iki uşaq əllərində xırdavat oxuyurdular:

– Anam məni yetişdirib tolkuçkaya yolladı,
Dollara qurban deyib...



– Yol verin, yol verin, – deyə-deyə arabasına yol açan kişi mənə tanış gəldı. Əvvəl elə bildim Cabbar kişidir. Sonra yanıldığımı başa düşdüm. Cabbar kişi bir vaxtlar rayonumuzun mərkəzində qarışıq mallar mağazasında işləyirdi. Sovetin çat verən, yağın qıt olduğu dövr idi. Cabbar kişi kimə nə qədər yağ, qənd, şəkər tozu, düyü satırdısa, hər kilosundan yüz qramadək kəsirdi. Çoxları dönüb onun ya üzünə, ya arxasınca söyürdü. O, isə bircə bunu deyirdi: "Bağışla, səhv olub…"

Bir gün biri soruşur ki, ay Cabbar, səni ki, bu qədər söyürlər, niyə cavab vermirsən? Cabbar da tövrünü pozmadan deyir: "Onlar deyənlə, mən deyən arasında az fərq var. Onlar hündürdən söyürlər, mən isə ürəyimdə. Bununla da oluruq heç-heçə".

–Ay Əziz müəllim, dönər yeyəcəksən?

Bunu saçları qarışıq, üzü tüklü, qucağındakı yeşiyə dönər yığaraq, gəzə-gəzə ona-buna təklif

Məntiqlə qadın düz deyirdi – hər şalvar geyinən kişi olsaydı, nə vardı ki. Sənə elə şalvar geyinən göstərərəm ki, gözün bərələ-bərələ qalar. Sonra da şalvar icad eyləyəni o ki, var söyərsən. Yəqin bayaq göydən daş yağmasını istəyən qadın özünü qız kimi aparmaq istəyən, gözlərinə sürmə çəkən, boynu muncuqlu, dar şalvarlı oğlancığaza baxıb deyirmiş o sözləri.

Doğrudan da, "tolkuçka"da hər şey, hər cür adam varmış. Oraya təkcə alverə yox, elə gəzib müşahidə etmək üçün də getməyə dəyər.

Yorulmuşdum. Nəsə almağa həvəsim də qalmamışdı. Həm də axı, pulum o biri şalvarın cibində qalmışdı. Avtobusa minib, əlim ətəyimdən uzun qayıtdım geri. Daşın dəydiyi yer isə hələ də ağrıyırdı.

*Səməd MƏLİKZADƏ*

# Zəngəzur Milli Parkında ekodüşərgə

**COP29 və "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkında könüllü gənclər və məktəblilər üçün birgünlük ekoloji düşərgə təşkil olunub. Düşərgədə müxtəlif təlimlər, intellektual yarışlar, əyləncəli idman oyunları, təbiətdə yürüş və təmizlik aksiyası keçirilib.**



Görüşdə Gənclər və İdman Nazirliyinin şöbə müdiri İlahə Haqverdiyeva, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Saleh Həsənov düşərgənin məqsəd və hədəfləri haqqında danışıb, proqramdakı fəaliyyətləri diqqətə çatdırıblar.

Qeyd olunub ki, COP29 kimi mötəbər tədbirə evsahibliyi etməsi, "Yaşıl dünya naminə həmrəylik ili", Naxçıvanın "yaşıl enerji zonası" elan olunması, ümumilikdə, ekosistemin qorunması sahəsində həyata keçirilən mühüm və ardıcıl tədbirlər Azərbaycanın iqlim dəyişmələri ilə mübarizəyə həssas yanaşmasının, qlobal müstəvidən baxışının göstəricisidir.

Muxtar respublikada gənclərin bu məsələlərə münasibətdə ideya və fəaliyyətləri dəstəklənir, onların iştirakı ilə müxtəlif ekoloji tədbirlər təşkil olunur.

Gün boyunca gənclər əyləncəli idman oyunlarında intellektual yarışmaya qatılıb, "Batabat" yaylağı istiqamətində yürüş ediblər.

Gənclər yürüşün sonunda təmizlik aksiyası keçirərək, ekodüşərgənin hədəflərinə öz töhfələrini veriblər.

*XQ*

## Hava

## Abşeronda yağmursuz, bölgələrdə yağış, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 17-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim cənub-şərq küləyi əsəcək. Gecə 13-16°, gündüz 17-20° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunundan 757 mm civə sütununa enəcək, nisbi rütubət gecə və gündüz 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 17-21°, dağlarda gecə 3-8°, gündüz 10-15° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

## Türkiyədə zəlzələ

**Türkiyədə baş verən güclü zəlzələ nəticəsində 94 nəfər yaralanıb. "Anadolu" agentliyi xəbər verir ki, bu barədə Elazığ valisi Numan Hatipoğlu bildirib. Onun sözlərinə görə, zəlzələ nəticəsində, eyni zamanda, iki bina ziyan görüb.**

Zəlzələ ilə əlaqədar ölkənin Malatya, Elazığ, Şanlıurfa, Batman ve Adıyaman vilayətlərində tədris prosesi bir günlük dayandırılıb.

Daxili işlər naziri Ali Yerlikanın açıqladığı son statistikaya görə, 187 vətəndaş təbii fəlakətdən zərər görüb, onlardan 43-ü hazırda müşahidə altındadır.

*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dillər Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi Tərcümə fakültəsinin müəllimi Aynur Quliyevaya atası, görkəmli yazıçı-publisist

**VAQİF ƏLİXANLININ**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Əzizağa, Məlahət, Aydın və Toğrul Talışinskilər əziz dostları, professor

**ZAKİR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Xalq qəzeti"nin əməkdaşı Namiq Əhmədov Talıb Süleymanova əzizi, prokurorluq orqanlarının veteranı

**MƏZAHİR SÜLEYMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2372
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00